RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 241 (9408) 3 NOYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana səfər edib




**Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfər edib.**

AZƏRTAC xəbər verir ki, Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşılayıblar.

## "Dəmir yumruğ"un polad sipəri



### Müzəffər Komandanın qəhrəman əsgərləri olan daxili işlər orqanlarının əməkdaşları Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminində böyük rəşadət göstərdilər

**Birinci Qarabağ müharibəsi...**

Yeganə silahlı asayiş keşikçiləri kimi savaşa ilk qatılan cəsur igidlər oldular…

Ağdamdan Şuşaya, Ağdərədən Qubadlıya, Kəlbəcərdən Zəngilanadək savaşın getdiyi bütün ərazilərdə şərəflə döyüşdülər...

Sıralarından 932 qəhrəmanı şəhid verdilər...

**İkinci Qarabağ müharibəsi...**

Vətən savaşının ilk dəqiqələrindən silaha sarıldılar, 44 gün ərzində erməni işğalçılarının başını əzdilər, belini qırdılar, Şuşada ucaltdıqları bayrağın timsalında örnək, qəhrəmanlıq nümunələri yaratdılar...

66 şəhidlə ölməzlik dastanı yazdılar...

Tarixi Zəfər paradında Müzəffər Ali Baş Komandanın önündən keçərək qələbə raportunu verdilər, həm də böyük himayədarları olan Ulu Öndər Heydər Əliyevin ruhu qarşısında daşıdıqları borcu ləyaqətlə ödədilər...

**19-20 sentyabr 2023-cü il…**

23 saatlıq antiterror tədbirlərində rəşadətlə savaşaraq, minlərlə hərbi qulluqçusunun qəhrəmanlığı və 20 şəhidinin müqəddəs qanı ilə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmininə şərəfli möhürlərini vurdular…

Onlar Azərbaycanın savaş qəhrəmanlarıdır, dövlətçiliyimizə qarşı qəsdləri zərərsizləşdirən vətənpərvərlərdir, ictimai asayişin təminində canlarından keçən igidlərdir...

Onlar şanlı Daxili İşlər Nazirliyimizin fədakar əməkdaşlarıdırlar…

### Vətən savaşının igid fədailəri

Daxili işlər orqanlarının 105 illik şərəfli tarixi və bu tarixin qürurlu tərkib hissəsi kimi dövlətçiliyə, xalqa sədaqətli xidmətin yüz minlərlə nümunəsi var. İstiqlalımızın polad sipərlərindən, sabitliyin və təhlükəsiz həyatın əsas təminatçılarından olan Azərbaycan polisi hansı siyasi quruluşda, ictimai formasiyada çalışmasından asılı olmayaraq, daim vətəndaşının etibarlı mühafizi, onun güvənc yeri olmuşdur.

→ 3

## Beynəlxalq nüfuzun real təcəssümü

### BMT-nin Prezident İlham Əliyevin neokolonializmlə bağlı müraciətini rəsmi sənəd kimi yayması etimad nümunəsidir

Azərbaycan Prezidentinin müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması dövlətimizə, Prezidentimizə etimadın və Azərbaycanın beynəlxalq proseslərdə oynadığı mühüm rolun göstəricisidir: "Bu həmçinin dünyanın neokolonializmə qarşı mübarizə sahəsində səylərinin təzahürüdür. Həmin səylər bütün dövlətlərin resurslarının səfərbər edilməsi, bəşəriyyətin rifahı, dünya kolonializmindən xilas olunması məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə gətirib çıxaracaq. Fransanın müstəmləkəçilik siyasətinə qarşı artıq beynəlxalq səviyyədə birbaşa çıxış etmək presidenti yaranıb və bunu da Azərbaycan yaradıb".

Bu həm ədalətin bərpası naminə, həm də Fransanın, həmçinin digər müstəmləkəçi dövlətlərin digər ölkələrə demokratiya, insan hüquqları "dərsləri" keçərək, əslində, onların daxili işlərinə müdaxilə etmələrinin qarşısının alınması məqsədini daşıyır.

→ 5

## *İordaniya səfiri:* "Ölkəm Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib"

QMİ sədri son günlər Yaxın Şərqdə baş verənlərə toxunaraq Qəzzada mülki şəxslərin, qoca, qadın və uşaqların həlak olmasına təəssüfləndiyini bildirib, siyasətçilərin sülhə nail olmaq üçün tezliklə müdrik qərarlar qəbul edəcəklərinə inandığını qeyd edib.

İordaniya səfiri Ömər Bərəkət əl-Nahar Kral II Abdullahın və Şahzadə Əmir Həsənin şəxsi salam-dualarını Şeyxülislama çatdırmaqdan məmnun olduğunu deyib: "Prezident İlham Əliyevə etimadnaməmi təqdim edərkən Azərbaycan xalqını Qarabağdakı tarixi Qələbə münasibətilə təbrik etdim. Ölkəm Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib, iki qardaş xalq arasında əlaqələrin inkişafında maraqlı olub. Doğma Azərbaycanda çalışacağım müddətdə münasibətlərin daha da möhkəmlənməsinə və müxtəlif sahələri əhatə etməsinə səy göstərəcəyəm".

→ 4

## Milli Məclisdə büdcə müzakirələri başladı

Növbəti il və sonrakı 3 il üzrə qeyd olunan çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur. Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılmış dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair birinci Dövlət Proqramı"nın icrası üçün 4 milyard manat, "Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə əlavə olaraq 1 milyard 509 milyon manat, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək.

→ 2

## "Azərbaycana qarşı qeyri-dost hərəkətlərə adekvat cavab veriləcək"

*Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir. Azərbaycana qarşı hər hansı qeyri-dost hərəkət müsbət nəticə verməyəcək və bu cür hərəkətlərə adekvat cavab veriləcək.*

AZƏRTAC xəbər verir ki, bu sözlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin ABŞ Dövlət Departamenti rəsmilərinin Azərbaycan əleyhinə bəyanatlarına cavabında yer alıb.

Ayxan Hacızadə təəssüflə bildirib ki, ABŞ onilliklər ərzində vasitəçi olsa da, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsini, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizlənmənin qurbanı olmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsi məsələsini heç zaman bu qədər qətiyyətlə təşviq etməyib. Bununla yanaşı, ABŞ beynəlxalq öhdəliklərə uyğun olaraq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə, Ermənistan silahlı qüvvələrinin çıxarılmasına, o cümlədən erməni qondarma rejiminin ləğvinə heç vaxt çağırış etməyib. Əksinə, ABŞ Ermənistanı yanlış istiqamətə yönəldib, separatçıların qeyri-qanuni fəaliyyətinin müdafiəsi məqsədilə ABŞ-yə səfər etmələri üçün imkanlar yaratmaqla və maliyyə vəsaiti ayırmaqla Azərbaycan ərazilərində qanunsuz rejimin saxlanılmasına dəstək verib.

→ 7

## Azərbaycan Fransanı ifşa edir

### Bütün platformalarda, bütün cəbhələrdə...

Müstəmləkəçi Fransa illərboyu başqa xalqlara qarşı silsilə qətliamlar törədib, başda əlcəzairlilər olmaqla əlini milyonlarla insanın qanına batırıb. Fransanın Afrikada, Yaxın və Uzaq Şərqdə həyata keçirdiyi neokolonializm siyasəti milyonlarla günahsız insanın fundamental hüquqlarını kobud şəkildə pozub. Bu gün də Fransanın müstəmləkəsi, əsarəti altında olan xeyli sayda xalq var.

Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans zamanı səsləndirildiyi kimi, Qvadelupa əhalisi dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır.

Martinikanın təbii sərvətləri talan olunaraq 90 faizi Fransaya və digər ölkələrə aparılır, Fransız Qvianası Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxarılaraq Fransaya daşınır.

→ 5

## MİLLİMİZ DÜNYA ÇEMPİONATININ YARIMFİNALINDA



→ 12

## Xocalı soyqırımının daha bir iştirakçısı saxlanılıb

### Madat Babayanın verdiyi məlumatlar üzrə araşdırmalar aparılır

Madat Babayan 26 fevral 1992-ci ildə azərbaycanlıların meyitlərini yığdıqları zaman Vamik Petrosyan, Şirin Şirinyan və digər dəstə üzvləri tərəfindən meyitlər üzərində təhqiredici hərəkətlərin törədilməsini, bundan başqa 100-dən çox mülki Xocalı sakininin əsir düşdüyünü müşahidə etmişdir.

→ 5

# Koreya Respublikasında bütün siyasi partiyalar Azərbaycanı yaxın dost hesab edirlər

**Koreya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 2-də Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAAP) həmsədri Çunq Eui-Yonq ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Milli Məclisinin Sədri ilə görüşməkdən məmnunluğunu bildirən Çunq Eui-Yonq Azərbaycana bir neçə dəfə səfər etdiyini bildirib, ölkəmiz və paytaxt Bakı haqqında xoş təəssüratlarını bölüşüb. O, Azərbaycan Prezidenti ilə 2015-ci ildə keçirdiyi görüşü böyük məmnunluqla xatırladaraq, Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi altında siyasi cəhətdən sabit inkişaf yolu keçdiyini bildirib. Çunq Eui-Yonq Azərbaycanın "COVID-19" qlobal pandemiyasından sonra yaxşı bərpa prosesi keçdiyini və hazırda yüksək iqtisadi inkişafa nail olduğunu söyləyib.

Milli Məclisin Sədri kimi Koreya Respublikasına ilk səfərindən və Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının həmsədri ilə görüşməkdən məmnunluğunu bildirən spiker Sahibə Qafarova səfər çərçivəsində keçirdiyi görüşlər barədə məlumat verib. O, hər iki ölkə parlamentinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi və genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəyinə inandığını bildirib.

Milli Məclisin Sədri Azərbaycan ilə Koreya Respublikası arasında münasibətlərin hazırkı səviyyəsinin sevindirici olduğunu, ölkələrimiz arasında fəal siyasi dialoq və sıx iqtisadi əməkdaşlığın ikitərəfli münasibətlərin bir çox sahələrdə inkişafı üçün möhkəm zəmin yaratdığını bildirib.

Ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verdiyini deyən İCAAP-ın həmsədri Çunq Eui-Yonq vurğulayıb ki, Koreya Respublikasında iqtidarda, yaxud müxalifətdə təmsil olunmasından asılı olmayaraq, bütün siyasi partiyalar Azərbaycanla güclü əməkdaşlığı dəstəkləyir və Azərbaycanı yaxın dost hesab edirlər.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyev tərəfindən irəli sürülən qlobal təşəbbüslər, o cümlədən Hərəkatın Gənclər Təşkilatı və Parlament Şəbəkəsinin yaradılması haqqında geniş məlumat verib. Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə İCAAP arasında mümkün əməkdaşlıq məsələləri müzakirə edilib.

Söhbət zamanı Azərbaycanın hakim Yeni Azərbaycan Partiyası ilə İCAAP arasında əməkdaşlığın müxtəlif istiqamətləri, təşkilatın Bakıda keçirilən mühüm tədbirləri barədə də müzakirələr aparılıb. Qeyd olunub ki, 370-dən çox siyasi partiyanı birləşdirən İCAAP Asiya regionunda sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq edən mühüm platformadır. Azərbaycanın hakim partiyası olan Yeni Azərbaycan Partiyası 2009-cu ildən bu təşkilatın üzvüdür. Sahibə Qafarova YAP-ın İCAAP çərçivəsində fəaliyyətə böyük əhəmiyyət verdiyini və onun fəaliyyətinə hər zaman dəstək olduğunu qeyd edib. O bildirib ki, YAP yarandığı gündən Azərbaycanın siyasi həyatında aparıcı partiyadır. Partiya 1992-ci ildə bu il Azərbaycanda 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən yaradılıb.

Çunq Eui-Yonq isə Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq əlaqələri barədə də məlumat verərək, YAP-ın İCAAP-ın işinə güclü dəstəyinə və təşkilatda fəal iştirakına görə təşəkkürünü ifadə edib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova regionda mövcud olan vəziyyət, Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlaması, ölkəmizin 2020-ci ildə öz ərazi bütövlüyünü bərpa etməsi və işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri barədə də məlumat verib. Spiker deyib ki, İCAAP-da heç vaxt ikili standartların şahidi olmamışıq və bu təşkilat baş verən proseslərə həmişə obyektiv münasibət sərgiləyib, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh və təhlükəsizliyə hər zaman dəstək verib.

Spiker Sahibə Qafarova həmçinin cari ilin sentyabr ayında Azərbaycanın həyata keçirdiyi lokal antiterror tədbirləri nəticəsində öz suverenliyini bərpa etməsi barədə də danışıb. O bu tədbirlərin yalnız qeyri-qanuni hərbi birləşmələri və hərbi infrastrukturu hədəfə aldığını, mülki əhaliyə və obyektlərə heç vaxt hücum edilmədiyini və bununla bağlı hər hansı iddianın əsassız olduğunu diqqətə çatdırıb. Spiker Qarabağ bölgəsinin etnik erməni sakinlərinin reinteqrasiya prosesi, Azərbaycanın sülh təşəbbüsləri barədə də danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Yüksəksəviyyəli səfərlər və görüşlər əlaqələrin daha da genişlənməsinə xidmət edir

**Milli Məclisin Sədri Sahibə Qafarova Koreya Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 2-də bu ölkə parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Suh Byunq Su və qrupun üzvləri ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunduğu görüşdə siyasi təmasların - yüksəksəviyyəli səfərlərin, görüşlərin bu əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirilib.

Spiker Sahibə Qafarova hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsindən, deputatların qarşılıqlı əməkdaşlığından razılığını bildirib, parlamentlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Suh Byunq Su Milli Məclisin Sədri Sahibə Qafarovanın bu səfərinin əlaqələrimizin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib, özünün Azərbaycana səfərləri və xoş təəssüratları barədə danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə və parlamentlərimiz arasında münasibətlərin daha da inkişafına dair fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədr müavini vətəndaş qəbulu keçirib

**Noyabrın 1-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev deputat seçildiyi 20 saylı Nərimanov ikinci seçki dairəsində seçicilərinin, habelə ərazi məhdudiyyəti olmadan şəhid ailələrinin və qazilərin növbəti qəbulunu keçirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bakının Nərimanov rayonunda yerləşən deputat ofisində keçirilən qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan müxtəlif məsələlər müzakirə edilərək bir qismi Adil Əliyev tərəfindən yerindəcə həll edilib. 61 nəfər vətəndaşın iştirak etdiyi qəbul zamanı onların qaldırdıqları müxtəlif məzmunlu sosial, məişət şəraitinin yaxşılaşdırılması, kommunal problemlərin aradan qaldırılması ilə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti qurumlara sorğular hazırlanması ilə bağlı göstərişlər verilib. Həmçinin vətəndaşların mövcud qanunvericiliklə bağlı sualları cavablandırılıb, onları narahat edən məsələlərin hüquqi müstəvidə həlli istiqamətləri izah olunub, aidiyyəti müraciətlər hazırlanıb.

Görüşdə vitse-spiker Adil Əliyev qarşıdan gələn Zəfər Günü münasibətilə vətəndaşlara təbriklərini çatdırıb. O, vətəndaşların müraciətlərinə yüksək həssaslıqla yanaşılması barədə dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, daxil olmuş vətəndaş müraciətlərinə yüksək həssaslıqla yanaşıldığını, müraciətlərin tam, hərtərəfli araşdırılaraq, onların həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun şəkildə addımlar atıldığını diqqətə çatdırıb.

***"Azərbaycan"***

# Milli Məclisdə büdcə müzakirələri başladı

**Noyabrın 2-də keçirilən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirə olunub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili qeyd edib ki, ölkənin 2024-cü il üçün dövlət və icmal büdcəsinin layihəsi və sonrakı 3 il üçün dövlət və icmal büdcənin parametrləri, orta müddətli dövr üçün makro-iqtisadi proqnoz göstəriciləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada Milli Məclisə daxil olub.

Komitə sədri bildirib ki, 2023-cü ildə cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü qeyd olunub. 20 il ərzində ölkə iqtisadiyyatı 4 dəfədən çox, büdcə xərcləri 30 dəfədən çox artıb. Bu il həm də Azərbaycan bayrağının Xankəndidə ucaldılması ilə yadda qalacaq.

Diqqətə çatdırılıb ki, təqdim edilən büdcə layihəsində son 7 ildə ilk dəfə olaraq büdcə gəlirlərinin 51 faizə qədərinin qeyri-neft sektorunun hesabına formalaşması təklif olunur. Bu ilin 9 ayı ərzində Azərbaycanda 91 milyard manata yaxın ÜDM istehsal olunub, bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faizə yaxın artım təşkil edir. Qeyri-neft sektorunda 9 ay ərzində artım 3 faizə yaxın olub. Neft-qaz sektorunda 1,5 faiz azalma ÜDM-in ümumi həcminə təsir göstərib. Proqnozlara əsasən, bu ilin sonuna ÜDM-də 1,9 faiz artma müşahidə olunacaq.

Tahir Mirkişili bildirib ki, növbəti ildə ÜDM-in 2,4 faiz, qeyri-neft sektorunun 4,6 faiz artması gözlənilir. Təqdim edilmiş sənədlərdə 3 ssenari - baza, optimist və pessimist ssenarilər təklif olunur. Baza ssenaridə neftin 1 barelinin qiymətinin 60 ABŞ dolları, optimist ssenaridə 80 ABŞ dolları, pessimist ssenaridə isə 40 ABŞ dolları ətrafında olacağı göstərilir.

Komitə sədri qeyd edib ki, büdcə layihəsində növbəti ilin gəlirlərinin cari ilə nisbətən 282,5 milyon manat, xərclərinin isə 138,2 milyon manat artması planlaşdırılır. Büdcə layihəsində sosial xərclərin 1 milyard 34,5 milyon manat artması planlaşdırılır və bu da insanların maddi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Maliyyə naziri Samir Şərifov bildirib ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla, güclü milli iqtisadi resurslara söykənərək Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı ilə bağlı mühüm əhəmiyyətə malik tədbirlərin maliyyələşdirilməsi üçün zəmin yaradır. Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük qayıdışa dair birinci Dövlət Proqramında müəyyən edilmiş mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradılması əsas prioritet xərc istiqamətləri kimi nəzərdə tutulub. Bu prioritet istiqamətlər həmçinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" ilə müəyyən edilmiş tədbirlərin icrasının maliyyə təminatı üçün 2024-cü ilin dövlət büdcəsi xərclərinin üçdə biri qədər vəsait ayrılacaq.

Nazir qeyd edib ki, növbəti il və sonrakı 3 il üzrə qeyd olunan çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur. Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılmış dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, 2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq.

Diqqətə çatdırılıb ki, dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu, 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair birinci Dövlət Proqramı"nın icrası üçün 4 milyard manat, "Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə əlavə olaraq 1 milyard 509 milyon manat, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə ödəniləcək kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsi vəsaiti hesabına maliyyə yardımının göstərilməsi və işğaldan azad edilmiş ərazilərdə müvafiq strukturların yaradılması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bildirilib ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 42,9 faizi, onun cari xərclərinin isə 69,7 faizi və ya 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istifadə olunacaq. Cari ilin göstəriciləri ilə müqayisədə bu 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. O həmçinin dövlət büdcəsində təhsil, səhiyyə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti, mənzil və kommunal təsərrüfatı, kənd təsərrüfatı tədbirləri, ətraf mühitin mühafizəsi, dövlət əsaslı vəsait qoyuluşu, sahibkarlığın dəstəklənməsi, beynəlxalq fəaliyyət və bir sıra digər sahələrə ayrılmış xərclərə dair göstəriciləri nəzərə çatdırıb.

Maliyyə naziri 2024-cü il üçün icmal büdcənin əsas göstəriciləri ilə bağlı bildirib ki, icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2,9 faiz təşkil edəcək.

Nəzərə çatdırılıb ki, Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə büdcənin gəlirləri və xərcləri bərabər olmaqla Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

Maliyyə naziri 2024-cü il üçün dövlət və icmal büdcələrinin ölkəmizin müdafiəsi və milli təhlükəsizliyi, Böyük qayıdışın uğurla həyata keçirilməsi, dövlətimizin hərtərəfli inkişafı və digər prioritet hədəflər üçün maliyyə təminatı yaradacağını söyləyib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək, 2024-cü il və sonrakı 3 il üçün sosial-iqtisadi inkişafın parametrləri barədə məlumat verib. O, büdcə layihəsinin hazırlanmasının mürəkkəb qlobal şəraitə təsadüf etdiyini söyləyib. Nazir qeyri-neft sektorunun bütün istiqamətlərində müşahidə olunan artımla bağlı göstəriciləri diqqətə çatdırıb. Mikayıl Cabbarov xarici ticarət balansında böyük həcmdə profisit müşahidə olunduğunu, qeyri-neft sektorunun ixracının artdığını qeyd edib, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirlərinin inflyasiyanın azalmasına imkan verdiyini söyləyib.

Qeyd edilib ki, iqtisadi artımın və şəffaflaşma prosesinin davam etməsi şəraitində cari ilin 9 ayında vergi daxilolmaları üzrə proqnoz tapşırığı 106 faiz icra edilməklə, proqnozdan əlavə dövlət büdcəsinə 723 milyon manat vəsait daxil olub. Neft-qaz sahəsindən vergi gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 1 milyard 150 milyon manat, qeyri-neft-qaz sahəsində isə 1 milyard 200 milyon manat artıq icra edilib. Bununla yanaşı, sosial sığorta yığımları üzrə yüksək artım dinamikası müşahidə edilməkdədir.

Nazir əmək haqları sahəsində aparılan islahatlara toxunaraq, son 4 il 9 ay ərzində 340 mindən çox yeni əmək müqavilələrinin bağlandığını, ildə 71 min yeni daimi iş yerinin yaradıldığını söyləyib. O bununla əlaqədar əmək bazarında peşə hazırlığı, təhsil və miqrasiya siyasəti ilə bağlı sahələrdə müvafiq addımların atılmasının vacibliyini qeyd edib.

Mərkəzi Bankın sədri Taleh Kazımov mövcud qlobal və daxili iqtisadi mühit, valyuta ehtiyatları, maliyyə sabitliyinin qorunması, sığorta sektorunda, nağdsız ödənişlər sahəsində vəziyyət, manatın məzənnəsi və bir sıra digər məsələlərlə bağlı fikirlərini açıqlayıb, 2024-cü il üçün ölkənin monetar siyasəti və əsas istiqamətləri barədə məlumat verib.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov 2024-cü ilin dövlət büdcə daxilolmalarında gömrük orqanlarının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün lazımi işlərin həyata keçiriləcəyini söyləyib. O, tarif dərəcələrinin azaldılmasının, idxalla bağlı gömrük dəyərləndirilməsinin düzgün həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2024-cü ilin dövlət büdcəsinin layihəsi ilə bağlı palatanın rəyini təqdim edib. Bildirib ki, 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş makroiqtisadi çərçivəyə əsasən, növbəti il ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi proqnozlaşdırılır. Vüqar Gülməmmədov qanun layihəsinin bəzi maddələri üzrə palatanın tövsiyələrini diqqətə çatdırıb, sənədin büdcə qaydasına uyğunluğundan danışıb.

Sonra iclasda 2024-cü ilin dövlət büdcəsi layihəsi ətrafında geniş müzakirələr aparılıb. komitə üzvləri həmçinin parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri büdcə layihəsi, onun parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri kimi məsələlərlə bağlı rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Qaldırılan məsələlərə aydınlıq gətirildikdən sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# "Dəmir yumruğ"un polad sipəri

*Əvvəli 1-ci səh.*



**Müzəffər Komandanın qəhrəman əsgərləri olan daxili işlər orqanlarının əməkdaşları Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminində böyük rəşadət göstərdilər**

























Elə müstəqillik tariximizin bütün keşməkeşli, çətin mərhələlərində, tarixi məqamların hər birinin mahiyyətində daxili işlər orqanlarının şərəfli, sədaqətli və peşəkar fəaliyyəti əlahiddə iz qoyub. Son illərdə isə Böyük zəfərə verdiyi töhfələri, cinayətkarlığa qarşı mübarizədə davamlı nailiyyətləri və pandemiya dövründəki fədakarlıqları ilə şanlı missiyalarına nə qədər sədaqətlə bağlı olduqlarını əyani nümayiş etdirdilər.

Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlar fonunda Azərbaycan Respublikası Cənubi Qafqazın yeni təhlükəsizlik sisteminin yaradıcısı kimi Avrasiya məkanında da etibarlı sülh və möhkəm asayiş arxitekturasının formalaşmasına mühüm töhfə verir. Bu kontekstdə daxili işlər orqanlarının ictimai asayişin qorunması, kriminogen duruma nəzarət, cinayətkarlığa qarşı uğurlu mübarizə sahəsində müstəsna xidməti diqqəti xüsusilə cəlb edir.

Hüquq-mühafizə, xüsusən də daxili işlər orqanlarının böyük əzmkarlığı sayəsində Azərbaycan uzun illərdir sabitlik, təhlükəsizlik adasına çevrilib. Vətən savaşında əldə edilən Zəfərlə bu əmin-amanlıq dövlət başçımızın səyi ilə artıq bütün bölgəyə yayılır. Azərbaycanın ərazi bütövlüyünün təmini, separatizm və təcavüz elementlərinin məhv edilməsi bütünlüklə regionun ictimai ab-havasına müsbət təsir göstərir.

Xalqımızın misilsiz bayramına, böyük iftixarına çevrilən Azərbaycanın böyük Zəfərinin üçüncü ildönümü daxili işlər orqanlarının əməkdaşları üçün də müqəddəs dəyər kimi qəbul edilir. Qarabağın və Şərqi Zəngəzurun hər bir bölgəsində, məntəqəsində artıq öz vəzifələrini böyük ləyaqətlə həyata keçirən daxili işlər orqanlarının şəxsi heyəti Zəfərin ildönümünü indi Xankəndidən Ali Baş Komandana verilən raportun qüruru ilə daha coşqulu qeyd edir.

Zəfərdən bizi artıq üç il vaxt ayırır. Bu müddət xalqımızın böyük qələbəsini tam mahiyyəti ilə təhlil etməyə və onun nəticələrinə real qiymət verməyə kifayət edir. "Dəmir yumruğ"u ilə 32 illik amansız müharibəyə qətiyyətlə son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyevin qazandığı Zəfər Azərbaycan tarixinin dönüş mərhələsidir. İkiəsrlik ədalətsizliyi aradan qaldıran, Ulu Öndərin müqəddəs vəsiyyətini yerinə yetirən, Qafqaz regionunun bundan sonrakı iqtisadi, geosiyasi vəziyyətini, hərbi müqəddəratını və asayişini dəyişdirən tarixi Zəfər Silahlı Qüvvələrimizin, habelə daxili işlər orqanlarının mükəmməl gücə çevrildiyini təsdiqlədi.

## Murovdan Xankəndiyədək Zəfər yolu

Xüsusi vurğulanmalıdır ki, hər iki Qarabağ savaşının hərbi salnaməsi daxili işlər orqanları şəxsi heyətinin göstərdiyi qəhrəmanlıq, cəsurluq, şücaət faktları ilə zəngindir.

Silahlı Qüvvələrimizin tərkib hissəsi olan daxili işlər orqanları Vətən savaşının ilk dəqiqələrindən Ali Baş Komandanın müsəlləh əsgərləri kimi vəzifə borclarını şərəflə, məsuliyyətlə icra etməyə başladılar. Qeyd edək ki, hələ Birinci Qarabağ savaşı dönəmində ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının şəxsi heyəti rəşadətlə döyüşmüş, böyük qəhrəmanlıq örnəyi yaratmışdır. Öncəki savaşda 932 əməkdaş şəhid olmuş, 681 nəfər yaralanmışdır.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimizin tərkibində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini verdilər. Ön cəbhənin bütün istiqamətlərində şəxsi heyət düşmənə qarşı igidliklə döyüşərək, torpaqlarımızın azad olunması tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirdi. Yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək "dəmir yumruq"la erməni işğalçıların başını əzdi.

Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 66 nəfərin şəhid olması, 346 nəfərin isə yaralanması həm ağrılı və kədərli, həm də qürurlu və şərəfli salnamədir. Cənab Prezident tərəfindən 1377 hərbi qulluqçu yüksək dövlət təltiflərinə, 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Vətən müharibəsi dövründə daxili işlər orqanlarının maddi-texniki təminat, tibb xidmətlərinin hərbi qulluqçuları da döyüş bölgəsinə ezam olundular, öz sahələri üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Səfərbərliyə cəlb edilənlər sırasında bir qrup ehtiyatda olan hərbi qulluqçu da vardı. Övladları və yaxın qohumları döyüşlərdə şəhidlik zirvəsinə ucalan, habelə qazi olan veteranlar da yetərincə idi.

Ən nəhayət, 23 saatlıq antiterror tədbirləri çərçivəsində Qarabağ bölgəsinin nəzarətsiz qalan ərazilərinin erməni silahlı birləşmələrindən birdəfəlik təmizlənməsi prosesində də Daxili İşlər Nazirliyinin şəxsi heyəti böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirdi. Sıralarından verdikləri şəhidlərin intiqamı Azərbaycanın ərazi bütövlüyünün tam təmini ilə döyüş meydanında alındı. Xankəndidə, Xocalıda, Xocavənddə Prezident İlham Əliyevin ucaltdığı müqəddəs bayrağımız Silahlı Qüvvələrin, o cümlədən daxili işlər orqanları şəxsi heyətinin Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"u ətrafında son qələbə naminə sıx səfərbərliyinin təntənəsi idi.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov son kollegiya iclasında ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu vurğulayaraq Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi Şəhər Polis Şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini söylədi. Nazir işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlərin görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdə çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd etdi. Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələri böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğuladı.





## Qarabağda və Şərqi Zəngəzurda xidməti fəaliyyətin yeni mərhələsi

Daxili işlər orqanları əməkdaşlarının qəhrəmanlıq missiyası heç də zəfərin əldə edilməsi ilə bitmədi. Onlar son üç ildir işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına da cavabdehdirlər.

Xatırladaq ki, üç il öncə Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar 22 şəhər və rayonda komendant saatı tətbiq edilmişdi. 2020-ci il sentyabrın 28-dən dekabrın 12-dək qüvvədə olan komendant saatı dövründə daxili işlər orqanları yalnız hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində deyil, ümumiyyətlə, respublika üzrə səfərbər oldular.

Hələ Ermənistan təslimçilik aktını imzalamamış və savaş bitməmiş Prezident böyük müdriklik və uzaqgörənliklə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzaladı. 29 oktyabr 2020-ci il tarixli həmin fərmana əsasən, işğaldan azad olunmuş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alındı. Fərman imzalandıqdan dərhal sonra bütün ərazilər üzrə komendantlıqlar yaradıldı, müvəqqəti komendantlar təyin olundu. Daxili İşlər Nazirliyinin və digər dövlət strukturlarının təmsilçilərinin iştirakı ilə ərazi komendantlıqları işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqindən başlayaraq bütün digər istiqamətlər üzrə mühüm vəzifələri icra etdilər.

Nəzərə alaq ki, bu bölgədə təhlükəsizlik tədbirləri görülmədən bərpa-yenidənqurma işlərinin aparılması, dinc həyatın bərqərar olması, vətəndaşlarımızın məskunlaşması mümkün olmazdı. Daxili İşlər Nazirliyinin şəxsi heyəti işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Xocavənd, Xocalı, Tərtər rayonlarının, eləcə də Şuşa və Xankəndi şəhərinin ərazilərində ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları yerinə yetirir. Gündəlik olaraq, qeyd olunan istiqamətlərdə stasionar postlar və piyada marşrutlarında əməkdaşlar komendant xidmətinin aparılmasına cəlb edilirlər.

Şəxsi heyətin işğaldan azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti çoxşaxəli olmaqla yüksək peşəkarlıq, sayıqlıq, qətiyyət və əzmkarlıq tələb edir. Öz növbəsində daxili işlər orqanlarının əməkdaşları qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir, Ali Baş Komandanın etimadını ləyaqətlə doğruldurlar.

İşğaldan azad edilmiş ərazilərdə polis orqanlarının idarə və şöbələrinin fəaliyyəti təşkil olunub, əməkdaşlar, eləcə də Daxili Qoşunların hərbi qulluqçuları xidməti vəzifələrini layiqincə yerinə yetirirlər. Qarabağda və Şərqi Zəngəzurda müvafiq postlar qurulub, təhlükəsizliyə tam nəzarət olunur.

Müzəffər Ali Baş Komandanın "Qarabağa, tarixi torpaqlarımıza onun sahibləri, biz qayıtmışıq. Bu torpaqlardan bir də heç vaxt çıxmayacağıq" bəyanatı da daxili işlər orqanlarının əməkdaşları üçün Qarabağ və Şərqi Zəngəzur bölgəsində xidmətin əsas məramı, məqsədi və hədəfidir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda xidməti fəaliyyət Azərbaycan Daxili İşlər Nazirliyinin şərəf salnaməsidir.

## Vətənin etibarlı keşiyində

Birinci Qarabağ müharibəsində, Vətən savaşında və antiterror tədbirlərində şəhid olan əməkdaşlar Daxili İşlər Nazirliyi tərəfindən daim böyük ehtiram və minnətdarlıqla anılırlar. Onların şanlı irsi yaşadılmaqla yanaşı, ailələri, doğmaları da daim nazirliyin himayəsindədir. Həmçinin döyüşlərdə yaralanmış və iştirak etmiş əməkdaşlar və hərbi qulluqçular qayğı, diqqətlə əhatə olunublar.

DİN tərəfindən Vətən savaşında iştirak etmiş və polis orqanlarında fəaliyyət göstərmək arzusunda olan gənclərə də xüsusi şərait yaradılır. Fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü müvafiq tələblərə cavab verdiyi təqdirdə onlar xidmətə qəbul edilirlər. İndiyədək bu kateqoriyadan, eləcə də şəhid ailələrindən yüzlərlə gənc xidmətə qəbul edilib.

Daxili İşlər Nazirliyinin şəxsi heyətinin ön cəbhəylə yanaşı, arxa cəbhədə də şərəfli xidməti xalqımız tərəfindən yüksək qiymətləndirilir. Koronavirus pandemiyası ilə mübarizə dövründə polis və Daxili Qoşunlar böyük fədakarlıq və əzmkarlıqla ən yüksək səviyyədə fəaliyyətləri ilə seçildilər. Əhalinin sağlamlığının qorunması üçün gecəli-gündüzlü xidmət apararaq pandemiya ilə mübarizədə ön sırada addımladılar.

Şübhəsiz ki, nümunəvi fəaliyyət və qazanılan bütün uğurlar Prezident İlham Əliyevin göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Dövlət başçısının daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali himayədarlıq, fəaliyyətinə verdiyi böyük dəyər və etimadı şəxsi heyət tərəfindən minnətdarlıqla qarşılanır.

İndiyədək Azərbaycan Prezidenti dəfələrlə Daxili İşlər Nazirliyinin müxtəlif struktur qurumlarında, xüsusən də Daxili Qoşunların hərbi hissələrində olub. Müzəffər Komandan şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti ilə də yaxından tanış olur, onların maddi-texniki təminatı ilə maraqlanır ki, bunlar da nəticə etibarilə əməkdaşların fəaliyyətində səmərəliliyi yüksəldir. Hər bir səfər həm də yeni sosial, hərbi obyektin açılışı ilə əlamətdar olur. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili İşlər Nazirliyi qarşısına qoyulmuş istənilən mürəkkəb tapşırığı yerinə yetirməyə qadir olan, dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib.

Daxili Qoşunların inkişafı və döyüş hazırlığı səviyyəsini artırması Ali Baş Komandan tərəfindən daim yüksək qiymətləndirilib. "Son illər ərzində Daxili Qoşunlar sürətli inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq, vətənpərvərlik var. Bu bizim üçün çox böyük nailiyyətdir", - söyləyən Prezident İlham Əliyev onu da qeyd edib ki, "Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov da şərəfli xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıq göstərmiş Daxili Qoşunların Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrildiyini vurğulayıb: "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində bu gün davamlı inkişafda olan Daxili Qoşunların döyüş hazırlığı, təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi yüksək səviyyədədir. Öz andına sadiq olan hərbçilərimizin respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyəti özünü Vətən müharibəsi dövründə bir daha təsdiqləmişdir".

Ümumən Daxili İşlər Nazirliyinin, onun təşkilati strukturları olan polisin və Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, onlar həmişə xalqın əmin-amanlığının, daxili sabitliyin sadiq keşikçisi olaraq respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak ediblər. Torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanaraq, həmin bölgələrdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində indi də yüksək peşəkarlıq göstərir, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlirlər.

*Prezident İlham Əliyevin dövlətçilik və müstəqillik kursunun etibarlı icraçısı olan Azərbaycan polisi asayişin, daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanır, respublikamızın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Vətənə, xalqa, Ulu Öndərin irsinə, möhtərəm Prezidentin siyasətinə sədaqət andına daim sadiq qalır.*

*Müzəffər Sərkərdəmizin qazandığı Zəfərin müstəqilliyimiz kimi əbədi olması naminə daxili işlər orqanlarının hər bir əməkdaşı qətiyyətlə, fədakarlıqla xidmət edir. Əlbəttə ki, başqa cür ola da bilməz!*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisinin açılışı olub











**Noyabrın 1-də Heydər Əliyev Mərkəzində Azərbaycan tarixinə ekskursiya etdirəcək "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisinin açılışı olub. Bu, Uzun Həsənə həsr olunmuş ilk sərgidir.**

AZƏRTAC xəbər verir ki, 2024-cü il yanvarın 17-dək davam edəcək sərgidə görkəmli dövlət xadimi və sərkərdə Uzun Həsənin həyatı, onun yaratdığı Ağqoyunlu dövlətinə dair məlumatlarla tanış olmaq və eksponatları izləmək mümkündür.

Qeyd edək ki, bu il Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin (1423-1478) anadan olmasının 600-cü ildönümüdür.

Mərkəzin foyesində ziyarətçiləri Xalq artisti Munis Şərifovun bədii rəhbərliyi ilə Qədim Musiqi Alətləri Ansamblı salamlayıb. Elə həmin məkanda Əməkdar artist Nailə Məmmədzadənin bədii rəhbərliyi ilə "Mirvari" rəqs qrupunun ifasında "Qılınclar ilə rəqs" təqdim edilib. "Helikon-opera" Moskva Musiqili Teatrının solisti Elnarə Məmmədovanın ifasında isə qədim zamanlardan bizə gəlib çatmış, hər bir azərbaycanlının qəlbində ən incə hisslərə toxunan "Sarı gəlin" xalq mahnısı səslənib.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin Tədbirlərin və sərgilərin təşkili departamentinin direktoru Əminə Məlikova bildirib ki, 2023-cü il Azərbaycan xalqı üçün çox əlamətdar illərdən biridir. Çünki bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü qeyd edilir. "Gənclərin elmi biliklərə yiyələnməsinə çox diqqətlə, həssaslıqla yanaşan Ulu Öndər Heydər Əliyev hər zaman onlara Azərbaycan tarixini yaxşı öyrənməyi tövsiyə edirdi", - deyə o qeyd edib.

Sərgidə Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən aparıcı muzeylərdən - Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Tarix Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi, Gəncə Tarix Diyarşünaslıq Muzeyindən eksponatlar nümayiş etdirilib. Türkiyənin İstanbul şəhərində yerləşən Hərb Muzeyindən çox nadir eksponatlar da sərgidə yer alıb. Onların sırasında Uzun Həsənə aid olan nadir eksponat - zirehli geyim xüsusilə diqqəti cəlb edib. Bildirilib ki, bu eksponat Heydər Əliyev Mərkəzində nümayiş üçün 4 ay ərzində bərpa və konservasiya olunub.

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı Hərb Muzeyinin (Harbiye Askeri Müzesi ve Kültür Sitesi Komutanlığı) kolleksiyasının Türkiyədən kənarda ilk dəfə qardaş Azərbaycanda sərgilənməsinin onlar üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. "Bizim üçün bu il həm Türkiyə Cümhuriyyətinin yaranmasının, həm də qardaş Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin anadan olmasının 100 illiyidir. Bu baxımdan bu, iki 100 illik dövrün mənasına uyğun sərgidir", - deyə diplomat qeyd edib.

Səfir Heydər Əliyev Fondunun rəhbərliyinə təşəkkür edərək, Heydər Əliyev Mərkəzinin Azərbaycanın ən məşhur məkanlarından biri olduğunu diqqətə





çatdıraraq deyib: "Bu mərkəzdə belə tarixi sərginin keçirilməsi bizim üçün vacibdir. Bu işdə Yunus Əmrə İnstitutunun töhfəsini qiymətləndirməmək olmaz və onun rəhbərliyinə təşəkkür edirik. Dəstəklərinə görə İstanbul Hərb Muzeyinə, İstanbul Topqapı Muzeyinə və Türkiyə Respublikası Prezidenti yanında Dövlət Arxiv İdarəsinə minnətdarlığımızı bildiririk. Bu kolleksiyada təkcə əşyaların deyil, bəzi sənədlərin də nümayiş etdiriləcəyinin şahidi olacağıq".

Yunus Əmrə İnstitutunun rəhbəri Şeref Ateş Heydər Əliyev Mərkəzində olmasından məmnunluğunu bildirərək deyib: "Türkiyənin və Azərbaycanın tarixi keçmişində mühüm yeri olan Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənə aid sərginin açılışında iştirak etmək Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" anlayışını yenidən canlandırmaq baxımından həqiqətən dəyərlidir. Buradakı eksponatları Türkiyədəki qurumlar, xüsusilə də Müdafiə və Mədəniyyət nazirlikləri və Türkiyə Prezidenti yanında Dövlət Arxiv İdarəsinin əməkdaşları Azərbaycandakı həmkarları ilə birlikdə seçiblər. Onların buraya gətirilməsi bir tərəfdən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana və azərbaycanlı qardaşlarımıza verdiyi dəyərin, digər tərəfdən Azərbaycan Prezidenti İlham Əliyevin xüsusilə Türkiyə ilə yalnız hərbi, siyasi və iqtisadi sahələrdə deyil, həm də mədəni, təhsil və sosial sahələrdə münasibətlərin inkişafı istiqamətində gördüyü işlərin göstəricisidir".

Rəhbərlik etdiyi institutun Azərbaycandakı gələcək fəaliyyətindən danışan Ş.Ateş xalqlarımızı bir araya gətirmək üçün belə fəaliyyətlərə dəstək göstərməyin vacib olduğunu qeyd edib. "İnanıram ki, bu sərgi üç ay ərzində Azərbaycanda çoxlu insanlar tərəfindən ziyarət ediləcək. Beləliklə, iki ölkə arasında əlaqələr konkret müstəvidə daha da inkişaf edəcək", - deyə o bildirib.

Türkiyə Respublikası Dövlət Arxivinin rəhbəri, professor Uğur Ünal ölkəsinin zəngin arxivlərindən bu sərgiyə az da olsa, töhfə verməkdən çox xoşbəxt olduğunu qeyd edib: "Bu gün burada milyonlarla sənəd arasında hökmdar Uzun Həsənə aid qeydlərdən bəzi nümunələri təqdim etmək fürsəti qazandığımız üçün son dərəcə xoşbəxtəm. Ona görə də arxivlərin diqqətdən kənarda qalaraq yazıldığı bir tarix heç vaxt reallığı əks etdirməyəcək. Real tarix yazmaq ancaq arxiv qeydləri ilə mümkündür. Arxiv qeydi olmayan hər hansı əsərin, əslində, bu mənada heç bir dəyəri yoxdur", - deyə U.Ünal diqqətə çatdırıb.



Sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgi "Uzun Həsən və Ağqoyunlu dövləti", "Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti", "Ağqoyunlu dövlətində mədəniyyət və incəsənət", "Sara Xatun - Azərbaycan tarixində ilk diplomat qadın", "Despinə Xatun" və digər bölmələrdən ibarətdir. Burada Uzun Həsən, onun anası, apardığı diplomatik danışıqlar nəticəsində bir çox müharibələrin qarşısını almağa müvəffəq olmuş Sara Xatun, Uzun Həsənin öz gözəlliyi ilə insanları valeh edən həyat yoldaşı Despinə Xatun haqqında məlumatlar yer alıb.

Ekspozisiyadakı "Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti" bölməsində ziyarətçilərə Sultan Uzun Həsənin yürütdüyü siyasət, Ağqoyunlu dövlətini kiçik bəylikdən böyük imperiyaya çevirməyə nail olmasından danışılır. Sərgidə Uzun Həsən, onun oğlu və davamçısı Sultan Yaqubun zirehləri, XV əsr Azərbaycan cəngavərlərinə aid silahlar da nümayiş etdirilir. Fərdi kolleksiyada saxlanılan, Uzun Həsənin qılınc və xəncərinin XV əsr texnologiyaları ilə düzəldilmiş replikaları, həmçinin dövrün hərbi ləvazimatlarından olan oxçu üzüklərini də sərgidə görmək mümkündür.

Sərgidə "Ağqoyunlu dövlətində mədəniyyət və incəsənət" bölməsinə yer ayrılması da təsadüfi deyil. Burada Ağqoyunlu dövlətində mədəniyyət, o cümlədən memarlıq və incəsənətin inkişafını nümayiş etdirən fotoşəkillər, Türkiyənin Topqapı Sarayı Muzeyi tərəfindən təqdim edilən miniatürlər, Türkiyənin Dövlət Arxivləri İdarəsi tərəfindən təqdim edilən Uzun Həsənin fərman və məktublarının surətləri ziyarətçilərə təqdim edilir.

Sərgidə Ağqoyunlu dövlətinə məxsus sikkələr, arxeoloji qazıntılar nəticəsində tapılan keramika nümunələri, mis əşyalar da yer alıb.

Eksponatlar arasında 1470-1480-ci illərə aid Təbriz miniatürlərinin əsasında da tikilmiş Ağqoyunlu dövləti hökmdarının rəsmi geyimini də görmək mümkündür. Sərgi üçün xüsusi olaraq üzərində XV əsrə aid nadir Təbriz miniatürünün təsvir edildiyi xalçalar, eləcə də Uzun Həsənin mum heykəli və portreti də hazırlanıb.

Ekspozisiyada Ağqoyunlu dövrünə aid bəzi məlumatlar həm də multimedia və interaktiv vasitələrlə çatdırılır. İnteraktiv xəritə ilə ziyarətçilərə Ağqoyunlu dövlətinin sərhədləri, onun ərazisindən keçən ticarət yolları, şəhərləri təqdim edilir. Multimedia zalında Uzun Həsənə həsr edilən film də nümayiş olunur.

Sərginin suvenir bölməsi də ziyarətçiləri cəlb edəcək məkanlardan biridir. Burada Ağqoyunlu dövləti, Uzun Həsənə həsr olunan və digər maraqlı suvenirlər təqdim edilir. Sərgi ərəfəsində Uzun Həsənin obrazını əks etdirən kiçik çini heykəllər də hazırlanıb. Ziyarətçilər bütün bu suvenirləri sərginin davam etdiyi müddətdə Heydər Əliyev Mərkəzindən əldə edə biləcəklər.

Qeyd edək ki, "AzerGold" QSC Uzun Həsənin 600 illiyi münasibətilə qızıl sikkələrin istehsalına başlayıb. Nəfis tərtibatda dizayn edilən, incə naxışlarla zərb qızıl sikkə ilk dəfə Heydər Əliyev Mərkəzində təşkil edilən "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisində nümayiş olunub və suvenir bölməsində məhdud sayda satışa çıxarılacaq.

Uzun Həsənin 600 illiyi münasibətilə "Azərpoçt" MMC tərəfindən poçt markası da dövriyyəyə buraxılıb və sərginin açılışında həmin markanın təqdimatı olub. Buraxılış bir markadan və kupondan ibarət blok şəklində hazırlanıb. Markanın üzərində Sultan Uzun Həsənin tuğrası qızılı folqa ilə həkk olunub. Kuponun üzərində isə onun Ağqoyunlu dövlətinin hökmdarı olduğu illər göstərilib.

Sərgi çərçivəsində Heydər Əliyev Mərkəzi tərəfindən Azərbaycan və ingilis dillərində "Ağqoyunlu dövlətinin hökmdarı - Uzun Həsən" adlı kitab da hazırlanıb. Kitabda görkəmli dövlət xadimi və sərkərdə Uzun Həsənin soykökü, şəxsiyyəti, daxili və xarici siyasəti, təşkil etdiyi qoşunlar, anası Sara Xatun, həyat yoldaşı Despinə Xatun, oğlu Sultan Yaqub, Ağqoyunlu dövründə Təbriz miniatür məktəbi, Ağqoyunlu silahları haqqında məlumatlar və müxtəlif muzeylərdəki həmin dövrə aid eksponatların fotoları, onlar barədə informasiyalar yer alıb.

# Heydər Əliyev Fondu tərəfindən hazırlanan Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət not kitablarının təqdimatı keçirilib

**Noyabrın 2-də Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondu tərəfindən hazırlanan Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərindən ibarət not kitablarının musiqili təqdimatı olub.**







AZƏRTAC xəbər verir ki, Könül Arifqızının aparıcılığı ilə keçirilən tədbirdə çıxış edən Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva təqdim edilən əsərlərin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Əbədi imzalar" layihəsi çərçivəsində işıq üzü gördüyünü bildirib.

O qeyd edib ki, notlar Azərbaycan musiqi ənənələrinin, bəstəkarlarımızın əsərlərinin qorunub saxlanılması və yeni nəsil arasında təbliği baxımından əhəmiyyətli rol oynayır.

Sonra "Əbədi imzalar" filminin nümayişi olub.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən bu tədbirin mühüm əhəmiyyət kəsb etdiyini deyib. Diqqətə çatdırıb ki, müasir dövrdə Azərbaycan musiqisi Heydər Əliyev Fondu tərəfindən bütün dünyada tanıdılır.

"Elə ölkə yoxdur ki, muğamımız və musiqimiz tanınmasın. Bu gün bütün ifaçılarımız hər bir əsəri səsləndirə bilər. Bir neçə müddət idi ki, bir qrup bu layihə üzərində çalışırdı. Layihə musiqimizin gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir", - deyə nazir müavini qeyd edib.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə not kitablarının hazırlanması zamanı ittifaqın əməkdaşlarının böyük təşəbbüs göstərdiyini bildirib. Xalq artisti bu cür topluların bütün dünyaya yayılmasından şad olduğunu söyləyib.

Tədbirdə Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Xalq artisti, dirijor Yalçın Adıgözəlov və Əməkdar artist, bəstəkar Vüqar Camalzadə çıxış edərək layihə üzərində çalışan hər kəsə təşəkkürlərini bildiriblər.

Qeyd edilib ki, layihə çərçivəsində Azərbaycan bəstəkarlıq məktəbinin altı görkəmli nümayəndəsi - Asəf Zeynallı, Cövdət Hacıyev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Vasif Adıgözəlovun simfonik, kamera-instrumental, vokal, fortepiano əsərləri, eləcə də müxtəlif alətlər üçün solo və xor partiyaları çap olunub.

Tədbirdə Üzeyir bəy Hacıbəylinin, Asəf Zeynallının, Qara Qarayevin, Fikrət Əmirovun və digər bəstəkarların xor, mahnı və instrumental əsərləri ifa edilib.

# *İordaniya səfiri:* "Ölkəm Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib"

**Noyabrın 2-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə İordaniya Haşimilər Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharla görüşüb.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam səfirə ölkəmizdəki yeni diplomatik fəaliyyətində uğurlar arzulayıb, iki dost və qardaş ölkə arasında münasibətlərin inkişafına yeni çalar qatacağına inandığını dilə gətirib.

QMİ sədrinin sözlərinə görə, Azərbaycanla İordaniya Haşimilər Krallığı arasında əlaqələr yüksək səviyyədədir və dövlət başçıları - Prezident İlham Əliyev ilə Kral II Abdullah arasındakı mehriban dostluq münasibətləri bu əlaqələrin daha da möhkəmlənməsi üçün müsbət zəmindir: "Azərbaycana təyinatınızın Zəfər bayramı ərəfəsinə təsadüf etməsi də xoş bir təsadüfdür. Xalqımız tarixi bir Qələbəyə imza atmaqla həm torpaqlarını işğaldan azad etdi, həm də öz ərazi bütövlüyünü təmin etməyə nail oldu. Vətən müharibəsində İordaniya Haşimilər Krallığı da daxil olmaqla dost dövlətlərin mənəvi dəstəyini xalqımız yüksək qiymətləndirir".

Şeyxülislam Allahşükür Paşazadə İordaniyaya çoxsaylı səfərlərini, orada keçirdiyi rəsmi görüşləri daim xoş xatirələrlə yad etdiyini səfirin diqqətinə çatdırıb: "Mərhum Kral Hüseynlə, həm də indiki dövlət rəhbəri Kral II Abdullahla görüşlərimdə şəxsimə qarşı böyük hörmət görmüşəm. Sevinirəm ki, İordaniya "Al əl-Beyt" İslam Fikri Kral Akademiyasının təsisçilərindən biri və həqiqi üzvüyəm, "I dərəcəli Kral Hüseyn" ordeni ilə təltif olunmuşam. Bu təltifləri təkcə şəxsimə və fəaliyyətimə deyil, dövlətimə, xalqıma verilən qiymət kimi dəyərləndirirəm".

QMİ sədri son günlər Yaxın Şərqdə baş verənlərə toxunaraq Qəzzada mülki şəxslərin, qoca, qadın və uşaqların həlak olmasına təəssüfləndiyini bildirib, siyasətçilərin sülhə nail olmaq üçün tezliklə müdrik qərarlar qəbul edəcəklərinə inandığını qeyd edib.

İordaniya səfiri Ömər Bərəkət əl-Nahar Kral II Abdullahın və Şahzadə Əmir Həsənin şəxsi salam-dualarını Şeyxülislama çatdırmaqdan məmnun olduğunu deyib: "Prezident İlham Əliyevə etimadnaməmi təqdim edərkən Azərbaycan xalqını Qarabağdakı tarixi Qələbə münasibətilə təbrik etdim. Ölkəm Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib, iki qardaş xalq arasında əlaqələrin inkişafında maraqlı olub. Doğma Azərbaycanda çalışacağım müddətdə münasibətlərin daha da möhkəmlənməsinə və müxtəlif sahələri əhatə etməsinə səy göstərəcəyəm".

Diplomat Azərbaycanda ilk nəvaziş görüşünün Şeyxülislam Allahşükür Paşazadə kimi nüfuzlu dini liderlə keçirməsinin təsadüf olmadığını diqqətə çatdırıb: "2005-ci ildə ölkəmdə Əmman Bəyannaməsi imzalanarkən siz orada iştirak etdiniz. Mən o zaman Kral Sarayında çalışırdım. İki il sonra isə Londonda Dinlər və Mədəniyyətlərarası Dialoqa dair Beynəlxalq Konfransda iştirak edərkən mən səfir kimi ölkəmi Böyük Britaniyada təmsil edirdim. Hər iki tədbirdə sizin necə böyük nüfuza malik olduğunuzu gördüm. Yaxından tanış olmaq, sizin kimi müdrik dini liderin tövsiyələrini eşitmək bu günə qismət imiş".

Səfir Şeyxülislamı ölkəsinə dəvət edib.

Dəvətə görə təşəkkür edən QMİ sədri İordaniyadakı dostları ilə görüşmək, Əmmandakı Heydər Əliyev küçəsini yenidən görmək imkanı qazanacağına inandığını bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

# Beynəlxalq nüfuzun real təcəssümü

## BMT-nin Prezident İlham Əliyevin neokolonializmlə bağlı müraciətini rəsmi sənəd kimi yayması etimad nümunəsidir



"Prezident İlham Əliyevin oktyabrın 20-də Bakı şəhərində keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb. Dövlətimizin başçısı müraciətində Azərbaycanın XXI əsrdə neokolonializmin davam etməsindən və bu meyillərin artmasından narahatlığını ifadə edib. Eyni zamanda Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında bəzi ölkələri işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan və əzablar verən Fransanın həmin ərazilərdə çoxsaylı hərbi cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətə görə yüz minlərlə dinc sakinlərə qarşı soyqırımı siyasəti həyata keçirdiyini diqqətə çatdırıb".

Bu sözləri Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə Prezident İlham Əliyevin neokolonializmlə bağlı müraciətinin BMT sənədi kimi yayılmasına münasibət bildirərkən deyib.

Deputat Fransanın bu cür utancverici siyasətinin hazırda da davam etdiyini bildirib. Eyni zamanda həmin müraciətdə Prezident İlham Əliyev Fransanın ən çox mina istifadə etmiş ölkələrdən biri olduğunu vurğulayıb, bu gün Azərbaycanın mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu qeyd edib, ölkəmizin Qoşulmama Hərəkatının Sədri kimi kolonializmə qarşı mübarizə aparan, azad olmağa çalışan xalqları dəstəklədiyini diqqətə çatdırıb.

K.Bayramov vurğulayıb ki, Azərbaycan Prezidentinin müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması dövlətimizə, Prezidentimizə etimadın və Azərbaycanın beynəlxalq proseslərdə oynadığı mühüm rolun göstəricisidir: "Bu həmçinin dünyanın neokolonializmə qarşı mübarizə sahəsində səylərinin təzahürüdür. Həmin səylər bütün dövlətlərin resurslarının səfərbər edilməsi, bəşəriyyətin rifahı, dünya kolonializmindən xilas olunması məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə gətirib çıxaracaq. Fransanın müstəmləkəçilik siyasətinə qarşı artıq beynəlxalq səviyyədə birbaşa çıxış etmək presidenti yaranıb və bunu da Azərbaycan yaradıb".

Deputat qeyd edib ki, bu həm ədalətin bərpası naminə, həm də Fransanın, həmçinin digər müstəmləkəçi dövlətlərin digər ölkələrə demokratiya, insan hüquqları "dərsləri" keçərək, əslində, onların daxili işlərinə müdaxilə etmələrinin qarşısının alınması məqsədini daşıyır.

Həmin konfransa bir çox ölkənin, həmçinin Fransanın müstəmləkəsi altında olan ərazilərin təmsilçilərinin qatıldığını xatırladan K.Bayramovun sözlərinə görə, bu tədbirdə əsas diqqət məhz Fransanın kolonial siyasətinə yönəlmişdi. Tədbirə qatılanların əksəriyyəti müxtəlif formada təzyiqə, ayrı-seçkiliyə, irqçi hücumlara məruz qaldığını qeyd edib.

Fransanın Afrika qitəsində siyasətini davam etdirdiyini vurğulayan deputat deyib ki, fransız qoşunlarının Niameya, Nigerdən və Burkina-Fasodan çıxarılması bu ölkənin Afrikadakı amansız, insanlıqdankənar neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu göstərir. "Fransanın bu cür siyasətinə son qoymağın vaxtı çatıb. Müstəmləkəçilikdən əziyyət çəkən və həm də müstəqil dövlətlər tərəfindən səylər birləşdirilərək Fransa siyasətinə qarşı mövqe ortaya qoyulmalıdır. Təbii ki, bu baxımdan cənab Prezidentin müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması ilk və vacib addım kimi qiymətləndirilə bilər", - deyə K.Bayramov əlavə edib.

O, qeyd edib ki, qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəməli, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışmamalıdır. Bu ölkə BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü kimi statusundan öz qərəzli, obyektivlikdən kənar siyasətini yürütmək üçün sui-istifadə edir. Müxtəlif regionlarda geosiyasi intriqalar yaradır.

K.Bayramov düşünür ki, Prezident İlham Əliyevin müraciətinin beynəlxalq sənəd kimi BMT-də yayılması ölkəmizə olan diqqətin, etibarın, ümumiyyətlə, Azərbaycanın sözünün beynəlxalq təşkilatlarda keçərli olduğunun sübutudur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xocalı soyqırımının daha bir iştirakçısı saxlanılıb

## Madat Babayanın verdiyi məlumatlar üzrə araşdırmalar aparılır

**Qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycan Respublikasının ərazilərində törətdikləri terrorçuluq və digər ağır cinayətlərlə bağlı araşdırmalar davam etdirilir.**



Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatına görə, 2023-cü ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində qanunsuz silahlı birləşmələrə daxil olmaqla "AKM" avtomatı ilə silahlanıb, mütəşəkkil dəstə halında milli ədavət və düşmənçilik niyyəti ilə terrorçuluq əməlləri törətməkdə şübhəli bilinən Babayan Madat Arakeli Kəlbəcər rayonunun Qozlukörpü kəndi ərazisində tərk-silah edilərək saxlanılmışdır.

İstintaq zamanı təqsirləndirilən şəxs Madat Babayan ifadəsində digər xüsusatlarla yanaşı həmçinin bildirmişdir ki, 1992-ci ilin fevral ayında Xocalı faciəsinin törədilməsində iştirakçı olmuş, 24 fevral 1992-ci il tarixdə "Xolostoy" ləqəbli Ermənistan silahlı qüvvələrinin polkovnik-leytenantı Arkadi Şirinyanın rəhbərliyi altında Kəlbəcər rayonunun Çapar, Qozlu və Qozlukörpü kəndlərinin sakinlərindən ibarət erməni silahlı birləşmələrinin tərkibində Kəlbəcərin Yayıcı, Heyvalı və Zəylik kəndlərindən gələn digər erməni silahlıları ilə Xocalı rayonunun Təzəbinə kəndində birləşərək azərbaycanlı əhalini məhv etmək məqsədilə qabaqcadan qurulmuş plana uyğun olaraq, 25 fevral 1992-ci il tarixdə gecə saat 23:00 radələrində Xankəndi şəhərindən Xocalı şəhəri istiqamətində edilən hücum zamanı xilas olmaq üçün Əsgəran rayonuna tərəf qaçmaq istəyən, əksəriyyəti qadın, uşaq və qocalar olmuş 150 nəfərdən çox əliyalın şəxsdən ibarət mülki əhalini həmin ərazidə pusquya salaraq avtomat silahlarından atəş açmaqla qətlə yetirmişlər.

Eyni zamanda Madat Babayan 26 fevral 1992-ci ildə azərbaycanlıların meyitlərini yığdıqları zaman Vamik Petrosyan, Şirin Şirinyan və digər dəstə üzvləri tərəfindən meyitlər üzərində təhqiredici hərəkətlərin törədilməsini, bundan başqa 100-dən çox mülki Xocalı sakininin əsir düşdüyünü müşahidə etmişdir.

Madat Babayan 1992-ci il fevralın 26-da Xocalıda olan erməni silahlıları ilə birlikdə şəhərdə azərbaycanlılara məxsus olan əmlakların talan edilməsi və törədilən kütləvi insan qırğını faktlarının gizlədilməsini təmin etmək üçün Xankəndi istiqamətində Xocalı-Ballıca-Xankəndi yolayrıcında silahlı post qurduqlarını, üç gün sonra isə bu postda xidmət apardığı vaxt Xocalıda qətlə yetirilən azərbaycanlıların meyitlərinin üç yük avtomobilində gətirildiyini, həmin postdan təxminən 400 metr məsafədə Qarqar çayının sol sahilində qazılan əraziyə tökülərək kütləvi basdırıldığını qeyd etmiş, eləcə də 1992-ci ilin fevral-mart aylarında Xocalıda törədilən talanlar barədə məlumat vermişdir.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti həyata keçirilərkən Madat Babayan mülki əhaliyə qarşı cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərərək bu barədə ətraflı məlumat təqdim etmişdir.

Bundan əlavə, Madat Babayan əsir götürülmüş və qanunsuz olaraq Qozlukörpü kənd məktəbində saxlanılmış, amansız rəftar və işgəncələr nəticəsində ölmüş azərbaycanlıların meyitlərini Qozlukörpü kəndində şəxsən dəfn etdiyi yerləri də göstərmişdir.

Hazırda qeyd olunan və digər əlaqəli cinayətlərlə bağlı kompleks araşdırmalar aparılır.

***"Azərbaycan"***

# Qərbin son çırpıntıları

## Heç bir qüvvə bölgədə yaranmış yeni reallığı dəyişə bilməz

*Azərbaycan Vətən müharibəsində zəfər qazandıqdan sonra Prezident İlham Əliyevin təşəbbüsləri ilə bölgədə dayanıqlı sülhə nail olunması istiqamətində mümkün addımlar atılmağa başlandı.*

Bu istiqamətdə formalaşdırılan platformalarda Ermənistanla danışıqlar prosesinə start verildi. Lakin danışıqların gedişatı göstərdi ki, əslində, müasir Qərb vasitəçilərinin postmüharibə dövründəki yanaşmaları mahiyyətcə 30 il ərzində davam etmiş və uğursuzluğa düçar olmuş vasitəçilik cəhdlərindən heç nə ilə fərqlənmir.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, vaxtilə ATƏT-in Minsk qrupu Azərbaycanı işğalla barışmağa, Ermənistanın torpaqlarımızı işğal etməsini leqallaşdırmağa çalışdıqları kimi, hazırkı vasitəçilər də mövcud status-kvonun davam etməsinə cəhd göstərirlər. Qərb Azərbaycan ərazisində separatçı qurumun mövcudluğunda, eyni zamanda Ermənistan silahlı qüvvələri birləşmələrinin qanunsuz şəkildə Qarabağ ərazisində qalmasında həmişə maraqlı olub.

Deputat qeyd edib ki, lakin Azərbaycan 30 il əvvəlki ölkə deyildi və Prezident İlham Əliyevin qətiyyətli gedişləri ilə Qərbin bu arzusu puç oldu. Azərbaycan özünün ərazi və sərhəd bütövlüyünü, bütün ərazilərində Konstitusiya quruluşunu tam bərpa etməklə, bölgədə separatizmin sonunu gətirdi, vasitəçilərinin arzu etmədiyi yeni reallıq formalaşdırdı. Sirr deyil ki, Qərb Cənubi Qafqazda özü-



nün neokolonalist, neoimperialist niyyətlərini həyata keçirmək üçün separatizm ocağına ehtiyac duyurdu və bu mənada Prezident İlham Əliyev bölgədə separatizmə son qoymaqla, əslində, Qərbin mənfur niyyətlərinin üzərindən xətt çəkdi. "Azərbaycanın hüququn aliliyini təmin etməsi və regionda işğal və təcavüz faktoruna son qoyması Qərb tərəfindən beynəlxalq hüququn prinsiplərinin aliliyinin təmin olunması kimi yox, özlərinin məqsədlərinin suya düşməsi kimi qiymətləndirilir və onlar prosesi davamlı isterikalarla müşayiət edirlər. Avropa İttifaqı missiyasının Ermənistandakı fəaliyyəti, Fransanın, Avropa İttifaqının davamlı olaraq Azərbaycana müxtəlif platformalarda siyasi hücumlar təşkil etməsi bütövlükdə bu prosesin tərkib hissəsidir", - deyə B.Məhərrəmov bildirib.

Bəhruz Məhərrəmov vurğulayıb ki, Avropanın ayrı-ayrı quruluşlarının, həmçinin Avropa Parlamentinin, eləcə də Avropa ölkələrinin ayrı-ayrı parlamentlərinin riyakar, korrupsioner nümayəndələrinin Ermənistana səfərlərinin intensivləşməsi, həmçinin "etnik təmizləmə"yə məruz qalmış Qarabağ erməniləri ilə görüşərək onların məzlum durumu barədə dünyaya çağırışlar etmələri, separatçıların tör-töküntüləri ilə Ermənistanda "siyasi səviyyədə" görüşlər keçirmələri bütövlükdə Qərbin son çırpıntılarıdır: "Bu gün cənab İlham Əliyev elə bir geosiyasi konfiqurasiya formalaşdırıb ki, nə Qərb, nə digərləri bölgədə yaranmış yeni reallığı dəyişə, ona təsir edə bilməzlər. Amma Ermənistan nəzərə almalıdır ki, bu tip yarımçıq və siyasi riyakarlıqlarla dolu addımlar bölgədə sülhə, sabitliyə təhdid törətməklə, əslində, elə Ermənistanın özünün dövlətçiliyini təhdid altına alır. Paşinyan iqtidarı ilk növbədə bu kimi təhrikedici görüşlərə və ritorikaya özünün hakimiyyəti və Ermənistanın dövlətçiliyi üçün təhdid kimi baxmalı və proseslərin bu məcrada inkişafına imkan verməməlidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Fransanı ifşa edir

## Bütün platformalarda, bütün cəbhələrdə...

**Prezident İlham Əliyevin oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb.**

Dövlətimizin başçısı müraciətində Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığını vurğulayıb, Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarca ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti onu da təəssüflə bildirib ki, Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam edir: "Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır".

### Dünya bu xalqların səsini eşitməlidir

Müstəmləkəçi Fransa illərboyu başqa xalqlara qarşı silsilə qətliamlar törədib, başda əlcəzairlilər olmaqla əlini milyonlarla insanın qanına batırıb. Fransanın Afrikada, Yaxın və Uzaq Şərqdə həyata keçirdiyi neokolonializm siyasəti milyonlarla günahsız insanın fundamental hüquqlarını kobud şəkildə pozub. Bu gün də Fransanın müstəmləkəsi, əsarəti altında olan xeyli sayda xalq var.

Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans zamanı səsləndirildiyi kimi, Qvadelupa əhalisi dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır.

Martinikanın təbii sərvətləri talan olunaraq 90 faizi Fransaya və digər ölkələrə aparılır, Fransız Qvianası Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxarılaraq Fransaya daşınır.

Beynəlxalq konfrans zamanı Korsika adasının Poggio-di-Venaco şəhərinin meri Jan-Mark Rodriguez Fransanın illərboyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törətdiyini, müstəqillik istəyənlərin həbs edildiyini, ya da öldürüldüyünü söyləyib: "Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illərboyu bizə yalan vədlər versə də, Korsikada hakimiyyətə, sadəcə, Fransanın müəyyən etdiyi adamlar gəlir. Səsvermə və demokratiya Fransanın uzaq olduğu anlayışlardır. Bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirik".

BMT-nin sənədi kimi yayılan sözügedən müraciətində Prezident İlham Əliyev bildirib ki, Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır: "Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir".

Bütün bu faktlar göstərir ki, özünü dünyanın "demokratiya beşiyi" sayan Fransa müasir dövrümüzdə də neokolonialist siyasətindən əl götürməyib.

### Fransa törətdiyi vəhşiliklərə görə üzr istəməlidir

Prezident İlham Əliyevin BMT-nin sənədi kimi yayılan sözügedən müraciətində də vurğulanır ki, qanlı cinayətlərlə zəngin kolonializm tarixindən utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır: "Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur".

Cənubi Qafqazda sabitliyə, sülhə mane olaraq Ermənistanı silahlandırması, revanşa qızışdırması, vaxtaşırı Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməsi, bəyanatlar qəbul etməsi Fransanın geosiyasi intriqalarla məşğul olmasını açıq şəkildə nümayiş etdirir.

Bütün bu faktlar həm də onu göstərir ki, Fransa həm də islamofob, türkofob, irqçi siyasət yürüdür. Adıçəkilən müraciətində bu məsələyə də toxunan dövlətimizin başçısı vurğulayıb ki, Fransada neokolonializm meyilləri ilə paralel olaraq irqçilik və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik: "Bu gün burada təmsil olunan insanların bəziləri müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalır. Daxildə bu cür narahatedici və təhlükəli meyillərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti başqa dövlətlərə dərs keçməyə, digər ölkələrin daxili işlərinə qarışmağa cəhd edir".

### "Neokolonializmdən azad dünya"

Göründüyü kimi, Azərbaycan bütün beynəlxalq platformalarda kolonializmə qarşı aktiv mübarizə aparır. XXI əsrdə də müstəmləkəçi siyasət yürüdən Fransanı ifşa edir.

Dövlət başçısının sözügedən müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması da bütün bunlara bariz göstərici, Prezident İlham Əliyevin, o cümlədən Azərbaycanın qlobalmiqyaslı problemlərin həllində aparıcı rolunu, həmçinin dünyada neokolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər edilməsinə verdiyi mühüm töhfələri göstərir.

Oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev də inandığını vurğulayıb ki, konfrans çərçivəsində aparılacaq müzakirələr kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə "kolonializmdən azad dünya" miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Yerini bilməyən Kanada

## "ABŞ-nin ştatı" kimi ad çıxaran bu ölkə indi də Fransanın departamentinə çevrilib



"Son zamanlar Kanadanın ölkəmizə qarşı aqressiv mövqeyi açıq-aydın ortadadır. Xüsusilə də Frankofoniya təşkilatı çərçivəsində bu ölkənin Azərbaycan əleyhinə atdığı addımlar regionda vəziyyəti daha da gərginləşdirmək məqsədi daşıyır. Görünən odur ki, Kanada son zamanlar tamamilə Fransanın əlində oyuncağa çevrilib. Yoxsa necə olur ki, ümumiyyətlə Cənubi Qafqazla heç bir əlaqəsi olmayan, regionda baş verən hadisələrə heç vaxt reaksiya verməyən Kanada birdən-birə buradakı hadisələrə müdaxilə etmək niyyətinə düşüb?! Ermənistana dəstək verir, Azərbaycana qarşı isə kəskin mövqe nümayiş etdirir. Deməli, Kanada bilavasitə Fransanın maraqlarını həyata keçirməklə məşğuldur".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. Deputat qeyd edib ki, Kanada Frankofoniya təşkilatı çərçivəsində özünü Fransanın əyaləti kimi aparır, sanki Fransanın yeni bir departamenti rolunu oynayır.

Tural Gəncəliyev vurğulayıb ki, Kanada cəmiyyəti təkcə fransızlardan ibarət olmadığına görə, bu ölkənin Parisin maraqlarına xidmət edən davranışlar sərgiləməsi öz cəmiyyətləri üçün də ədalətli deyil. Kanadada məskunlaşmış fransız sülalələrinin təmsilçilərinin Ermənistanın müdafiəçisi kimi çıxış etməsi ona dəlalət edir ki, onlar Kanadanın dövlət maraqlarına zidd mövqedən çıxış edirlər.

"Kanadanın xarici işlər nazirinin bir neçə gün əvvəl Azərbaycan əleyhinə əsassız fikirlər səsləndirməsini, bu ölkənin destruktiv fəaliyyətini Fransanın təsiri ilə əlaqələndirmək olar. Yoxsa regiona, ümumiyyətlə, dəxli olmayan, Cənubi Qafqazla heç bir coğrafi əlaqəsi olmayan bir ölkənin işğal siyasətinə qarşı çıxmaq əvəzinə ermənilərə dəstək verməsi anlaşılan deyil. Ona görə də Atlantik okeanının o biri tayından ölkəmizin daxili işlərinə müdaxilə etməyə cəhd göstərən Kanadanın bu kimi davranışları bütün platformalarda ifşa olunmalıdır", - deyə müsahibim söyləyib.

Deputatın sözlərinə görə, əvvəllər "ABŞ-nin ştatı" kimi ad çıxaran, yəni heç bir xarici siyasət mövqeyi olmayan, passiv siyasət yürüdən Kanada Fransanın departamenti rolunda çıxış etməklə beynəlxalq hüququn norma və prinsiplərini pozan Ermənistana dəstək nümayiş etdirir. Lakin unudur ki, bu siyasəti Cənubi Qafqazda iflasa uğrayacaq. Çünki regionda söz sahibi Azərbaycandır və ölkəmizə qarşı haqsız mövqedən çıxış etmək, əsassız bəyanatlar vermək öz xeyirlərinə nəticə verə bilməz.

Tural Gəncəliyev, həmçinin onu da qeyd edib ki, Azərbaycan heç bir ölkənin, Cənubi Qafqaza aidiyyəti olmayan hər hansı dövlətin regionun daxili işlərinə müdaxilə etməsinə imkan verməyəcək. Fransa artıq bunu duyub, ona görə də hər vasitəyə əl atır. Cəhdləri alınmadığı üçün əlinin altında olan Kanada kimi "resurs"lardan faydalanmağa çalışır. Lakin unudur ki, regionda sülh və əmin-amanlığın bərpasına əngəl törətmək üçün atılan bütün addımlar nəticəsiz qalacaq.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***



# Milli prioritet

## Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda nümunəyə çevrilən quruculuq modeli yaradır

**Bir neçə gündən sonra Vətən müharibəsindəki qələbəmizin 3 ili tamam olacaq. 3 il böyük zaman kəsiyi deyil. Amma bu 3 ildə bütün azad olunmuş əraziləri əhatə edən bərpa və quruculuq işlərinin miqyası o qədər böyükdür ki, bu məsələdə Azərbaycana, sadəcə, həsəd aparmaq və ya ölkəmizdən nümunə götürmək olar.**

Çünki Qarabağ və Şərqi Zəngəzurun bərpası məhdud sferanı əhatə etməyərək, kompleks məzmun daşıyır. Həm infrastrukturlar yaradılır, həm kənd və şəhərlər yenidən qurulur, həm də azad edilmiş ərazilərin iqtisadi potensialı hərəkətə gətirilir.

### Sürətlə və keyfiyyətlə aparılan bərpa və quruculuq işləri

İşğaldan azad olunmuş şəhər və rayonlarımızın hər birinin vaxtilə özünəməxsus iqtisadi göstəriciləri və müvafiq infrastrukturu olub. İşğal dövründə Ermənistan həm bu şəhər və rayonlardakı nəqliyyat, kommunikasiya və sosial infrastrukturları, həm də vətəndaşlarımıza məxsus fərdi evləri, təsərrüfatları yerlə yeksan edib. Günlərin birində bu torpaqları tərk edəcəyini anlayan düşmən şəhər və kəndlərimizi, sərvətlərimizi talan edib Ermənistana daşıyıb. Apara bilmədiklərini isə dağıdıb. Vətən müharibəsindən sonra Ağdamda, Füzulidə, Cəbrayılda ortaya çıxan mənzərələr hər bir vətəndaşımızın qəlbini göynətdi. Bu gerçəkliklər həm də ermənilərin işğalçı və barbar mahiyyətini faktlarla dünyaya nümayiş etdirdi.

İndi bu ərazilər Prezident İlham Əliyevin quruculuq əzmi, dövlətimizin maliyyə imkanları hesabına yenidən bərpa edilir, bütün azad olunmuş torpaqlarımıza həyat gəlir. Prezident İlham Əliyevin həm də milli ideya olaraq qarşıya qoyduğu bu vəzifə hazırda sürətlə, yüksək dinamizmlə və keyfiyyətlə yerinə yetirilir. 3 ilə yaxın müddət ərzində azad edilmiş ərazilərdə xeyli müsbət dəyişikliklər baş verib. Qələbəmizin rəmzinə çevrilən Zəfər yolu, Füzuli və Zəngilan hava limanları kimi nəhəng layihələrin qısa müddətdə başa çatdırılması, o cümlədən yeni yarımstansiyaların, su-elekrik stansiyalarının qısa müddətdə inşa edilməsi quruculuq işlərinin sürətlə və keyfiyyətlə aparılmasından xəbər verir. Eyni zamanda regionun ermənilər tərəfindən vandallığa məruz qalmış flora və faunasının bərpası da diqqət mərkəzindədir. Bir sözlə, azad edilmiş ərazilərimizin bərpası kompleks şəkildə həyata keçirilir.

Xatırladaq ki, 2020-2022-ci illərin dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi məqsədilə təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılmışdır. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat nəzərdə tutulmuşdur.

### 3188 nəfər keçmiş məcburi köçkün doğma yurduna qayıdıb

Hazırda bütün azad edilmiş ərazilərdə istifadəyə verilmiş infrastrukturlarla yanaşı, nəhəng layihələrin icrası da davam edir. Qarşıdakı dövrdə daha tez-tez belə layihələrin başa çatdırılması barədə xoş xəbərlər eşidəcəyik.

Təbii ki, bütün bu görülən işlər keçmiş məcburi köçkünlərin geri dönüşünə, Böyük qayıdış proqramının sürətlə reallaşmasına xidmət edir. Doğma yurdlarına geri dönəcək vətəndaşlarımızın layiqli yaşayış səviyyəsinin təmin edilməsi üçün bütün azad edilmiş şəhərlərdəki nəhəng tikinti-quruculuq işlərinin bir istiqamətini də yeni yaşayış binalarının və evlərin inşası təşkil edir.





Artıq 3 kənddə və iki şəhərdə keçmiş məsbüri köçkünlərin məskunlaşması təmin edilib. Laçın və Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin olunub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 315 ailə (1205 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 3188 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub. Bu şəhər və kəndlərə qayıdış prosesi davam etməkdədir. "Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması. Əminəm ki, bu insanlar buna layiqdirlər. Onlar uzun illər boyu çətin şəraitdə yaşayıblar. Baxmayaraq ki, biz 300 mindən çox məcburi köçkünü yeni ev və mənzillərlə təmin etmişik, bu mənzillərin açılışı zamanı onlar bizə minnətdarlıqlarını bildirirdilər və hər dəfə qeyd edirdilər ki, bizi öz torpaqlarımıza qaytarın. Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük qayıdış proqramı başlayıb", - deyə Prezident İlham Əliyev bildirib.

Qeyd edək ki, bu ilin sonunadək geri dönən keçmiş köçkünlərin sayı 5500 nəfərə çatdırılacaq. 2026-cı ilin sonuna qədər 140 min nəfər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır.

### 10 min kvadratkilometr ərazidə yeni həyat qurulur

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycan dövlətinin qarşısındakı vəzifələrə yeni ştrixlər əlavə edib. Çünki bu gün Azərbaycan Livan boyda, dörd Lüksemburq boyda bir ərazidə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Prezident İlham Əliyevin iradəsi və qətiyyəti ilə tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qurulur. Minlərlə kilometr yolları, uca dağ başındakı kilometrlərlə tunelləri, "ağıllı şəhər"lər, "ağıllı kənd"lər, beynəlxalq hava limanlarının tikintisini dövlətimiz heç bir xarici maliyyə dəstəyi olmadan, yalnız və yalnız öz imkanları hesabına həyata keçirir.

Azərbaycan Vətən müharibəsində həyata keçirdiyi döyüş əməliyyatları ilə mövcud hərbi nəzəriyyələri yenilədiyi kimi, Qarabağ və Şərqi Zəngəzurda həm də modern quruculuq nümunələri yaradır. Elə bu quruculuğun fonunda bütün dünya Azərbaycanın Ermənistanın işğal siyasətinə son qoymasına şahidlik edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 392** **QƏRAR** **Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyul tarixli 2202 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 940; 2015, № 2, maddə 240; 2022, № 1, maddə 81) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.6-1, 1.9-1, 1.11-1, 1.17-1, 1.18-1, 1.18-2, 1.19-1, 2.5-1, 2.8-1, 2.10-1, 2.17-1, 2.18-1-2.18-3-cü bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1.6-1. | Tünd mavi rəngli yaz-payız, yay və qış beysbolkası | 1 ədəd (hər birindən) | 2 il |
| 1.9-1. | Tünd mavi rəngli kapüşonlu gödəkcə | 1 ədəd | 5 il |
| 1.11-1. | Tünd mavi rəngli yaz-payız gödəkcəsi | 1 ədəd | 2 il |
| 1.17-1. | Açıq mavi rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 1.18-1. | Açıq mavi rəngli üçdüymə köynək | 2 ədəd | 1 il |
| 1.18-2. | Kişi və qadınlar üçün kapüşonlu gödəkcə, yaz-payız gödəkcəsi və ya ətəyi düz uzunqol köynəklə geyinilən tünd mavi rəngli şalvar | 1 ədəd | 2 il |
| 1.19-1. | Kişi və qadınlar üçün üçdüymə köynəklə geyinilən tünd mavi rəngli yay şalvarı | 1 ədəd | 2 il |
| 2.5-1. | Tünd mavi rəngli yaz-payız, yay və qış beysbolkası | 1 ədəd (hər birindən) | 2 il |
| 2.8-1. | Tünd mavi rəngli kapüşonlu gödəkcə | 1 ədəd | 5 il |
| 2.10-1. | Tünd mavi rəngli yaz-payız gödəkcəsi | 1 ədəd | 2 il |
| 2.17-1. | Açıq mavi rəngli ətəyi qurşaqlı uzunqol köynək | 2 ədəd | 2 il |
| 2.18-1. | Açıq mavi rəngli üçdüymə köynək | 2 ədəd | 1 il |
| 2.18-2. | Kişi və qadınlar üçün kapüşonlu gödəkcə, yaz-payız gödəkcəsi və ya ətəyi düz uzunqol köynəklə geyinilən tünd mavi rəngli şalvar | 1 ədəd | 2 il |
| 2.18-3. | Kişi və qadınlar üçün üçdüymə köynəklə geyinilən tünd mavi rəngli yay şalvarı | 1 ədəd | 2 il |

2. 1.34, 2.17 və 2.31-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1.34. | Qara rəngli göndən xüsusi bel kəməri | 1 ədəd | 2 il |
| 2.17. | Açıq mavi rəngli ətəyi düz uzunqol köynək | 2 ədəd | 2 il |
| 2.31. | Qara rəngli göndən xüsusi bel kəməri | 1 ədəd | 2 il |

3. 3.10-cu bənd ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 393** **QƏRAR** **Bakı şəhəri, 1 noyabr 2023-cü il**

## "Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 iyun tarixli 139 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 iyun tarixli 139 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 591; 2014, № 2, maddə 201; 2015, № 2, maddə 227; 2016, № 5, maddə 955; 2019, № 12, maddələr 2077, 2098; 2020, № 12 (V kitab), maddə 1589; 2021, № 5, maddə 512) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "buğda" sözü "kənd təsərrüfatı bitkilərinin" sözləri ilə əvəz edilsin.

2. Preambula aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsalının dinamik inkişafına nail olmaq məqsədilə toxumçuluq sahəsinə dövlət dəstəyi daha da genişləndirilmiş və kənd təsərrüfatı bitkilərinin istehsalının artırılmasına əsaslı zəmin yaradılmışdır.

Respublikada toxumçuluqla məşğul olan elmi müəssisə və təşkilatların fəaliyyətlərini tənzimləmək, onların maddi-texniki bazalarını möhkəmləndirmək, istehsalçıların toxuma olan tələbatlarını ödəmək və ölkədə kənd təsərrüfatı bitkilərinin istehsalının inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:".**

3. 1.4-cü bənddə "buğda toxumunu istehsal edən Aqrar Elm Mərkəzinin təsərrüfatları və dövlət kənd təsərrüfatı istehsalı müəssisələri" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları" sözləri ilə əvəz edilsin.

4. 2-ci hissədə "Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatların, dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin və özəl buğda toxumçuluq təsərrüfatlarının" sözləri "toxum istehsal edən elmi müəssisə və təşkilatlarının, özəl toxumçuluq təsərrüfatlarının" sözləri ilə, "aqroservis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin.

5. 3-cü hissə üzrə:

5.1. 3.1-ci bənddə "servis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin;

5.2. 3.2-ci bənddə "Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatlar, dövlət kənd təsərrüfatı istehsalı müəssisələri və" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları," sözləri ilə, "servis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin;

5.3. 3.3-cü bənddə "Aqrar Elm Mərkəzinin təsərrüfatlarında" sözləri "toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında" sözləri ilə əvəz edilsin və həmin bəndə "başa çatdıqda" sözlərindən sonra "dövlət büdcəsinin vəsaiti hesabına" sözləri əlavə edilsin;

5.4. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında istehsal edilən elit toxumlar istehsal xərclərinin 70 faizindən yuxarı olmayan qiymətə toxumçuluq təsərrüfatlarına satılır və əldə edilən vəsait həmin elmi müəssisə və təşkilatların işçilərinin sosial müdafiəsinin və maddi-texniki bazasının gücləndirilməsinə yönəldilir.".

5.5. 3.5-ci bənddə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

6. 5-ci hissədə "Nazirliyin yanında olan" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında" sözləri ilə, ", tabeliyində olan Aqrar İnnovasiya Mərkəzində, habelə dövlət müəssisələrində" sözləri "və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatlarında" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Maliyyə Elm-Tədris Mərkəzinin təlimləri uğur vəd edir

## Bunu Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanın nəticələri də göstərir

**Azərbaycanda mühasibatlıq sahəsində mühüm yeniliklərdən biri müasir çağırışlardan irəli gələrək mühasiblərin peşəkarlıq sertifikasiyasının həyata keçirilməsidir. Mühasiblər çalışdıqları sahələrin məzmununa uyğun olaraq Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və İctimai Sektor (Büdcə Təşkilatları) üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə peşəkarlıq sertifikatlarına malik olmalıdırlar.**

Məsələ ilə bağlı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzindən (METM) aldığımız məlumata görə, bu sertifikatları əldə etmək üçün müəyyən edilmiş müddət gələn ilə qədər başa çatacaq. Belə ki, iri və orta sahibkarlıq subyektlərinin, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların baş mühasibləri 2023-cü il dekabrın 30-dək müvafiq peşəkar mühasib sertifikatına malik olmalıdırlar. İllik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin 2023-cü il yanvarın 1-dək işə qəbul edilən, habelə büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dək işə qəbul edilən baş mühasibləri 2024-cü il 30 dekabradək peşəkar mühasib sertifikatı almalıdırlar. Bununla yanaşı, bir vacib nüansı da vurğulamaq lazımdır ki, illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslər və büdcə təşkilatları 2023-cü il yanvarın 1-dən sonra müvafiq peşəkar mühasib sertifikatına malik olmayan baş mühasibləri işə qəbul edə bilməzlər.

Qeyd edək ki, Maliyyə Elm-Tədris Mərkəzi peşəkarlıq sertifikatı əldə etmək istəyənlər üçün təlimlər keçirən peşəkar qurumdur. Mərkəzdə təlimlər Dövlət İmtahan Mərkəzinin proqramı əsasında, beynəlxalq təcrübəyə, yeni və innovativ çağırışlara uyğun olaraq, peşəkar mütəxəssislər tərəfindən keçirilir. İştirakçılar təlim zamanı proqrama uyğun olaraq, kağız və elektron formada tədris vəsaitləri ilə təmin olunurlar. Mərkəzdə təlimlər əyani, intensiv, hibrid (əyani və onlayn) formatda təşkil olunur.

METM-nin mühasiblər üçün təlimlərinin ən yüksək səviyyədə və olduqca peşəkarcasına təşkil edildiyini Dövlət İmtahan Mərkəzinin bununla bağlı son imtahanının nəticələri də təsdiq edir. Belə ki, bu ilin sentyabr ayında peşəkar mühasib sertifikatını almaq üçün keçirilmiş imtahanın birinci mərhələsində Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkarlıq sertifikatı əldə etmiş 8 mühasib, İctimai Sektor (Büdcə Təşkilatları) üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə isə peşəkarlıq sertifikatı əldə etmiş 22 mühasib Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin təlimlərində iştirak etməklə imtahana hazırlaşıblar. Onlardan 5 nəfər imtahanda xüsusilə fərqlənərək, yüksək bal toplayıb.

Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin təlimləri davam edir. Məhz bu qurumun təlimləri hər bir mühasibə imtahanlardan müvəffəqiyyətlə keçmək üçün uğur vəd edir.

*R.CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Rumıniya qəzeti Azərbaycanın Zəfər Günü ilə əlaqədar məqalə yayıb

**Rumıniyanın nüfuzlu "Ultima Ora" internet qəzetində Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Nəcəfovun "Vətən müharibəsində Qələbənin üçüncü ildönümü" sərlövhəli geniş məqaləsi dərc edilib.**




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun şücaəti nəticəsində Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etməsi və Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdığı geniş təsvir olunub.

Münaqişənin tarixi aspektlərinə diqqət çəkən diplomat bunun Ermənistanın uzun illər Azərbaycana qarşı hərbi təcavüzü kontekstində nəzərdən keçirildiyini və bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, bir milyona yaxın azərbaycanlının etnik təmizləməyə məruz qaldığını, 30 il ərzində işğal etdiyi ərazilərdə xalqımızın mədəni irsinin dağıdılması və talan edilməsi kimi faktları vurğulayıb.

Diplomat bildirib ki, BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən dörd qətnamənin qəbuluna baxmayaraq, rəsmi İrəvan bu qətnamələri yerinə yetirməkdən boyun qaçırıb.

O qeyd edib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın əl atdığı yeni təcavüz aktına cavab olaraq Azərbaycanın başladığı əks-hücum əməliyyatı beynəlxalq humanitar hüquqa əməl edilməklə həyata keçirilib, müharibə dövründə Azərbaycan tərəfi Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün beynəlxalq humanitar hüququn normalarına tam şəkildə riayət edib. 44 günlük Vətən müharibəsində Azərbaycan böyük hərbi nailiyyətlər qazandı. İlk günlərdən Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratdı və onları təslim olmağa məcbur etdi.

Həmçinin vurğulanıb ki, döyüş meydanında çətin vəziyyətdə qalan Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı dəhşətli cinayətlər törədib, Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərlərinə və digər yaşayış məntəqələrinə kasetli bombalar atıb. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin qəsdən öldürülməsi ermənilərin xalqımıza qarşı növbəti hərbi cinayətidir. Ermənistandan fərqli olaraq, Azərbaycan ordusu münaqişə boyu heç vaxt dinc əhalini atəşə tutmayıb.

Diplomat yazısında Ermənistanın mina terroruna diqqət çəkib, nəticədə 300-dən çox azərbaycanlının mina qurbanı olduğunu diqqətə çatdırıb. Bildirilib ki, bu ilin sentyabrında Azərbaycanın keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə terrorçular cəzalandırılıb.

Eyni zamanda bu il oktyabrın 15-nin ədalətin təntənəsinin rəmzi kimi Azərbaycan xalqının yaddaşına əbədi həkk olunduğu bildirilib, Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda Dövlət bayrağı sancıldığı qeyd olunub. Azərbaycan bayrağının Xankəndidə dalğalanması "Heydər Əliyev İli"ndə xalqımıza verilən ən böyük töhfədir.

Sonda səfir qeyd edib ki, qazanılan Qələbə təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində aparılan ardıcıl və prinsipial siyasətin məntiqi nəticəsidir.

# "BÜTÖV - Qərbi Azərbaycana qayıdış prosesində gənclərin rolunun artırılması" proqramı çərçivəsində görüş

**Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "İrəli" İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı və Qərbi Azərbaycan İcmasının tərəfdaşlığı ilə reallaşdırılan "BÜTÖV - Qərbi Azərbaycana qayıdış prosesində gənclərin rolunun artırılması" proqramı çərçivəsində görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a universitetdən məlumat verilib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Pedaqoji Universitetin Heydər Əliyev Mərkəzinin müdiri Tahir Süleymanov gəncləri layihə müddətində baş tutacaq fəaliyyətlərdə aktiv olmağa çağırıb.

"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı, Qərbi Azərbaycan İcmasının koordinatoru Sənan Əhmədov və tarixçi, pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun dosenti Heydər Cəfərov çıxışları zamanı tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində min illər boyu yaşayan soydaşlarımızın etnik mövcudluğuna son qoyulmasından söhbət açıblar. Qeyd olunub ki, qərbi azərbaycanlıların mədəni irsinin məhv edilməsi ötən əsrdə Ermənistanda dövlət siyasəti səviyyəsində həyata keçirilib. Çıxış edənlər "Qərbi Azərbaycana qayıdış konsepsiyası"nın icrasında hər bir Azərbaycan gəncinin iştirakının vacibliyini vurğulayaraq, onları bu istiqamətdə səfərbər olmağa səsləyiblər.

Sonra "İrəli" İctimai Birliyinin baş katibi İlqar Axundov proqram çərçivəsində baş tutacaq fəaliyyətlərlə bağlı tələbələrə məlumat verib. Diqqətə çatdırılıb ki, layihənin növbəti mərhələlərində Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, coğrafiyasını gənclərə aşılamaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə düzgün və ətraflı şəkildə çatdırmaq məqsədilə təşəbbüs qruplarının yaradılması nəzərdə tutulur. Proqram çərçivəsində həmçinin təşəbbüs qrupları tərəfindən Qərbi Azərbaycanın tarixi həqiqətlərini özündə ehtiva edən videoçarxların hazırlanması planlaşdırılır.

Qeyd edək ki, "BÜTÖV - Qərbi Azərbaycana qayıdış prosesində gənclərin rolunun artırılması" proqramının icrasında əsas məqsəd Qərbi Azərbaycan tarixinin, həqiqətlərinin təbliği və bu prosesdə yerli və beynəlxalq səviyyədə gənclərin iştirakçılığının artırılması, Qərbi Azərbaycanla bağlı multimedia, elektron resurs zənginliyinə nail olunması, eləcə də gənclər arasında tarixi torpaqlarımız haqqında məlumatlılığın artırılmasıdır.

# Qarabağ Regional DOST Mərkəzində rekord göstərici qeydə alınıb

**Qarabağ Regional DOST Mərkəzində rekord sayda vətəndaş müraciəti qeydə alınıb. Belə ki, noyabrın 1-də mərkəzə gün ərzində 455 nəfər vətəndaş müraciət edib. Bu göstərici Qarabağ Regional DOST Mərkəzinin fəaliyyətə başladığı dövrdən bu günə qədər qeydə alınan ən yüksək nəticədir.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, müraciətlər məşğulluq (53,63 faiz), sosial müdafiə (27,91 faiz), funksional yardımçı xidmətlər (5,27 faiz), vahid əlaqələndirmə mərkəzləri (5,71 faiz), əlillik (2,64 faiz) və digər xidmətlərlə bağlı olub.

Cari ilin avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ Regional DOST Mərkəzinin açılışı olub. Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xankəndi və Xocavənd sakinlərinə xidmət edən mərkəzdə indiyədək 9 mindən çox vətəndaşa xidmət göstərilib. Xidmətlərdən yararlanan vətəndaşların məmnunluq səviyyəsi 98,9 faizdir.

Hazırda ölkə üzrə yeddi DOST Mərkəzi, həmçinin Zəngilan rayonunun Ağalı kəndində Smart DOST məntəqəsi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyədək 1,8 milyondan çox vətəndaşa xidmət göstərilib. Mərkəzlər üzrə orta gözləmə müddəti 7 dəqiqə 5 saniyə, xidmət müddəti isə 3 dəqiqə 10 saniyə olub. DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98,1 faiz təşkil edib.

# Ombudsman Aparatı ilə UNICEF arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Aleks Haykenslə görüşüb.**



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müvəkkil görüşdə uşaq hüquqlarının müdafiəsinin əhəmiyyətini qeyd edərək, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərlə ombudsmana "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətinin verildiyini bildirib.

S.Əliyeva uşaq hüquqlarının müdafiəsi sahəsində və hazırda "Uşaq Hüquqları Aylığı" çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Müvəkkil ombudsman təsisatı ilə UNICEF arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayaraq, Fəaliyyət Planına uyğun olaraq bu sahədə görülmüş işlərdən danışıb.

Görüşdə ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində uşaq hüquqlarının təmini vəziyyətinin monitorinqi, miqrant uşaqların hüquqlarının müdafiəsi, yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsi, bu sahədə maarifləndirmə tədbirlərinin keçirilməsi və digər istiqamətlərdə həyata keçirilən fəaliyyətlər haqqında müzakirələr aparılıb.

Müvəkkil İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edildiyini, bu ərazilərdə bərpa-quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesinin həyata keçirildiyini bildirib, bu prosesdə əhalinin həssas qruplarının, o cümlədən uşaqların hüquqlarının təmini məsələlərinin vacibliyini vurğulayıb.

Görüşdə uşaqların mina təhlükəsizliyi barədə məlumatlandırılması, iqlim dəyişikliklərinin uşaqlara təsiri ilə də bağlı müzakirələr aparılıb.

Aleks Haykens ölkədə fəaliyyət göstərdiyi dövrdə uşaqların hüquqlarının təmini istiqamətində mühüm işlər görüldüyünü və bu sahədə əməkdaşlığa görə ombudsmana təşəkkürünü bildirib.

Görüşdə qurumlar arasında əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Yekunda Səbinə Əliyeva ölkəmizdə fəaliyyətini başa vuran Aleks Haykensə təşəkkürünü bildirərək gələcək fəaliyyətində uğurlar arzulayıb və xatirə olaraq ombudsman təsisatının 20 illiyinə həsr olunmuş poçt markasını qonağa təqdim edib.

# "Azərbaycana qarşı qeyri-dost hərəkətlərə adekvat cavab veriləcək"

*Əvvəli 1-ci səh.*

"Əgər ABŞ Azərbaycana, habelə beynəlxalq sülh və təhlükəsizliyə qarşı təhdidlərə fərqli münasibət göstərsəydi, Azərbaycana qarşı təhdidlərin güc yolu ilə həllinə ehtiyac qalmazdı və məsələ sülh yolu ilə həll olunardı. Məhz ABŞ-nin də iştirak etdiyi vasitəçilik cəhdlərinin nəticə verməməsi və Ermənistanın işğalçı siyasətinin qarşısının alınmaması Azərbaycanı öz torpaqlarını hərbi yolla azad etməyə sövq edib. Buna görə də digər faktlarla yanaşı, ABŞ də keçmiş münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətsizliyinə görə məsuliyyət daşıyır", - deyən XİN rəsmisi vurğulayıb ki, sülhün və sabitliyin təmin edilməsi qarşısında əsas maneə olan təcavüzkar dövlət Ermənistanı regionumuzda cəsarətləndirmək siyasətinə son qoyulması vacibdir.

Qeyd edək ki, oktyabrın 31-də Senatın Təxsisatlar Komitəsində çıxışı zamanı ABŞ Dövlət katibi Entoni Blinken digər məsələlərlə yanaşı, münaqişə nəticəsində Ermənistanda yaranmış ağır humanitar ehtiyacların həlli üçün əlavə maliyyəyə ehtiyac olduğunu bildirib. Daha sonra isə noyabrın 2-də Dövlət Departamenti "Amerikanın Səsi" xəbər agentliyinin sualına cavab olaraq vurğulayıb ki, ABŞ Ermənistanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir, bu suverenliyin və ərazi bütövlüyünün istənilən şəkildə pozulması ciddi nəticələrə gətirib çıxaracaq.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Noyabrın 2-də Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron və Zəngilan rayonlarından olan vətəndaşlarla görüşüb.

Görüşdə iştirak edən 135 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

Həmçinin Baş prokuror Azərbaycan Prezidentinin 2021-ci il 7 may tarixli fərmanı əsasında yaradılan və prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

# Gürcüstan Müdafiə Nazirliyinin sistemində Azərbaycan modeli tətbiq ediləcək

**Gürcüstan parlamenti ölkənin yeni Müdafiə Məcəlləsinə dəyişikliyi üçüncü oxunuşda qəbul edib. AZƏRTAC xəbər verir ki, yeni qanun 79 səslə qəbul edilib. Qanun layihəsində Müdafiə Məcəlləsinin keçid normasının dəyişdirilməsi nəzərdə tutulur.**

Dəyişikliyə əsasən, 2024-cü il yanvarın 1-dən hərbi qeydiyyata alınma, çağırışçıların milli hərbi xidmətinin və səfərbərlik zamanı ehtiyatda olanların hərbi xidmətinin təşkili ilə bağlı məsələlər mərkəzləşdirilmiş qaydada, vahid sistemdə həyata keçiriləcək. Bunun üçün Gürcüstan Müdafiə Nazirliyi sistemində Azərbaycan Respublikasında yaradılmış publik hüquqi şəxs modelinin tətbiqi nəzərdə tutulur.

Qeyd edək ki, yeni qanun layihəsinin təşəbbüskarları parlament üzvləridir.

# Fransada qasırğa nəticəsində bir nəfər ölüb, 15 nəfər yaralanıb

**Fransanın şimal-qərb regionlarını cənginə alan "Kiaran" qasırğası bir nəfərin ölümünə və ən azı 15 nəfərin xəsarət almasına səbəb olub. Yaralılardan birinin vəziyyəti ağırdır.**



AZƏRTAC xəbər verir ki, Fransanın daxili işlər naziri Jerald Darmanen bu barədə BFMTV telekanalının efirində deyib. Nazirin sözlərinə görə, qasırğanın şiddətinə baxmayaraq, hakimiyyət orqanları xəsarət alanların sayını minimuma endirməyi bacarıb. Belə ki, təhlükəli ərazilərdə yerləşən vətəndaşların mobil telefonlarına xəbərdarlıq göndərilib.

Qeyd edək ki, noyabrın 1-də Fransanın qərb və şimal-qərbində yerləşən Finister, Kot-d-Armor və Manş departamentlərində fırtına ilə əlaqədar ən yüksək qırmızı, 30 departamentdə isə narıncı təhlükə xəbərdarlığı elan olunub.

Ölkənin qərbində yerləşən Bretan regionundakı Puent-dü-Ra burnunda küləyin sürəti saniyədə 57,5 metrə çatıb. Bundan başqa, Finister departamenti sahillərində hündürlüyü 21 metrə çatan dalğalar qeydə alınıb. Həmçinin regionda 1,2 milyona yaxın ev işıqsız qalıb.

# *Rusiya XİN:* "Ermənistan mediasında anti-Rusiya ritorikası açıq millətçilik həddinə çatıb"

**Rəsmi Moskva Ermənistanın Maltada keçirilən Ukraynaya dair konfransda iştirakını Rusiyaya qarşı yönəlmiş "nümayişkaranə jest" hesab edir.**



AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə jurnalistin sualına cavabında bildirib.

O xatırladıb ki, bundan əvvəl Ermənistan baş nazirinin arvadı Anna Akopyan və parlamentin spikeri Alen Simonyan Kiyevə səfər etmişdilər. Paşinyan isə Qrenadada Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşmüşdü.

"İrəvanda anlamalıdırlar ki, söhbət bizim ölkəmizə qarşı təcavüzkar mövqedə duranlarla nümayişkaranə ünsiyyətdən gedir. Bunu başqa cür adlandırmaq olmaz. Təəssüf edirik ki, respublikanın indiki rəhbərliyi hələ bir qədər əvvəl Ermənistanın rifah və sabitliyinin mühüm amili hesab etdiyi Rusiya ilə müttəfiqlik münasibətlərini məqsədyönlü şəkildə, inadla dağıdır", - deyə o bildirib.

Zaxarova qeyd edib ki, Ermənistan rəhbərliyində olan şəxslər vasitəsilə maliyyələşdirilən bir sıra mətbuat orqanlarında anti-Rusiya ritorikası artıq açıq millətçilik həddinə çatmış rusofobiya halı alır. "Bu, sadəcə, təhqir deyil, bu, əsl rusofobiyadır. Biz bu resursların arxasında kimlərin durduğunu anlayırıq", - deyə Rusiya XİN-in rəsmi nümayəndəsi qeyd edib.

Jurnalist araşdırması

# AYNA "parkinq"i göstərmir...

## Kiçik problemlər həll olunur, böyük çatışmazlıqlar isə hələ də qalır

**Uzun zamandır paytaxtın əsas problemlərindən olan, avtomobil sürücülərinin daimi şikayətlərindən birinə çevrilən parkinq məsələsi həllini tapmışdı demişdik ki...**

**Bu məsələ tıxacın qarşısını bir az da olsa alar düşünürdük ki...**

**Ümidimiz yenə də ümid olaraq qaldı...**



Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən paytaxtda parklanma məntəqələrinin yenidən qurularaq fəaliyyətə başlamasının bu sahədə illərdir mövcud olan problemlərin həllinə yardım edəcəyi də bildirilmişdi. Həqiqətən arzuolunmaz hal alan parklanma və dövlət büdcəsindən kütləvi yayınma halları, eləcə də digər nöqsanlar bu sahədə sistemli müdaxiləni və köklü dəyişikliklərin labüdlüyünü şərtləndirirdi. Bununla yanaşı, parklanma yerlərinin müəyyənləşməməsi avtomobillərin yolboyu qanunsuz və səliqəsiz şəkildə park edilməsinə gətirib çıxarırdı ki, bu da şəhərdə sıxlığın artmasına, nəticədə isə tıxaca səbəb olurdu.

İndi şəhərin mərkəzi küçələrində parklanma yerləri tapmaq mümkündür, həm də qiymətlər digər ölkələrlə müqayisədə əlçatandır. "Parkinq" sistemi 4 aydan çoxdur istifadəyə verilsə də, ilkin müşahidələr göstərir ki, yeni parklanma sistemində əsaslı irəliləyişlər olmasına baxmayaraq, köhnə çatışmazlıqlar qalmaqla bərabər, yeni problemlər də meydana gəlib…

Şəhərə avtomobili ilə çıxıb, korpeşman evə qayıdanlar az olmur, hələ də istirahət günləri dediyimiz həftəsonlarında bu kimi halları yaşayanlar çoxdur. Məsələ isə yalnız "parkinq" yerlərinin azlığı deyil. Sonuncu ölən ümidlərdir deyib, parklanma yerlərinin sayının artacağına sonadək ümid edə bilərik. Amma bəs vətəndaş evinə qayıdanda bu problemlə rastlaşırsa, onda nə etsin?

### "AYNA öz həyətindəki parklanma məntəqəsini fəaliyyətsiz sayırsa..."

"Yaşadığım mənzilin 100 metrlik əhatə dairəsində 10-a yaxın parklanma məntəqəsi var. Binamızın həyətində isə 20004 nömrəli məntəqə işlək vəziyyətdədir. Fərdi parklanma talonu almaq üçün mobil tətbiq vasitəsilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə müraciət etdim. Həmin ünvan qeydiyyatda olduğum məntəqədir. Lakin müraciətimə "yaşadığınız ərazidə parklanma məntəqəsi yoxdur" deyərək, mənfi cavab verildi. AYNA-nın 104 saylı çağrı mərkəzinə isə 3 günlük davamlı zənglərimdən sonra (hər zəngimdə növbədə ən yaxşı halda 15-ci olduğum deyilirdi) düşə bildim və müraciətimi araşdıracaqlarına söz verdilər. Növbəti müraciətlərimə də laqeyd yanaşdılar və hər dəfə AYNA-dan heç bir nümayəndə ilə danışa bilməyəcəyimi dedilər. Uzun israrlardan sonra, nəhayət ki, bir əməkdaşla məni calaşdırdılar. O da mənə sübut etməyə çalışdı ki, sizin həyətdə parklanma məntəqəsi yoxdur. Sonra məlum oldu ki, agentlik parklanma məntəqələrinin qeydiyyatını düzgün aparmayıb və sistemə səhv salıb. Yəni prosesi tam başa çatdırmadan pul yığımına başlayıb. Məni narahat edən odur ki, yaşadığım mənzil Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə eyni həyətdə, eyni küçədədir, bizim binalarımız arasında cəmi 10 metr məsafə var. Əgər AYNA öz həyətindəki hər gün onlarca avtomobildən ödəniş alan parklanma məntəqəsini fəaliyyətsiz sayırsa, paytaxtın ucsuz-bucaqsız ərazilərindəki "parkinq"lərə necə nəzarət edəcək?"

Əməkdaşımız İ.Hüseynlinin başına gələn bu əhvalat Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin yeni fəaliyyət sahəsi olan parklanma sistemi ilə bağlı çoxsaylı narazılıqlardan yalnız biridir.

İş olan yerdə problemlər olur deyirlər. Bəs problem işin başladığı ünvanda olarsa, onda necə?

Beləliklə, parklanma tariflərinin müəyyənləşməsi, yeni sistemin nə dərəcədə işlək olub-olması ilə bağlı suallarımızı ekspertə ünvanladıq.

### Parklanma yerindən didərgin düşənlərin yaratdığı problemlər

Nəqliyyat eksperti Elməddin Muradlı qəzetimizə açıqlamasında bildirdi ki, parkinqlərin tariflərinin müəyyən olunmasından keçən müddətdə yeni parkinqlər yaradılıb. Bəzilərində yenilərinin yaradılması ilə bağlı təhlillər aparılır: "Rəsmi olaraq ödənişli parkinq yerlərində əməkdaşlar xidmət aparır, avtomobilini park edən sürücülərə qaydalar, mobil tətbiq üzərindən ödənişlərin necə həyata keçiriləcəyi izah edilir. Düzdür, bəzi nöqsanlar mövcuddur. Bu baxımdan işlərin qısa müddətdə başa çatacağını demək düzgün olmaz, çünki bu sahədə problemlər var və görüləsi işlər çoxdur. Ən azından bu, bir yenilikdir və yeniliyin çətinlikləri və problemləri olur".

E.Muradlı vətəndaşların ən çox narazı olduğu məqamlara da toxundu: "Ərazidə yaşayanlara güzəşt tətbiq olunsa da, bu güzəşt həmin yerdə işləyən şəxslərə şamil olunmur. Onlar tariflərə uyğun ödəniş edirlər. Bunun başqa fəsadlarını da görürük. Parklanma yerlərindən didərgin düşən sürücülər maşınlarını binaların həyətlərində saxlayırlar. Bu da yaşayış binalarının həyətlərində ciddi problemlər yaradır. Sakinlər rahat hərəkət edə bilmir, hətta həmin binada yaşayanlar öz avtomobillərini saxlamağa yer tapmırlar".

Müsahibimiz vurğuladı ki, vətəndaşları narazı salan məqamlara diqqət etmək lazımdır: "Bu gün yeni sistemin yaxşı tərəfi odur ki, parkinqlərdə yer tapmaq mümkündür. Əvvəl kimsə maşını gətirib, axşama kimi yeri məşğul edirdi. Amma indi heç kim saatı 1 manata, 70 qəpiyə maşın saxlamaq istəmir".

Bəzi yerlərdə nağd ödənişlər tələb edən şəxslərin hələ də fəaliyyət göstərdiyini qeyd edən ekspert dedi ki, onları şəhərin mərkəzindən uzaqlaşdırdıqca, digər ərazilərə üz tuturlar. Əhalinin sıx yaşadığı məhəllələrdə, binaların həyətlərində belə peyda olmağa başlayıblar və vətəndaşlardan pul tələb edirlər.

Ekspert qeyd etdi ki, nağdsız ödənişlərə keçid dövlət siyasətidir və bunun həyata keçirilməsi üçün sistemli tədbirlər görülüb. Bu gün parklanma sistemindən istifadə kimlər üçünsə çətinlik yarada bilər, amma zamanla öyrəşəcəklər. Vaxtilə avtobuslarda kart sistemi tətbiq ediləndə də bəziləri bundan narahat idi, amma indi hamı kart sisteminə üstünlük verir.

### Ərazidə işləyənlərin günlük "parkinq" xərcləri etiraz doğurur

Mövzu ilə bağlı Milli Məclisin deputatı Naqif Həmzəyev qeyd etdi ki, "AzParking" tərəfindən parklanma xidmətinin təşkil edilməsi üçün mobil tətbiq hazırlanıb və onun vasitəsilə vətəndaşlar parklanma ilə əlaqədar bütün məsələləri asanlıqla həll edə bilirlər.

SMS vasitəsilə də ödəniş etmək mümkündür ki, bu da yaxşı haldır, çünki bəzi avtomobil sürücüləri smartfondan istifadə etmir və ya internetə çıxışları olmur: "Sürücüləri narahat edən əsas məsələ avtomobili uzunmüddətli park etdikləri halda qiymətlərin yuxarı olmasıdır. Çünki bir saat üçün 1 manat qəbulediləndirsə, 8 saatın ödənişi üçün belə deyil. Bu da sürücülərin haqlı etirazına səbəb olur".

N.Həmzəyevin problemin həlli ilə bağlı müəyyən təklifləri də var. Vətəndaş avtomobilini eyni yerdə saatlarla saxladığı halda müəyyən endirim və ya güzəştli qiymətlər tətbiq oluna bilər. Belə olduğu halda avtomobil istifadəçiləri daha rahat, az xərc ödəməklə parklanma ehtiyaclarını qarşılaya bilərlər. İnsanların iş yerləri şəhərin müxtəlif guşələrində yerləşir və onlar avtomobillərini 8-9 saat həmin ərazidə saxlamalı olurlar. Nəticə etibarilə yalnız bir günə bəzən 8-10 manat parklanma xərcləri çıxır. Bu problem həllini tapacağı təqdirdə yeni xidmət sürücülər tərəfindən daha çox dəstəklənəcək.

Deputat bildirdi ki, yaşayış binalarının, evlərin yanında olan parklanma yerlərinin axşam saat 22:00-dan sonra ödənişsiz olması da düzgün hal deyil. Onun sözlərinə görə, bu yerlərin daha erkən, təxminən saat 20:00-dan etibarən ödənişsiz olması daha məqsədəuyğundur: "Çünki işdən evinə qayıdıb avtomobilini park edən sakindən saat 20:00-22:00 arası yenə müəyyən məbləğ tutulur. Bu da eynilə haqlı narazılığa səbəb olur. Çünki vətəndaş öz evinin yaxınlığında parklanma üçün ödəniş edir".

### 30 qəpikdən 1 manatadək...

Xatırladaq ki, qaydalara əsasən, artıq "parkinq" məntəqəsi kimi müəyyən edilməyən yerlərdə maşın saxlamaq olmaz, əks təqdirdə cərimə tətbiq olunur. "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" də yalnız dövlətə məxsus "parkinqlər"də qüvvədədir.

Belə ki, ödəniş məbləği zonalara görə dəyişir. Bakı şəhərində 1 saat üçün ödənişin məbləği mərkəzdə 1 manat, I zonada 0,70 AZN, II zonada 0,40 AZN, III zonada 0,30 AZN müəyyən olunub. IV zonada maşın saxlamaq ödənişsizdir.

Sumqayıt və Gəncə şəhərlərində isə mərkəzdə 0,40 AZN, I zonada 0,20 AZN-dir, II zonada isə ödəniş tələb olunmur.

15 dəqiqəyədək parklanma üçün ödəniş tələb olunmasa da, avtomobil bu müddətdən artıq nə qədər qalmasından asılı olmayaraq tam ödəniş məbləği tətbiq olunur. Həmçinin qaydalara əsasən, nəqliyyat vasitələrinin parklanması üçün saat 22:00-dan 07:00-dək, eləcə də həftənin bazar günləri ödəniş tələb olunmur.

### AYNA nə deyir?

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən qəzetimizin sorğusuna cavab olaraq bildirilib ki, Nazirlər Kabineti tərəfindən parklanma yerinin idarə edilməsi ilə bağlı qəbul edilən yeni qaydalar həm tariflərin özünü, həm şəhərin tarif zonalarını, eyni zamanda yığılan vəsaitin xərclənmə istiqamətini müəyyən edir. Parklanma yerlərinin yeni qaydalar əsasında idarə edilməsi bu sahədə nizam-intizamın yaradılmasına, qanunsuz pul yığımının qarşısını almaqla maliyyə şəffaflığının təmin olunmasına xidmət edir.

Qeyd olunub ki, parklanma üçün qanunsuz pul yığımının qarşısının alınması məqsədilə ödənişlər 3 aydır mobil tətbiq və sms vasitəsilə, yalnız nağdsız qaydada həyata keçirilir. Küçə parklanma yerlərindən istifadəyə görə sürücülərdən nağd şəkildə hər hansı bir ödəniş tələb oluna bilməz.

Agentlik sürücülərə qanunsuz ödənişlər etməməyi tövsiyə edir: "Sürücülərdən parklanma adı ilə nağd pul tələb edilməsi tam qanunsuzdur. Bu günə olan statistikaya əsasən, 189 min 159 nəfər mobil tətbiqi yükləyərək qeydiyyatdan keçib. 24 mindən çox insan isə balansın artırılması əməliyyatını həyata keçirib".

Bildirilib ki, parklanmaya olan tələbatdan asılı olaraq Bakıda şəhərin müəyyən hissələri 4 ödənişli zonaya bölünüb. Bakı şəhərinin mərkəzində parklanmanın 1 saatı 1 manat, digər zonalarda müvafiq olaraq 1 saatı 70, 40, 30 qəpik məbləğində müəyyən edilib. "Yol hərəkəti haqqında" qanuna əsasən, ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmur. Saat 22:00-dan saat 07:00-dək və həftənin bazar günləri parklanma ödənişsizdir.

Şəhərin hansısa hissəsində "parkinq"ə olan tələbat azdırsa, bu ərazidə qiymət tənzimlənməsi tətbiq edilmir. Yaşayış yeri parklanma zonasına yaxın olan sakinlərdən ödəniş tələb olunmur. Bunun üçün xüsusi parklanma talonları mövcuddur. Qanunvericiliyə əsasən, ödənişli parklanma ilə bağlı digər hallarda isə imtiyazlar nəzərdə tutulmayıb.

Müşahidələr göstərir ki, parklanmanın idarə olunmasından sonra əvvəllər avtomobil saxlamaq üçün çətinliklə yer tapılan küçələrdə artıq xeyli sayda boş yer müşahidə edilir. Məlumatda qeyd olunub ki, parklanmanın düzgün idarəedilməsi yollarda xaosun qarşısını alır və küçələrin daha effektiv olmasına şərair yaradır. Eyni zamanda nəqliyyat axınının tənzimlənməsinə, şəhərin nəqliyyat infrastrukturuna, piyadaların və sürücülərin təhlükəsizliyinə imkan yaradır.

Təbii ki, paytaxtda şəxsi avtomobillərin sayının artdığını nəzərə alaraq parklanma ilə bağlı müəyyən problemlərin hələ uzun müddət davam edəcəyi ehtimal olunur. Yeni sistem ilkin mərhələdə müəyyən çətinliklər, problemlər yaratsa da, problemin kökünün müəyyənləşdirilməsi, operativ və ədalətli həlli əsas məsələdir. Yoxsa ünvanından başlayan problemlər böyüyür, şaxələnir və müşkülə çevrilir...

*Ümid edirik ki, qısa zamanda bütün yol iştirakçılarının gözü yoldan çəkilər...*

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

---

# ZƏFƏR gündəliyi

## 3 noyabr 2020-ci il



**Noyabrın 3-nə** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tuturlar.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilir və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenidən atəşə tuturlar.

Saat 00:25-dən 04:45-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalır.

❖ ❖ ❖

Saat 09:50-də cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilir.



❖ ❖ ❖

Noyabrın 2-də Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olur.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tuturlar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd göstərirlər.

Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınır və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilir.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.



❖ ❖ ❖

Bölmələrimizin gördüyü tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən daha iki sursat anbarı məhv edilir.



❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tuturlar.

❖ ❖ ❖

Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənin tank bölmələrini döyüş meydanından qaçmağa məcbur edirlər.

Bölmələrimizin dəqiq atəş zərbələri ilə düşmənin bir neçə tankı döyüş heyəti ilə birlikdə məhv edilir.

Müdafiə Nazirliyi düşmən tanklarının məhv edilməsi anlarını əks etdirən videosüjet yayır.

Günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin üç ədəd topu məhv edilir.

❖ ❖ ❖

Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyət məhv edilir.

Azərbaycan Ordusunun bu istiqamətdə həyata keçirdiyi tədbirlər nəticəsində motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan da məhv edilir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 21 yanvar (Çərşənbə axşamı günü) tarixli 93-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 18 rəbiülaxir sənə 1337.
21 kanuni-sani sənə 1919

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## HESAB GÜNÜ

**– Sülhi-Ümumi Konqresinin gözlən[il]məsi münasibətilə –**

Məzahib və ədyanın [məzhəblər və dinlərin] əksərində, insan dünyadakı işlərindən, savab gördüyü işlərlə irtikab eylədiyi [batdığı] günahlarından, bir gün gələcək də hesab verəcək. Qiyamət qopacaq, məhşər olacaq, hesab günü gələcəkdir.

Ehtimal ki, ayrı-ayrı fərdlərin Allaha nisbət irtikab eylədikləri qəbahətlərin mühakiməsi və icra etdikləri savabların mükafatını verəcək bir "yövmülhesab" [hesab günü] daha irəlidədir. Kim bilir, bəlkə yenə dəccallar, mehdilər, nəhayət, məhşər, sirat körpüsü, mizan [tərəzi] görəcək, "yövmülhesab"a çəkiləcəyiz.

Ehtimal ki, bu mərhələlərin həpsini keçmişiz və keçməkdəyiz də, fərdən [şəxsən, fərdi olaraq] mütənəbbeh olmur [oyanmır], hiss etmir, mətləbi duymuruz.

Fəqət insanlar fərd həyatından başqa, bir də cəmiyyət həyatı ilə yaşayırlar. Cəmiyyətləri biri-birindən ayıran və ona bir camieyi-şəxsiyyə verən [ona bir cəmiyyət kimi şəxsiyyət qazandıran] ən böyük amil, milliyyət amilidir. Millətlər birər fərddirlər.

İştə bu milliyyət etibarilə birər fərd təşkil edən bəşəriyyətin hesab günü (yövmülhesabı) gəlmişdir.

1914-üncü sənəsindən bəri dünyanı alt-üst edən, mövcud şəhərləri, məmurələri [abad yerləri], binaları xarab etdiyi kimi, maddiyyatımızda olduğu qədər mənəviyyatımızı dəxi rəxnədar edən [yaralayan] bu böyük qital (öldürüş) və bu üzdən hüsula [meydana] gələn aclıq, kəsad, qırğın əcəba qiyamət və məhşərdən başqa bir şeymidir?

Əvət, millətlərin qiyamətidir. Məhşəri-kübraya [böyük hesab gününə] yalnız həyati-siyasiyyələri [siyasi həyatları] ilə mövcud olan millətlər deyil, çoxdan bəri məzara gömülmüş olan millətlər də gəlirlər.

1914-üncü ildə patlayan top gülləsi, xərideccalın [dəccalın eşşəyinin] nə'rəsinə mümasil idi [oxşayırdı]. 1918 sənəsində böyük Amerika Cümhuriyyəti rəisinin cahana elan eylədiyi 14 maddəlik sülh əsasları isə İsrafil suruna bənzəyirdi. Bu sur: "Qalxınız, ey zavallı millətlər, yövmülqiyam [qiyamət günü], yövmülhesabdır!" deyirdi.

Millətlər qalxdılar, hesab ayağına qoşdular.

Bu hesab Parisdə vaqe olacaqdır. Parisdə qurulacaq olan Sülhi-Ümumi məclisi, qəzetələrin rəvayətinə görə, 1500 adamdan ibarət olacaq. Bu 1500 adam dünyadakı nə qədər millət varsa, hamısını təmsil edəcəkdir.

1500 müxtəlif millətlərə mənsub, müxtəlif dillərdə mütəkəllim [danışan] bir "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] məhşəri bir kərə təsəvvür olunsun. Babil qülləsi, oradakı təbəlbüli-əsvat [səslərin qarışıqlığı] həman xatirə gələr.

Fəqət şəklən Babildəki rənglərə malik olsa da, Paris Konqresi mə'nən o halda bulunmayacaqdır. Bir kərə, mə'nayi-zahir [zahiri məna] etibarilə də olsa, dünyanın (Şərq ədəbiyyatındakı məşhur təqsimatına [bölgüsünə] görə) 72 millətindən ötrü Fransa lisanı aşağı-yuxarı anlaşılar bir dildir. Digər tərəfdən də 1500-ün içində nüfuzi-kəlmə sahibi [sözü nüfuzlu] həqiqi hakimlər vardır. Bu ərbabi-nüfuz [nüfuz sahibləri] artıq "təbəlbülə" [qarışıqlığa] imkan verməzlər, zənn edəriz.

Dünyanın hesabını görəcək Paris Konqresi aləmi yeni başdan tikəcək, yeni bir həyatın əsaslarını vəz edəcək [qoyacaq]; cahan xəritəsini yeni rənglərə boyayacaq və böylə yapdıqdan sonra:

– Ey dünya, böylə yaşamalısan! – deyə əmr edəcəkdir.

Bu əmr, millətlərə səadət gətirə biləcəkmidir?

İştə sual!..

Xalqın müxəyyiləsində [təxəyyülündə] mücəssəm olan [konkretləşən] hesab gününün nəticəsində insanlardan bəzisi behiştə, bəzi cəhənnəmə, bəzi də bərzəxə məhkum olacaq deyə, bir təsəvvür vardır. Bu hesab gününün nəticəsində dəxi bütün dünya millətlərinin "behiştlik" olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır.

Doğrudur, hesab çəkənlərin ən qüvvətlisi olan Vilson həzrətləri: "Böyük millətlə kiçik millətdə fərq olmamalıdır" - demişdir. Doğrudur, gizli diplomatiyanın qaldırılması mətlub [lazım] görülmüşdür. Doğrudur, silahlanmanın bihudə olduğu etiraf edilmiş, təhdidi [məhdudlaşdırılması] faydalı olacaq denilmişdir.

Fəqət bunlar daha hesabı görülmüş, müvazinəsi təyin edilmiş birər həqiqətlər deyildir. Həqiqət olmaq arzusu ilə söylənilib duran birər böyük şüarlar, iztirablı qəlblərin döyüntüsünü rahat edən birər "valerian" damcısıdır. Bu damcılardan sonra bəşəriyyətin pozulmuş mədəsini, üzülmüş səhhətini təkrar iadə edəcək [bərpa edəcək] həqiqi əlaclar veriləcəkmidir? Hesabi-ümumi məhkə-meyi-kübrası [böyük məhkəməsi] hüzuruna gedən millətlər, düçarı olduqları əziyyətli azarlarının əlacı iləmi qayıdacaqlar, yoxsa əllərinə verilən namə, şəfa reçetəsi (nüsxəsi) deyil, edam cəzası olacaqdır?

Vilson, prinsiplərini izah edərkən söylədiyi nitqlərindən birində – yanılmayırsam – "Cəmiyyəti-Əqvam əsasının təmin eylədiyi feyzdən hər millət kəndi ləyaqəti və mədəniyyətinin dərəcəsi nisbətində istifadə edə biləcəkdir" – demişdir.

Kəndi ləyaqəti və mədəniyyəti nisbətində!..

Özü-özlüyündə irad götürməz bir düstur.

Fəqət eyni zamanda geniş təvillər [izahlar], uzun təfsirlərə mütəhəmmil [əlverişli] bir formul.

Millətlərdən, bilxassə bizim kimi "bə'sü-bədəlmövt" [ölümdən sonrakı diriliş] nəticəsində qiyam edən [dirilən, ayağa qalxan] millətlərdən ötrü bu düsturun şu və yaxud bu şəkillə təfsiri dürlü-dürlü nəticələr verə bilər. Olar ki, bu düstur bizi behiştlik, olar ki, bərzəxlik, olar ki, cəhənnəmlik etsin!

Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin, təbiri-digərlə [başqa sözlə], dava [məhkəmə] vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu, kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarəyə, behiştlik dərəcədə idarəyə istehqaq [haqq] qazanmış olduğumuzu isbat edək.

Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər haqqında tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının [xalqının] bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eyləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olarsa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər az-çox safiyyətini [saflığını] saxlar. Onların saflıqlarının məhfuz qalması [qorunub saxlanması] isə bizim kimi xırda millətləri qurtarar [xilas edər], dirilik yarlığını [fərmanını] əllərimizə tapşırar.

Hər halda bütün dünyanın nəzəri bu gün Parisə mütəvəccehdir [çevrilmişdir]. Paris dünya millətlərinə kəndilərinə müstövli olan [onları əhatə edən] istibdadı qurtarmaq dərsini vermiş böyük millətin mənəviyyatca qüvvətli böyük bir paytaxtıdır. Hüquqi-bəşər bəyannaməsini nəşr edib [yayıb], bu mənşuru [yaymağı] ilə bütün dünya hürriyyətpərvərlərinə bir növ "üsulidin" dəftəri bəxş etmiş olan bu böyük şəhər, bu dəfə bütün dünya millətlərinə "hüquqi-miləl" [millətlər hüququ] qanunnaməsi yazmaqla məşğuldur. "Hüquqi-miləl" bəyannaməsi, "hüqiqi-bəşər" bəyannaməsi qədər müqəddəs və hər kəscə qabili-tətbiq [hər kəsin tətbiq edə biləcəyi] böyük düsturlara malik olarsa, o zaman Fransa, Fransanın gözəl paytaxtı olan Paris, dünya millətlərinin mənəvi bir paytaxtını təşkil edəcək, hürr vətəndaş kəndi mərkəz vilayətindən sonra Parisi tanıyacaqdır.

Xoşbəxt şəhər! Bir il bundan müqəddəm [qabaq] əjdəhayi-hərbin [müharibə əjdahasının] zərbələri altında xarab olmaq təhdidində ikən, bu gün bütün dünyanı şənləndirmək, bütün millətləri sevindirmək işinə mərkəz olursan! Nə böyük səadət!

Fəqət saqın; möhtəşəm salonlarından birisində, ehtimal ki, Versalın tarixi binasında in'iqad edəcək [yığışacaq] bəşəriyyət qarşısındakı məsul ricallara [adamlara] təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını sui-istemal [sui-istifadə] etməsin; yalnız bəşəriyyəti və yalnız istiqbali-bəşəri [bəşərin gələcəyini] düşünsünlər. Hökmlərini verərkən bütün demokratiyanın tələbini nəzərə alsınlar, məzarlarından qalxmış və diriliyə təşnə olmuş [susamış] millətləri təkrar məzarına gömməsinlər!

Bilsinlər ki, o zaman vicdani-bəşər rahat edəmməz! Təkrar məzarlarına gömülmüş millətlər daima bir xortlaq kimi, rifahla yaşamaq istəyənlərin hüzur və rahatını pozarlar.

*M.Ə.Rəsulzadə*

## İRƏVAN ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

**- 3 -**

İrəvan quberniyasında, ermənilərin müsəlmanlar haqqında törətdikləri fəlakətlər, yolların bağlı olduğundan və qeyri maneələrdən dolayı ətraflarda bilinməyirdi. Binaənileyh [ona görə], ermənilərin xunxarlıq [qaniçənlik] halına düşüb öz müsəlmanlarının başlarına nə müsibətlər, nə fəlakətlər gətirdiklərindən az məlumatımız olurdu. Fəqət axır vaxtlar rəsmi və mövsuq [etibarlı] mənbələrdən bizə çatan xəbərlərdən anlaşıldı ki, İrəvan quberniyasında müsəlmanlarla yan-yana yaşayanlar insan deyil, bir sürü canavarlardan ibarət imişlər.

1919 sənəsi yanvarın 5-də Azərbaycan Parlamanı salonunda İrəvan quberniyası müsəlmanlarının ümumi bir yığıncağı oldu. Orada İrəvan quberniyası müsəlmanlarının başına gətirilən müsibətlər danışığa qoyuldu. İrəvan quberniyası müsəlmanları tərəfindən təşəkkül edən Araz Türk Hökuməti namından [adından] Bakıya Azərbaycan Cümhuriyyəti nəzdinə gəlmiş olan nümayəndə Paşa Bayramov cənabları o tərəf müsəlmanlarının ermənilər əlindən görmüş olduqları müsibətlər, fəlakətlər barəsində məclisə müfəssəl bəyanat verdi. Bəyanat o qədər suzişli [yanğılı] və qəməfza [qəmli] idi ki, hər cümlə başında camaat tərəfindən zülümkarlara qarşı nifrətlər izhar edilirdi.

Ədliyyə naziri müavini Teymur bəy Makinski cənablarının sədarəti [sədrliyi] ilə açılan məzkur [deyilən] məclisdə müşarünileyh [adı çəkilən] Paşa Bayramov cənablarının irad etdiyi [söylədiyi] bəyanat, ermənilər[in] vəhşiliyini o dərəcə hüznavər [hüzünlü] və nifrətəngiz [nifrət doğuran] bir surətdə təsvir edir ki, qəzetə oxuyanların ciyərlərini cərihədar etməyi [yaralamağı] bəhəqqən [həqiqətən] rəva görməyib, ancaq bəzi yerlərini müxtəsər yazdıq.

1917 sənəsi dekabr ayından başlayıb 1918 sənəsi iyun ayının axırına qədər (yəni türklər İrəvana gələnədək) ermənilər müsəlmanları qırmaqda davam edirdilər. Ermənilər bu əquranə [azğın, qudurmuşcasına] hücumları ilə İrəvan quberniyasında Sürməli, Eçmiyədzin, İrəvan, Novo-Bayəzid, Gümrü mahallarını tarmar etdilər. Şərur və Naxçıvan üstünə yürüş etdikləri əsnada türklər İrəvan quberniyası müsəlmanlarının imdadına çatdılar. Ermənilərin müsəlman kəndlərini, malqaralarını qarət etmələri vasitəsi ilə erməni quldur dəstə başçıları drolar bu gün milyonçu olublar.

Türklər gəldikdən sonra ermənilər bir çox yerlərdən qaçdılar və özlərinin "Ararat" adlandırdıqları cümhuriyyətləri daxilinə köçdülər. Müsəlman qaçqınları da öz yerlərinə qayıdıb gəldilər və bərbad olan evlərini, yurdlarını yenidən abadlandırmağa başladılar.

Biz müsəlmanlar öylə güman edirdik ki, bundan sonra zülümdən xilas olub rahat yaşayacağız. Fəqət zənnimiz yanlış çıxdı. İnsan qanından doymaq istəməyən və həyasız zülümkarlıqdan əl çəkməyən erməni quldurları yenidən zərbələr vurmağa başladılar. Ermənilərin bu dəfəki zülümkarlığı isə Ararat Cümhuriyyətini qurduqlarından sonra davam etməyə başladı. Belə ki, ermənilər cümhuriyyətləri daxilində yaşayan müsəlmanları top-tüfəng gücü ilə öz yerlərindən çıxarıb qovdular. Yerlərinə isə Türkiyədən gələn "qaxtaqan"ları (mühacir erməniləri) sakin etdilər [yerləşdirdilər].

Ermənilər bu səyaqla gələcəkdə və lazımi yerlərdə "Ermənistan" deyə bilmək üçün İrəvan quberniyasında müsəlman kəndlilərinin ata-baba yurdlarında "ermənzəmin" binasını möhkəmləndirmək istədilər. Milli, Çığın mahallarında və Dərəçiçək (Novo-Bayəzid) hissələrindəki müsəlmanları toplara tutdular. Bu mahallarda müsəlman kəndçi və əkinçilərinin yurdlarını xaraba halına saldılar.

Ermənilərin bu təcavüzlərinə qarşı o zaman türk komandanları – nə vasitəylə isə – kar və kor kimi qalıb sükut etdilər və bizi də qoymadılar ki, gedib qardaşlarımıza imdad edək.

Erməni Cümhuriyyətinin qərarına görə, o vaxt 80 paraya qədər müsəlman kəndləri müsəlmanlardan boşa[l]dıldı və camaatlarının malları əllərindən alındı. Kəndləri də ermənilər tərəfindən işğal olundular. Ermənilərə nə öz vicdanları və nə də digər bir tərəfdən deyən olmadı ki, günahsız və haqsız yerə yerlərindən, yurdlarından qovulmuş bu qədər müsəlman kəndlilərinin halı və gələcəyi bəs necə olsun?

Sonra siyasət başqa bir şəkil aldı. Türklər Qafqaziyanı tərk etməyə başladılar. İrəvan quberniyası müsəlmanları pozğun bir halda qaldılar. Binaənileyh [ona görə] quberniyanın cənubunu təşkil edən və 600 min nüfusluq [əhalisi olan] sırf kəndçi və əkinçilərdən ibarət müsəlman camaatı öz yerlərində öz işlərini dolandırmaq məsləhəti üçün Qəmərli qəsəbəsində 1917-ci sənə noyabrın 16-dan 19-nadək camaat tərəfindən seçilmiş vəkillər yığıncağı qurdular və həman Milli Şurada özlərinin siyasi, mədəni, ictimai işlərini idarə etmək üçün Araz Türk Cümhuriyyəti namı ilə bir hökumət təşkil etdilər.

İndi aldığım məlumata görə, Erməni Cümhuriyyəti həman Araz Türk Cümhuriyyətinin hüquq və hüduduna [təcavüzə] başlamış.

Cümhuriyyətin Sürməli, İrəvan, Eçmiyədzin mahallarındakı hissələrini işğal etmiş, keçən sənə kimi buradakı müsəlmanları qətlqarətə başlayıblar. Şərur və Naxçıvan üstünə dəxi qoşun göndərmişlər. Lakin burada yerli müsəlmanlar tərəfindən müqavimət olunub, mütəcavizlərin [təcavüzkarların] qabağı alınmışdır.

Fəqət ermənilər dalbadal təzə qoşunlar gətirməklə qüvvələrini artırmaqdadırlar. Genə burada erməni qoşunları tərəfindən bir çox müsəlman kəndləri dağıdılmışdır. Müsəlmanların isə qoşunları yox, topları yox, kənd camaatının da müntəzəm düşmən qabağında dayanmağa nə qədər qüvvəsi ola bilər? Hərgah tezliklə erməni hücumlarının qabağı alınmazsa, İrəvan quberniyası müsəlmanlarının imdadına çatılmazsa, ermənilər Şərur, Naxçıvan mahallarını da alacaqlardır. O halda bu mahallara pənah gətirən müsəlman qaçqınlarının halı nasıl olacağını bilmirəm.

Halbuki ermənilər bu hərəkətlərində büsbütün haqsızdırlar. Zira Ararat Cümhuriyyəti daxilindəki müsəlmanların qalanı da sonra köçüb Araz Türk Cümhuriyyətinin daxilinə gəldilər və burada olan ermənilər də bir o miqdarda bizim içimizdən köçüb öz cümhuriyyətləri daxilinə getdilər. Böyləliklə, aralığımızda bir əvəzbədəl müamiləsi [əməliyyatı] hasil oldu. Yalnız İrəvan şəhərindən 23 min miqdarında müsəlman əhalisi çıxarıldı. İştə, son dəfəki hücumlarla ermənilərin məqsədi bu yerləri tutmaqla İrəvan quberniyasında yaşayan 600 min müsəlmanları Azərbaycan Cümhuriyyətindən ayırmaqdır və buradakı müsəlmanların sayını da mümkün olduğu qədər azaldıb, yerlərinə öz "qaxtaqanlarını" doldurmaqdır. İrəvan quberniyasında erməni avantüristlərinin oynadığı rollar iştə bunlardan ibarətdir.

*M[ir] A[bbas] Mirbağırzadə*

## DİRİL!

Ey elimin düzgün dilli, şirin sözlü, dərin düşüncəli bülbülləri! Ey anamın sağlam, doğru və igid balaları! Dan atdı, günəş çıxdı, mavi göy yaldızlandı, sevgili yurd işıqlandı. Xoş nəğmələrdən oxumalısınız! Qarınca [qarışqa] kimi çalışmalısınız ki, ölkəmizin daima bahar və məmur [abad] olacağını öz işlərinizlə baxanlara, dinləyənlərə bildirəsiniz.

Ey türklərin rəhbərləri, yazıçıları! Ey Azərbaycanın gəmiçiləri, kapitanları, tayfaları [gəmi mürəttəbatı]! Ey istibdadın zəncirləri altında çürüyüb məhv olan insanlar, dirilin! Artıq qiyamətdir. Amma ümidli, işıqlı qiyamət. Ey Abdullalar, "Sur"unuzu çalın! Ey Tələtlər, həqiqət nuru ilə afaqı [üfüqləri] parıldadın! Ey Səhhətlər, bu türklərə sağlıq verin! Ey Sabirlər, gülün-güldürün! Artıq yetər! Şu zalım bəşərin mənəvi buxovlarından qurtulun! İmdadımıza çatın ki, həmişəlik əsarətin odlu kötəkləri altında cəhənnəmin zəqqumlarını dadmağa bizə razı olmayınız!

Bu gün gözünüzü dörd açmalısınız! Yanğın ətrafımızı çulğamışdır. Qarabağımızın hər dürlü məhsulat [məhsulları] və məmurələri; Lənkəranın damları, abadanlıqları; Borçalı və civarlarının tayaları və qoruqları; insanları, heyvanları od tutub yanır. Ordubad və Naxçıvanlardan qalxan tüstülər nəfəs yollarını boğur. Şimalın yalav qızartıları, ildırım çınqıları üzlərimizi qovurur. Qabqacaq tapın! Su gətirin! Bu yerlərə atın, səpin, söndürün! Ta ki, bu əziz bucaqlar məhv olub getməsin! Ta ki, onlarla bərabər şu möhtəşəm "saray"ımız külə dönməsin!

Rusiya, qolu çomaq zamanlarında çaldı, çapdı. Bütün xırda millətləri özünə məhkum etdi. Bu ölkələri öz donduraylarına qoşdu, istirahət etdi... Sözləşdi, vuruşdu, yoruldu, əzildi, döyüldü.

Zəncirlədiyi qollar açıldı, addımlar atıldı, qanlar hərəkətə gəldi. Hər kəs öz varlığını isbata çalışdı.

Qafqaziya ayrıldı, istiqlaliyyətlər elan edildi. Yoldaş şeytənəti [şeytanlığı] duyuldu, iplər çözüldü, hərə öz başına qaldı.

Azərbaycan dirildi, istiqlaliyyət elan etdi. Haqqı tanındı.

Özgə məmləkətlərin yemləri öz camaatından artmadı. Ədibanə [mədəni surətdə] üzrlər diləyərək əcnəbiləri içlərindən çıxardı. İdarələri, dəftərxanaları, zavodları, məktəbləri başsız və adamsız qalan Azərbaycanda əvvəlki "dostluq" xatirinə onlara ən ali məqamlar peşkəş edildi.

Rus Milli Komitəsi yeni-yeni mühacirlər dəvət edir, yeni-yeni müstəmləkələr yapır, yeni-yeni yerlər qapır, yeni-yeni mövqelər tutur.

Əlbəttə, həman rusların yerində mən də olsaydım, böylə yapardım.

*Dan Ulduzu*

## İRANLILARIN HALI

Neçə illərdən bəri İranın firavan məmləkətində qəhtü-qəla [qıtlıq və bahalıq] olmaq səbəbincə İranın füqəra sinfi "əl-qəriq yətəşəbbəsü bikülli həşiş" müfadınca [mənasına uyğun olaraq] labüd və laəlac [əlacsız qalaraq] öz əyal [ailə, arvad] və övladlarının əllərindən tutub hər kəs bir səmtə və bir tərəfə pənahəndə olub [pənah aparıb, sığınıb], milyonlarla xanimanları bisahib və xanəvadələr [nəsillər; yurdlar] viran və əhaliyi-islam ünasən və zükurən [qadınlı-kişili] xaki-xaricədə, küçələrdə, xarabalarda, tövlələrdə, dağlarda, cəngəllərdə baş xaki-məzəllətə qoyub [zəlillik torpağına baş qoyub], fövt [məhv, yox] olub getmələri məlumdur. Həmin keçən il İran məmləkətində məzrəat [əkinlərin] və məhsulatın ziyadə əzhəddü əndazə [həddən artıq] olmağına əmin olub, bəzi öz rizaları ilə bir paraları Rusiya və Qafqazda şölələnmiş anarxiya yalavının [alovunun] vahiməsindən və getməyə qüdrətləri olmayanlar Bakıda vaqe İran konsulu cənablarının bəzli-hümmətləri ilə Bakıda yaşayan İran tüccar və əsnaflarının topladıqları ianələrlə öz vətəni-müqəddəslərinə mütəvəcceh oldular [üz tutdular]. Mütəvəcceh oldularsa da, "yağışdan qurtarıb yağmura düşdük" qəbilindən biinsaf və Allahutəalanın qəzəb və qəhhariyyətindən qafil kənd və əmlak sahibləri olan bimürvət və bihəmiyyətlərin insaniyyətsiz təəddilərinə [zülümlərinə] davam gətirə bilməyib laəlac [əlacsız] mükərrər [yenə, təkrar] ixtiyari-qürbət etməyə məcbur oldular və halonki [bir halda ki], keçən il İranın hər bir nöqtəsində iki il qabaq əkilib yağmur olmamaq səbəbincə torpaqlar altında qalmış ziraətlər – ki əkinçilər onlara "xeyri" deyirlər – yaxşı məhsula gəlibmiş, aya [görəsən] bu mülkədar ağalar və ərzağı özlərindən ötrü smeta ticarəti mal edən milyonçulardan külfətlər hansı bir bəhanə ilə bu qədər biəndazə [bol] məhsulatı öz xaraba qalmış anbarlarında tövqif [həbs] edib, birə on qiymətlərə satmağa mükəlləf olub bu qədər nahaq qanlara bais olur və məmləkəti xarab və milləti-məzluməni məhv etməyə cürət edirlər? Məlum olan, bizim müqəddəs vətənimizdə hökumət yoxdur! Olmuş olsa, həman hökumətin zimami-ixtiyari [ixtiyarının cilovu] möhtəkirlərin yədi-qəddaranələrində [zalım əllərində] olub öz keyfəmayeşalarına [öz keflərinə, özbaşınalıqlarına] məşğul olmazlar!

Hərgah hökumət ədalət nöqteyi-nəzərincə bu qədər dadi-nabəca [yersiz fəryad] və insaniyyət qəbul etməyən zülüm və təəddilərin qabağına bir sədd çəkmiş olsa, nə məmləkət viran və nə də əhli-məmləkət bir qarın çörəkdən ötrü dilənçi olmazlar.

Hərgah İran məmləkətində dövləti-məşrutə [konstitusiyalı idarə] tərəfindən təyin olunmuş hakimlər rəfiqi-düzd [oğru dostu], rəisi-qafilə [dəstəbaşı] olmazlarsa və öz məmur olduqları hökumətin vəzifələrini layiqincə düşünərlərsə, bu qədər füqəra və züəfa [zəiflər, gücsüzlər] öz xanimanlarını qoyub bir qarın çörəkdən ötrü səhralara düşməzlər və düşərlərsə də bu qədər rəzalət və fəlakətlərə düçar olmazlar, zənnindəyəm.

On iki il bundan qabaq, ki milləti-qədimi-İran [qədim İran milləti] xanların, bəylərin, mülkədarların, vüsuqülüləmaların, seyfüddövlələrin, hüsamüssadatların və nələrin-nələrin zülüm və işgəncələrindən təngə gəlib on minlərlə vətən övladlarını qurban verəndən sonra behəsəbi-zahir [zahiri etibarla; görünüş etibarıyla] istibdadın rişeyi-xəbisələrinə [xəbis köklərinə] tişələr [külünglər] vurub hürr və azad millətlərin cərgələrinə daxil olub, dövlətimiz dövləti-məşrutə və milliyyətimiz milləti-məşrutə oldular. Hanı bəs indi o məşrutənin asarı [əlamətləri]? Bəs nə oldu həman hürriyyət?

Ey İranın qəyur [qeyrətli] övladları! Aya, bu iffət və ismətlər ilə pərvəriş tapıb [bəslənib], xariciyyə torpaqlarında bir parça çörəkdən ötrü ismətlərinə təcavüz olanlar sizin ana və bacılarınız deyilmi? Aya, bu səhra və biyabanlarda, meşələrdə, xarabalarda, küçələrdə məzlumanə acından ölənlər sizin ata və qardaşlarınız deyilmi? Kifayət etmədi bu iki il müddətində türkman çöllərində və Türküstan ölkələrində neçə yüz minlərlə qanları tökülüb, malları qarət olandan sonra, naz və nemətlərlə pərvəriş tapan əhlü əyalları əğyarların yədi-zalimanələrində əsir və dəstgir [naz-nemətlə bəslənən ailə və övladları düşmənlərin zalım əllərində əsir və əli-qolu bağlı] olub insaniyyətdən xaric işlərə düçar olmaları? Kifayət etmədimi genə qəm və ələm karvanı xaricə məmləkətinə təvəccöh edib [üz tutub] pənahəndə olurlar?

Vay, biz İraniyan.
Gər müsəlmani həmin-əst ki maha darim
Vay əgər əz peyəm ruz şüd fərdayi.
Ey əziz vətəndaşlar:
İn qədər piş tu göftəm qəmidil tərsidəm
Ki dil azadə şəvi vərnə bisyarəst!

*Xaki-payi-həmvətənan*
*[həmvətənlərinin ayağının torpağı olan]*
*Mirzə Möhsün Əlizadə*

## TƏƏSSÜRAT

Parlaman üzvü olan bir şəxs eyni zamanda da dövlət məmuru ola bilərmi?

Bu suala "Müsavat" fraksiyasının cavabı böylə olmuşdu:

- Xeyr, ola bilməz, vəzirlərdən səva [nazirlərdən başqa].

"Müsavat"ın bu nəzəri məbuslarımızdan bir paralarını təşvişə saldı. O idi ki, Parlaman əzasından Vansoviç cənabları kürsiyi-xitabətə çıxıb dava [məhkəmə] vəkillərinə məxsus olan bir əda ilə şirin bir nitq söylədi. Amerika, ingilis və Fransa "parlamentarizm"lərindən misallar gətirdi və axırda bunu dedi ki, hələ tərzi-idarəsi dürüst təyin edilməmiş olan Azərbaycanda bu növ məsələlərin həlli tezdir. Çünki bu halda Azərbaycan Parlamanı məbuslarına böylə bir təklif qoysan ki: ya məbusluq, ya məmurluq – nəticəsi yaxşı olmaz.

Vansoviçin bu şirin və ağlabatan nitqini digər məbuslarımızdan Vinoqradov və Abdulla bəy Əfəndiyev cənabları da təsdiq edib dedilər ki, hanı bizdə bir o qədər ziyalı və əhli-maarif ki, birisi məbus olarkən, biri də, məsələn, müəllim olsun; birisi məbus olarkən, biri də fərzən, bir idarə müdiri olsun.

Natiq əfəndilərin bu xüsusdakı nitqləri o qədər ağlabatan, o qədər qənaət-pəzir [qənaətbəxş] və o qədər inandırıcı idi ki, məbuslardan bir parası "O olmasın, bu olsun"da Həsənqulu bəy kimi: "Daha nitq demək lazım deyildir" deyib, məsələnin xüsusi bir komisyona verilməsini istəyirdilər. Bunlara müqabil, "Müsavat" fraksiyası sədri Məhəmməd Əmin Rəsulzadə cənabları söz deməyə məcbur idi.

Mən güman edirdim ki, Rəsulzadə cənabları bu qədər dəlil və bürhanlardan [sübutlardan] sonra "Müsavat" fraksiyası nəzəriyyəsinin bu xüsusda yanlış olduğunu özü də etiraf edib, Parlamandan üzr istəyəcək və deyəcəkdir ki, bağışlayın biz səhv eyləmişik.

Lakin Məhəmməd Əmin cənabları nəzəriyyələrini müdafiəyə başladı və qabaqkı natiq əfəndilərin dəlillərini nəqz və cərh etməyə [pozmağa və etibarsızlaşdırmağa] qalxışdı.

Nitqi dinlədikcə gördüm ki, qabaqkı natiqlərin dəlil və bürhanları, Məhəmməd Əmin cənablarının meydani-müsadiməyə [münaqişə meydanına] sövq etməkdə olduğu sübut və rəddiyələrinin [etirazların] qələbəsi [çoxluğu] qarşısında tabavər ola [dözə] bilməyib, başımda işğal etmiş olduqları yerləri bir-bir boşaltmağa məcbur olurlar.

Dava vəkili olan Vansoviçin pürməzmun [məzmunlu, mənalı] nitqinin, dava vəkili olmayan Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsaslı bir surətdə cərh edilməsinin özü başqa bir xoş keyfiyyətdir.

Məsələnin özünə gəldikdə, Məclisi-Məbusan, dövlətin qüvveyi-təşriiyyəsidir [qanunverici gücüdür]. Yəni dövlət üçün şər' [hüquq normaları] və qanunlar düzəldir. Heyəti-məmurin [məmurlar] isə qüvveyi-icraiyyədir, yəni həmin şər' və qanunları yürüdür, icra edir. Əlavə, qüvveyi-icraiyyə, qüvveyi-təşriiyyə qarşısında məsuldur. Böylə olan surətdə bunları qat-qatışığa salmağın nə mənası var!

Bu, əsas etibarı ilə.

İşə gəldikdə, aya [görəsən] Azərbaycan dövləti ürfanca yəni o qədər kasıb oldu ki, yuxarı başı bir iyirmi nəfər "savad əhli" tapa bilmədi ki, məmurluqlarını tərk edəcək məbusların yerinə qoysun?

Doğrudur, biz özgələrə nisbətən ürfanca bir az kasıbıq. Lakin kasıblığımızı mübaliğə yolu ilə bir qədər daha kasıblatmağa heç bir lüzum yoxdur. Çünki bu cürə söhbətlərin axırı böylə olur ki, Azərbaycan dövlətinin Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi], Azərbaycan dövlətinin milli Parlamanını bisavad hesab edib kağızlarını rusca yazır ki, Parlamanın rus məbusları oxuyub müsəlman məbuslarını başa salsınlar.

Amma bu da ola bilər ki, Ümuri-Xeyriyyə Nəzarətinin özündə savad əhli yoxmuş.

*Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Gürcü nümayəndəsinə və "Azərbaycan" qəzetəsinə)*

**Almanların çıxarılması**

Tiflisdən xəbər verirlər ki, alman mətbuatının verdiyi məlumata görə, Belçika hökuməti Belçikada olan almanların çıxarılması haqqında bir əmrnamə nəşr etmişdir. Bu hesabla 8 min alman çıxarılmalıdır.

**Cənubi Amerikada**

Buenos-Ayresdə neçə gündür ki, iğtişaş başlanıb, hərbi diktator hökmfərma imiş [hökm sürürmüş]. Saldatlar asayişi bərpa etmişlərdir. Uruqvay paytaxtından xəbər verirlər ki, orada da sui-niyyət [cinayət yaxud terror hazırlığı] kəşf edilmişdir. Bir çox adamlar həbs edilmişdir. Bunların arasında çoxlu rus var. Bu iğtişaşlarda ruslar da iştirak etmişlərdir. Rus əsirləri etiraf etmişlərdir ki, hər iki məmləkətdə hökuməti düşürüb şura hökuməti təşkil edilməsi niyyətində imişlər.

**Hindenburqun namizədliyi**

Hindenburqun Almaniya Milli Şurasına namizədliyi şayiələrinə Hindenburq cavab vermişdir ki, hələlik namizədlik qəbul edilməsi onun üçün mümaniət [maneçilik] törədir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 21 yanvar (Çərşənbə axşamı günü) tarixli 93-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Bavariya çexlər əlində**

Çexlər Bavariya sərhədini işğal etmişlərdir.

**Lüksemburqda**

"Deba" qəzetəsi xəbər verir ki, Lüksemburq Cümhuriyyəti[ni] elan edən firqə, Lüksemburqun Fransaya mülhəq edilməsi [birləşdirilməsi] təklifi ilə Parisə rəsmi bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərməyi təhti-qərara almışdır.

**Batumda**

Xüsusi müxbirimiz xəbər verir ki, Sülh Konfransına gedən heyəti-mürəxxəsə [nümayəndə heyəti] Batumdan əzimət etmişdir [yola düşmüşdür].

* Müttəfiq qoşunları Batuma varid olmaqdadırlar [gəlməkdədirlər].

* "Lord Nelson" paroxodu Batuma gəlib əsgər və mühimmati-hərbiyyə [hərbi sursat] gətirmişdir.

* Batum oblastını idarə etmək məsələsi həll edilib qurtarmamışdır. Batum milissiyası başında İngiltərə məmuru durur. Milissiya böyükləri məhəlli [yerli] əhalidən təyin edilmişlərdir. İngiltərə erkani-hərbi [qərargahı] Batumdan Tiflisə nəql edilir.

* Potidən xəbər verirlər ki, Feodosiyadan alınan məlumata görə, hal-hazırda Ukraynada və Krımda frank kursu 1 manat 70 qəpiyə qalxmışdır.

**Almaniyada**

Alman bolşeviklərinin rəisi, Almaniya sosializminin böyük bir sütunu olan Libknext ilə xanım Roza Lüksemburq qətl edilmişlərdir. Müstəqil sosialistlər rəisi Şeydeman bu münasibətlə Kasseldə bir nitq irad edərək demişdir ki: "Mən çox təəssüf edirəm ki, bunların hər ikisi cinayət qurbanı oldular. Amma bunlar özləri hər gün camaatı silahlanmağa dəvət edirdilər. Ona görə də bunlar özlərinin qanlı təzi-hərəkətlərinin qurbanı olmuşdurlar."

* Yekşənbə [bazar] günü Milanda "Cəmiyyəti-Əqvam" nəfinə [xeyrinə] böyük bir nümayiş qurulmuşdur.

* Kurlanda [Kurlandiya; Latviya] bolşeviklər tərəfindən işğal edilmişdir. Almanlar külli top və ləvazimi-hərbiyyə buraxmalı imişlər. Almanlar getdikdən sonra başlanmış olan ataş, şəhərin mərkəzində 200 evi məhv eyləmişdir. Bolşeviklərin qabaq səfləri Myuravinə yaxınlaşmışlar.

* Berlin qəzetələrinin məlumatına görə, Estoniyanın bolşeviklərdən təmizlənməsi müvəffəqiyyətlə gedir. Bolşeviklərin qüvvəsi şiddətli müqabilədə bulunmayırlar.

* Petroqrad şəhərində də irtica baş qalxızır. Şəhərin hər yerində iğtişaş zühur eyləmişdir. Ac əmələlər [fəhlələr] küçələrdə gəzərək tələb edirlər ki, əmələlərə çörək tapmaq işi özlərinə mühəvvəl edilsin [tapşırılsın]. Axrıncı ərzaq ehtiyatının xətti-hərbə [müharibə xəttinə, cəbhəyə] aparılması bu iğtişaşa səbəb olmuşdur. Külli əmələ dəstələri şəhərdə gəzərək bolşevik hökumətinə lə'n [lənət] və nifrət edirlər. Həyəcan yeni təşkil edilmiş çinlilər və koreyalılar qütəsi [dəstələri] tərəfindən yatırılmışdır.

"İzvestiya" qəzetəsi bu qitəatı təbrik edərək bunu şərqi beynəlmiləliyyətə bir işarə hesab edir. Bu iğtişaş münasibəti ilə əmələlər arasında ümumi və böyük bir tətil daxi vaqe olmuşdur.

**Teymurxanşurada**

*(Xüsusi müxbirimizdən)*

Teymurxanşura - Yanvarın 20-sində Şimali Qafqaz İttifaqının Parlamanı açılır.

* Ağdaş - Ağır günlərdə böyük rollar oynamış olan Ərəş mahalı ilə Ağdaş şəhəri, Parlamanda nümayəndəlikdən məhrum edilmişlərdir. Buna də hökumətin bu barədə binagüzarlığı [sərəncam] verməməsi səbəbdir. Mahaldan və şəhərdən Parlamana vəkil seçmək üçün binagüzarlıq vermək zəruridir.

*Ağdaş şəhər qlavası: Əfəndiyev*

* Yanvarın 16-sında yığılmış Dağıstan Mahal Şurası böylə bir qərarnamə qəbul etmişdir: Dağıstan Mahal Şurası, Şimali Qafqaz Hökumətinin xarici siyasət barəsində olan bəyannaməsini istima edərək [dinləyərək] Rusiya inqilabı ilə əsaslanıb də Dağıstan camaatının arzusu üzərinə Dağıstan Cümhuriyyətinin təşkil edildiyini nəzərə alaraq və bu yolda çalışmaqda olan İttifaqı təbrik edərək, Şura bütün qüvvəsi ilə istiqlal yolunda fədakarlıqda bulunacağını bildirir.

*(Royter acentəliyindən)*

**Sülh Konfransında qəzetə mühərrirləri**

Sülh Konfransının ancaq rəsmi xəbərləri qəzetələrdə dərc ediləcəkdir. Sülh Konfransında min nəfər mühərrir [yazıçı, jurnalist] iştirak edir. Bunlardan beş yüzü Amerika mühərrirləridir. Bunlar özləri üçün bir Mühərrirlər İttifaqı təşkil etmişlərdir.

**Berlin iğtişaşı**

Berlin[də] bir çox Spartak tərəfdarları həbs edilib, artıq miqdarda silah tutulmuşdur. Spartaklar tərəfindən zəif bir müqavimət göstərilmişdir. Şəhərdə sakitlikdir. Fəqət başqa yerlərdən alınan xəbərlərdə deyilir ki, Berlində böyük iğtişaşlar davam edir.

**İtaliyada vüzəra [nazirlər] böhranı**

1916-ncı sənəsi müahidənaməsinə [sazişinə] müvafiq İtaliyanın Dalmaçiyaya və yunan cəzirələrinə [adalarına] olan haqqı-hakimiyyət [hakimiyyət hüququ] məsələsi haqqında ixtilafı-rəy [fikir ayrılığı] çıxdığından, İtaliya Kabinəsi istefa vermişdir. Sonnino həman müahidənamənin ifa edilməsini təkid etmişdir. Sosialistlər isə cənubi slavlarla sazişə girmək istəyirlər.

**Mütarikə müddətinin uzadılması**

Mütarikə [ataşkəs] müddətinin uzadılması şəraiti [şərtləri] imza edilmişdir.

**Cəmiyyəti-Əqvam**

London – Qrey, Askvit, Brays və Kenterberskdən ibarət olan Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfdarları Amerika səfarətində Vilsonu ziyarət etmişlərdir. Qrey Vilsona demiş ki, İngiltərə və Amerika Cəmiyyəti-Əqvama böyük əhəmiyyət verirlər. Cəmiyyəti-Əqvam əsaslarına əhəmiyyət vermədən sülh əqd edilərsə [bağlanarsa], böyük bədbəxtliyə səbəb olacaqdır. Cavabında Vilson demiş: *"Mənə ünvan [salamlama məktubu] təqdim etmək üçün bizzat [şəxsən] yanıma gəldiyinizdən son dərəcə məmnunam. Cəmiyyəti-Əqvam əsaslarının üstün olmasından çox məhzuz [məmnun, razı] oluram. Onsuz da Cəmiyyəti-Əqvamın məramnaməsi getdikcə vüsətlənir. Əhdnamə əsaslarına mənəvi [cəhətdən] müstənidən [əsaslanaraq] özlərinə vəzifə bilib də müharibəni başlayan hökumət üzvlərinin şimdi mənə təqdim edənlər arasında olmalarından çox şadam. Zira dənizin o biri tərəfindən İngiltərənin iqdamatı [təşəbbüsü] ilə qoyulmuş əsaslara biz təzim edirik. Siz təhrikati-mənəviyyə sövqü ilə [mənəvi qüvvələrin təhriki ilə] isbat etdiniz ki, biz öylə bir qüvvəni saxlamalıyıq ki, onsuz bizim vücuda gətirdiyimiz şeylər uçulacaqdır. Mənim buna ümidim bərkamaldır [tamdır]. Bu amalın nə dərəcədə kök atdığını bilmək mənim üçün bəxtiyarlıqdır."*

Askvit cavabında demiş: *"Vilson o mətləblərə tərəfdar olur ki, İngiltərənin bütün yaxşı adamları onu arzu edirdilər. Cəmiyyəti-Əqvam gələcək müharibələrin qarşısını almağa böyük vəsilə [səbəb, vasitə] olacaqdır."*

Sonra beş milyon ingilis əmələlərinin [fəhlələrinin] nümayəndələri Vilsona bir ünvan təqdim etmişlər. Bu ünvanda əmələlər həmişə Vilson siyasətini saxladıqlarını və bundan sonra da saxlayacaqlarını bildirmişlərdir.

Vilson cavabında demiş: *"Siz və mən bir-birimizi anlayırız."*

**Almaniya ordusunun halı**

Tiflis - İngilis mətbuatı yanvarın 16-dan xəbər verir.

Almaniya ordusunun halı qeyri-müəyyən bir surətdədir. Hərbi dairələrdə zənn edilir ki, 18-19-cu illərdə alınan alman əsakiri [əsgərləri] yenə silah altında saxlanacaqdırlar. Böyləliklə, yarım milyon nəfərdən ibarət bir ordu təşkil ediləcəkdir. O firqələr [diviziyalar] ki, şimdi silah altındadırlar, onların da yuxarıdakı tarixə aid olanları qoşun cərgəsində bulunmalıdırlar. Hal-hazırda bu qoşunların diqqəti Almaniyanın daxili işlərinə cəlb edilmişdir. Hərgah, indiki Ebert hökuməti faiq [üstün] gələrsə, bu qoşunlar müharibə istedadına dara [malik] olacaqlardır. Əks surətdə, yəni spartaklar faiq gəldikləri təqdirdə, bu qoşunların halı çox fəna olacaqdır.

Tiflis - (Almaniya mətbuatı) Fransa Xariciyyə Vəzarətinə yaxın olan "Exo de Pari" və "Tan" qəzetələri hər gün Fransa sərhədinə dair məqalələr yazırlar. Bu məqalələrin hamısı bir məzmunda olduğundan, bir mənbədən çıxdığı zənn olunur. Bu məqalələrdə deyilir ki, Fransa 1915-inci ildə Filipov ilə Marienburqu təxliyə etməyə məcbur olmuşdu. Halbuki, bunlar Avazı müdafiə edirlərdi. Bundan əlavə, Fransa Lüksemburqla Sen-Luidən çəkilmişdi. Paris sərhədə çox yaxındır. 1915-ci ildə sərhədimiz məğlub tərəfin sərhədi idi. Amma şimdi şübhəsiz sərhəd düzəlməlidir.

## PROTESTO

**Gəncədən Məclisi-Məbusana gələn bir teleqrafın surəti**

Gəncədə Şah Abbas camesinin havlısında [həyətində] Müəllimlər İttifaqı sədri İdris əfəndi Axundzadənin sədarəti altında toplanan mitinqin qərarı:

Son qəzetələrin verdikləri məlumata görə, milli istiqlalımızın düşmənləri, bizim hökumətdə əhali nümayəndəliyi olmadığını iddia etməkdədirlər. Bundan başqa, kəndi mənfəətini bizi məhv etməkdə görən düşmənimiz, bizim torpağımıza tökülüb məsum qan axıtdığı kimi, içərisində bulunan əlsiz-ayaqsız müsəlman xalqını vəhşiyanə kəsməkdədir. Bunlarla iktifa [kifayət] etməyib sevgili Azərbaycanın bir parçası olan münbit Muğanı və Lənkəranı xəyali Rusiyanın ayrılmaz bir parçası hesab ilə yurdumuzdan ayırmaqdadırlar. Heysiyyəti-milliyyəmizi istehqar [milli heysiyyətimizi təhqir] edən alçaqlar bilmiş olmalıdırlar ki, Azərbaycan Hökuməti bizim Milli Şuramızın doğurduğu yeganə bir hökumətdir.

Vətənimizdən ayırmaq istədikləri torpaqları geri almaq üçün heç bir fədakarlıqdan çəkinməyəcəyiz. Qardaşlarımızın qanı ilə əllərini hənalayan andraniklər və daşnaklar bilməli olmalıdırlar ki, tökülən qanların hesabı onlardan sorulacaq. Bugünkü sülh və "müsalimət" [asayişi] pozmaq istəməyən türk milləti onların etdiyi kimi tökülən qanına "hər zaman" soyuqqanlılıqla baxmayacaqdır. Yuxarıda göstərdiyimiz yolsuz hərəkətlərin təsiri ilə toplanan bugünkü mitinq bu hərəkətlərin mürəvvicləri [təhrikçiləri] bulunan "Yedinaya Rossiya", "Znamya Truda" və "Vperyod" nam [adlı] soqaq [küçə] qəzetələrinin saxta yazılarına və milli hüququmuza toxunan qaragüruha etiraz etməklə, dost və düşmən millətlər qarşısında bu yolsuzlara bir daha şiddətlə protesto ediriz.

*Mitinq rəisi: İdris Axundzadə*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* 26 noyabr 1918-ci sənə Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri həzrətlərinin müvəqqəti heyəti-idarə və dəftərxana məmurini [məmurları] maaş təyin etmək haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

Bununla bərabər pişnihad [təqdim] edilən Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmurini və məmurin maaşını və dəftərxana məxaricatını qəbul və təsdiq etməli, 1918-ci sənənin 1 kanuni-əvvəlindən [dekabrından] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə layihədə göstərildiyi miqdarda istiqraz verməli.

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri həzrətlərinin Azərbaycan dəmiryolları xidmətçilərinin məvaciblərinin artırılması haqqında məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

a) Fəhlə və xidmətçiləri 14 dəstəyə bölmək haqqındakı Bakı məlumat dəftərini qəbul etməli. İşbu məlumat, fəhlələr tərəfindən tərtib edilib, dekabrın 24-ü, 1918 sənədə pişnihad edilmişdir. İşbu 1 yanvar 1919-uncu sənədən qəbul olunur.

b) Bakı dekreti (dəyişmiş Moskva dekreti) 1 yanvar 1919-uncu sənədən bütün Azərbaycan dəmiryolları xidmətçilərinə şamil olmalıdır.

c) Bütün fəhlə və sənətçilərə 1 yanvar 1919-uncu sənədən bahalıq maaşı surəti ilə ayda 360 rublə verilsin. Dəstələrdən qeyri fəhlələrə maaş haqqında Türüq və Məabir nazirinə tapşırmalıdır ki, xüsusi məruzə pişnihad etsin.

ç) Dəmiryolları xidmətçilərinə girvənkəsi 2 rublədən ucuz çörək buraxılsın. Bundan varid olan [əmələ gələn] zərər, hökumətin 1918-inci sənədə qət etdiyi bir milyon rubləlik ərzaq fondundan örtülməlidir.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bütün teatro, sirk və sinema sahiblərini öz dəftərxanasında (Naberejni küçə, nömrə 33) təyin edilmiş müşavirəyə dəvət edir. Müşavirə yanvarın 24-ündə gündüz saat 11 radələrində iniqad edib [toplaşıb] xüsusi vergilər haqqında olacaqdır.

* Maarif Nəzarəti Azərbaycandakı bütün məkatib [məktəblər] müfəttişlərinə bir böylə teleqram göndərmişdir: *"Təhti-idarənizdə [idarəniz altında] olub fəaliyyətdə bulunmayan məkatib [məktəblər] haqqında və nədən naşi [nəyə görə] fəaliyyətdə bulunmadığı haqqında məlumat veriniz. Habelə, bundan sonra fəaliyyətdə bulunmayan məkatib müəlliminə [müəllimlərinə] maaş verməyi qət ediniz [kəsiniz]."*

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Kazyonnaya Palata [Xəzinə Palatası] markalardan gələn mədaxil barəsində Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə məlumat versin.

* Xariciyyə Nəzarəti İrəvana, Erməni Xariciyyə Nəzarəti naminə böylə bir teleqram göndərmişdir:

*"İrəvan, Ermənistan Cümhuriyyəti Xariciyyə nazirinə*

*Aldığımız məlumata məbni [əsasən], Ermənistan hökuməti məmurini [məmurları] Qazax qəzasının Azərbaycana məxsus hissəsiədd [hesab] edilən Uzuntala nam [adlı] mahalda gömrükxana təsis etmişlər. İşbu, Azərbaycanın qanuni hüququna təcavüz deməkdir. Mənim hökumətim işbu iqdamata [təşəbbüsə] etiraz etməklə təklif edir ki, həman gömrükxana oradan götürülsün.*

*Xariciyyə naziri əvəzində:*
*Ziyadxanov"*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsinin Təmirat şöbəsinin baş texniki Bələdiyyə İdarəsinə bir kağız göndərib xəbər vermişdir ki, yanvarın 16-sında məlum olmuşdur [ki], konka mövqifindəki [stansiyasındakı] arxivi, Biçeraxov qoşunlarının yüngül topçu zabitanı tutub orada oturmuşlar. Bütün taxta divarları dağıdıb yandırmışlar. Əlavə olaraq başqa bələdiyyəyə məxsus böyük taxtaları da yandırmışlardır. Böylə taxtalardan gələn zərərin miqdarı 350 rubləyədəkdir.

* Dövlət Müfəttişi Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, Bələdiyyə Məclisi intixabatına [seçkilərinə] dair övraqı [sənədləri] Nəzarətə pişnihad [təqdim] etsinlər.

* Ticarət və Sənaye Nəzarəti, Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, şəhərdəki tramvay xəttinə məxsus verilən layihələr Nəzarətə təqdim edilməlidirlər.

**Hərbi Məhkəməyə verilmiş qarətçilər**

Ayın 15-ində beş-altı nəfər müsəlləh [silahlı] qarətçilər Qubernski küçədə Mirmehdi Mirməhəmmədovun evinə hücum edib hədə ilə onun 10 min manat pulunu oğurladığını yazmışdıq. 3-üncü uçastok pristavı Mollazadə tərəfindən ittixaz edilmiş [görülmüş] tədbirlər nəticəsində qarətçilərdən bir neçəsi tutulub hərbi məhkəməyə verilmişlər. Tutulan qarətçilər bunlardır: Məşhur oğrular Faytonçu İbrahim, Ağamalı Məhəmmədqulu oğlu, Balahüseyn, Ağabala Almas oğlu, Mirələkbər Miribrahim oğlu və bir də həman evdə baqqal dükanı sahibi olan Muradəli olmuşdur. Tutulan adamları, qarət olmuş Mirmehdi Mirməhəmmədova nişan verəndə, oğruların hamısını tanıyıbdır.

**Müsri xəstəliklə mübarizə**

Müsri [yoluxucu] "tif" xəstəliyi ilə mübarizə etmək üçün Bələdiyyə İdarəsinin Hifzüssihhə [sanitariya-gigiyena] şöbəsi tərəfindən hələlik bu aşağıdakı həkimlər təyin olunmuşlar: 2-inci uçastok dairəsində Levin (Başennaya, 48 nömrə evdə) və buna feldşer Osipov (Bakı Realnı məktəbi), 6-ıncı uçastokda Zurban (Bolşoy Morskoy küçədə 21 nömrə), ona feldşer Frolov (Qoqolevski küçədə 37), 4üncü uçastokda Stepanov (Persidski küçədə 121 nömrədə).

Müsri xəstəliklər ittifaq düşdükdə [rast gəldikdə] əhali hər bir vaxtda bu yuxarıda yazılmış həkimlərə rücu [müraciət] edib tibbi köməklər istəyə bilərlər. Kömək pulsuzdur.

* 2-ci uçastok ev komitəsinin yanvarın 10-unda vaqe olan növbəti iclasında komitə üzvlərindən Babayev ilə Mustafayev səbəbsiz yerə 3 dəfə komitənin növbəti iclaslarına gəlmədiklərindən, üzvlükdən kənar edilmişlərdir. Onların yerinə isə Timinski ilə Markoviç intixab olunmuşlardır [seçilmişlər].

* Yanvarın 16-sında Birinci Realnı məktəbinin valideynlər şurası üzvlərinin birinci növbəti iclası vaqe olmuşdur. Bu iclasda qərara alınmışdır ki, hər həftə pəncşənbə [cümə axşamı] günü axşam saat 6-nın yarısında valideynlər şurasının iclası dəvət olunsun. Saat 6-ya kimi hər nə qədər üzv gəlmiş olsa da, iclas qanuni hesab edilsin.

**Dəmiryol nazirinin teleqrafı**

Azərbaycan Dəmiryol naziri Gürcüstan Dəmiryol nazirinə böylə bir teleqraf göndərmişdir:

*"Azərbaycan dəmiryollarında kifayət qədəri paravoz olmadığına və bizim paravozlarımızın Gürcüstan dəmiryollarında saxlanmasına görə, yük daşıması işləri təxirə uğrayır. Bizim paravozlarımızın Gürcüstan dəmiryollarından Gürcüstan paravozları ilə bərabər göndərilməsi üçün binagüzarlıqda bulunmanız [sərəncam verməyiniz] xahiş olunur. Paravozların yanacaqla təchiz edilməsi dəxi lazımdır. Məxariclərin hamısı Azərbaycan Dəmiryollar İdarəsi tərəfindən veriləcəkdir. Bu barədə sizin binagüzarlıqlarınızı ifa etməkdən ötrü mühəndis Bəylərbəyov ezam edilir."*

* Petropavlovkadan (Qalaqayından) xəbər verirlər ki, ərzaq şeyləri almaqdan ötrü göndərilmiş olan Sentrodom [Mərkəzi Ev Komitəsi] nümayəndəsi Liyabizunun meyiti tapılmışdır. Meyit paroxodla Bakıya göndəriləcəkdir.

**Fransa sərvətdarları nümayəndəsinin Bakıya vürudu**

Məlum olduğu üzrə, Fransa sərvətdarları "Şərq" adında bir cəmiyyət təşkil edib, məşriqzəmində [şərqdə] böyük işlər açıb, oradakı mədəniyyatı [mədənləri; faydalı qazıntıları] və məhsulatı istifadə etmək fikrinə düşmüşlər. Fransa dövlətliləri öz aralarında müsabiqət [rəqabət] olmamaq fikri ilə bir sendikat (Sərvətdarlar İttifaqı) təşkil edib Qafqaza, baxüsus [xüsusilə] Azərbaycan dairəsinə bir mükəmməl heyət göndərmək istəmişlər. Bu heyətin vəkili Manro bu günlərdə Bakıya varid olmuşdur [gəlmişdir]. Məzkur [deyilən] heyətin məhəlli-idarəsi [idarə mərkəzi] hələlik Odessa şəhəridir. Komitənin fikri Bakı neftini, Muğanda pambıq məhsulatını və sair çiyidləri sendikat üçün almaqdır.

**Hadisat**

Dünən Şamaxı əhlləri Mücü, Əşrəf Rəhimov, Zaxari Davidov, Natatel Marduxanov, İran əhli Mirzə Hüseyn İbrahim oğlu bəndər [liman] polisəsi idarəsinə gəlib məlum etmişlər ki, onlar Krasnavodskdan Bakıya gələn "Kaspi" paraxoduna minib gəldikdə, həman paraxodun matrosları Mixail Krivova və bir də David Suskova bir neçə bağlı manufaktur malı tapşırıblar ki, Bakıya gətirib burada onlara versinlər. Bakıya gələndən sonra onlar baxıb görüblər ki, malın üstündən 9360 manatlıq oğurlanıbdır.

Polis məmurları işi təhqiq edib, oğurlanan malların bir hissəsini paraxodda həman matrosların odalarında tapmışlardır. Matroslar həbsə alınmışlardır.

## GÜRCÜSTANDA

Tiflis, 14 yanvar Zaqafqaziyada olan yunan təbəələrinin [vətəndaşlarının] 3-üncü qurultayı quruldu və bu qurultayda yunanlıların Gürcüstanla olan əlaqələri bəlli olmuşdur. Qurultayda bir qaç natiqlərin nitqlərindən sonra zeyldəki [aşağıdakı] qərar qəbul edilmişdir:

"Ələddəvam [davamlı olaraq] millətlərin azad olmaları tərəfdarı olan yunan camaatı nümayəndələrinin 3-üncü iclası Böyük Rusiya inqilabının əhəmiyyətini, onun Zaqafqaziya millətlərinə muxtariyyət verdiyi əhəmiyyətini dərk edərək və bu gün azad Gürcüstan torpağında iclas qurarkən, Gürcüstan Demokratik Hökuməti şəxsində müstəqil Gürcüstan demokratiyasını təbrik edir. O demokratiyanı ki, müsavat [bərabərlik] və üxuvvət [qardaşlıq] əsaslarını qövldən feilə [sözdən işə] yetirir. Və bununla bərabər qurultay bəyan edir ki, var qüvvəsi ilə bu millətlə əlbir işləməyə və dostanə əlaqə saxlamağa hazırdır."

Tiflis - Yanvarın 17-də general Forester-Volker başda olmaq üzrə ingilis heyəti-fövqəladəsi [fövqəladə heyəti] Tiflisə varid olmuşdur [gəlmişdir]. Bunları istiqbal [qarşılamaq] üçün vağzala gəlmiş olan Gürcüstan nümayəndəsi generalı təbrik eyləmiş, general da əvəzində izhari-təşəkkür eyləmişdir.

## TEATRO VƏ MUSİQİ

Keçən şənbə gecəsi Dövlət Teatrosunda Hacıbəyli Qardaşlarının müdiriyyəti tərəfindən Ü. və C. Hacıbəyli cənablarının "Leyli və Məcnun" operası mövqeyi-tamaşaya qoyuldu. Havanın yağınlığına baxmayaraq, teatro tamaşaçılarla məmlu [dolu] idi. Bu isə müsəlmanların nə dərəcədə musiqi həvəskarı olduqlarına böyük bir dəlil olsa gərəkdir.

Həmişəki kimi Məcnun rolunu Sarabski cənabları ifa edirdi. Həmin rolu oynamaqla opera dəstgahında şöhrət qazanmış olan Sarabski həqiqətən də sevdiyi bu rolunu qüsursuz yola verə bildi. Artistin hər bir hərəkətinə tamaşaçılar diqqət verib, Leylisindən ayrılan Məcnunun divanəvarı halı tamaşaçıları riqqətə gətirirdi.

Məcnundan əskik olmayan Leyli rolunu Ağdamlı cənabları ifa edirdi. Biz hər nə qədər arvad rolunun artiskaya verilməsi tərəfdarıyıqsa da, fəqət Leyli kimi mühüm rolun şimdilik artiska tərəfindən oynanılmasını operaya böyük bir zərbə sanırız. İştə müdiriyyət işin bu cəhətini düşündüyündən, başqa operettalarda olduğu kimi bu mühüm rolu artiskaya deyil, bu rolu daima oynamış olan Ağdamlı cənablarına vermiş idi. Ağdamlı həzin səsi ilə, nazlı bir qıza yaraşar hərəkəti ilə tamaşaçıları son dərəcə kəndisindən məmnun buraxdı.

Əbülqeys [Qeysin atası] rolunu qoca aktyorlarımızdan Mirzə Muxtar Məhəmmədov cənabları ifa edərkən, doğurdan da öz rolunu yaratdı. Bir də layiqi-etina [diqqətəlayiq] Nofəl rolu idi ki, bunu da Qayıbov cənabları ifa etməkdə idi. Həmişə bu rolu oynayan Tanrıqulovdan Qayıbov əskik oynamadı. Artistdə bir pəhlivanlıq ruhu müşahidə edilirdi. Ümmi-Leyli [Leyinin anası] rolunu Kazımovski cənabları miyanə [babat] bir surətdə yola verə bildi. Qalan artistlər öhdələrinə aldıqları rolu layiqincə yola verə bildilər.

Böyük musiqi dəstəsi Müslüm bəy [Maqomayev] təhtiidarəsində [idarəsi altında] idi. Bu tamaşada təəsüf ediləcək bir şey varıydısa, o da bəzi tamaşaçıların özlərini məclisdə aparmaması idi. Təbii, bu da biz müsəlmanlarda öylə bir mərəzdir ki, sümüyümüzdən heç bir vaxt çıxmaz.

Vəlhasil, bu gecəki tamaşadan tamaşaçılar məmnun qaldılarsa da, fəqət teatrodan çıxdıqda əsgərlikdən fərar edənlərin axtarılması onların nəşəsini dağıtdırdı. Əlbəttə, camaat əsgərlikdən fərar etməsəydi, bu kimi iqdamata [tədbirə] məhəl [yer] qalmazdı.

*H.*

**- 2 -**

Bu axşam, seşənbə [çərşənbə axşamı] günü yanvar ayının 21-də Malakan bağının yanında mövcud "Mikado" teatrosunda bu mövsümdə ikinci dəfə olaraq şükuhlu [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur "O olmasın, bu olsun" operettası. Bu dəfə Məşədi İbadın rolunu ifa edəcəkdir məşhur komik Hacıağa Abbasov. Hammalın rolunu isə neçə sənələrdən bəri bu rolda məharət göstərən məşhur komik Ələkbər Hüseynzadə ifa edib, oyun təzə artistka və artistlərin iştirakı ilə başa gələcəkdir. Böyük musiqi dəstəsi Müslüm bəyin təhtiidarəsində, Məşədi İbadın toyunda qızlar və oğlanlar "baleti" oyunu olacaqdır. Biletlər teatronun kassasında satılmaqdadır. Tamaşa başlayacaq axşam saat 8-in yarısında.


**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крепостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Mahmud Salmanzadənin müəllimlik şəhadətnaməsi ilə metriki [yaş kağızı] qeyb olduğundan, hər kimdə isə zəhmət çəkib Tağıyevin fabrika kantorasında müəllim Mahmud Salmanzadəyə göndərəsiniz.

*2652*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hesab günü***

"bərzəx": dini təsəvvürə görə cənnət ilə cəhənnəm arasında, yaxud dünya ilə axirət arasında olan və ölənlərin ruhlarının gözlədiyi yer.

"üsulidin": dinin əsas prinsiplərini, bünövrəsini əhatə edən təlim; mətndə məcazi mənada işlədilmişdir.

***İrəvan***
***erməni-müsəlman məsələsi***

"qaxtaqan": ermənicə "qaçqın" deməkdir.

"…mütəcavizlərin qabağı alınmışdır.": Qəzetdə "mütəcavizlərinin qabağı alınmışdır" kimi getmişdir.

***Diril!***

"Ey Abdullalar, "Sur"unuzu çalın! Ey Tələtlər, həqiqət nuru ilə afaqı parıldadın! Ey Səhhətlər, bu türklərə sağlıq verin! Ey Sabirlər, gülün-güldürün!": müvafiq olaraq Abdulla Tofiq Sur (dini rəvayətlərə görə, sur həm də qiyamət günü ölüləri diriltmək üçün mələk İsrafilin çalacağı şeypurun adıdır), Abbas Səhhət, Mirzə Ələkbər Sabir yad edilmişdir. "Tələt" deyərkən kimin nəzərdə tutulduğunu qəti bir şəkildə söyləmək çətindir.

***İranlıların halı***

"əl-qəriq yətəşəbbəsü bikülli həşiş": suda boğulan hər quru otdan yapışar (ərəbcə).

"…vüsuqülüləmaların, seyfüd-dövlələrin, hüsamüssadatların...": vüsuqül-üləma (hərfən: alimlərin inamı), seyfüddövlə (hərfən: dövlətin qılıncı), hüsamüssadat (hərfən: seyidlərin qılıncı) İranda yüksək rütbəli dövlət məmurlarına verilən titullardır.

"Gər müsəlmani həmin-əst ki maha darim / Vay əgər əz peyəm ruz şüd fərdayi.": Farsca. Mənası: "Əgər müsəlmanlıq bizdəki kimidirsə, / Bu günün ardınca gələn sabaha yazıq!"

"İn qədər piş tu göftəm qəmidil tərsidəm / Ki dil azadə şəvi vərnə bisyar-əst!": Farsca. Mənası: "Sənin yanında ürək qəmini o qədər demişəm ki, qorxuram / Ürəyin azad olsun, əgər artıq olmasa."

***Təəssürat***

"Üzeyir": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Teleqraf xəbərləri***

"Deba": "Jurnal de Deba" nəzərdə tutulur.

"Brays": Millətlər Cəmiyyətinin yaradılmasının təşəbbüskarlarından, Britaniyanın dövlət xadimi Ceyms Brays nəzərdə tutulur; qəzetdə səhvən Vrays kimi getmişdir.

"Kenterberskdən": Kenterberi yeparxiyasının [Diocese of Canterbury] arxiyepiskopu nəzərdə tutulur. O dövrdə bu vəzifəni Rendall Devidson tuturdu.

"Tan": Parisdə nəşr edilən gündəlik qəzet "Le Temps" nəzərdə tutulur; tələffüzü əsas qəbul edən rusca yazılışı "Tan" olduğundan, "Azərbaycan" qəzetində də belə getmişdir.

***Protesto***

"Azərbaycan Hökuməti bizim Milli Şuramızın doğurduğu yeganə bir hökumətdir.": qəzetdə "Şuramızın" yerinə "Şüarımızın" getmişdir.

***Vükəla Şurasında***

"Türüq və Məabir naziri həzrətlərinin...": bu qərarın maddələri qəzetdə ərəb əlifbasının hərflərinə uyğun olaraq "əlif", "bə", "tə" kimi işarələnmişdir.

Uzuntala: Azərbaycanın Qazax qəzasının kəndi olmuşdur; hal-hazırda Ermənistanın İcəvan rayonunda Ayqeovit kəndi.

# REGİONLAR

## Qazaxda Vətən müharibəsi əlili üçün təzə ev tikilib



**44 günlük Vətən müharibəsində iştirak edən və qazanılan Qələbədə payı olan, döyüş meydanında göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuş oğullarımızdan biri də Qazax rayonunun Qazaxbəyli kənd sakini, 3-cü dərəcəli Vətən müharibəsi əlili Fəqan Rəhimovdur.**

Sağlamlığını Vətən uğrunda itirən Azərbaycanın mərd oğlu indi dövlətimiz tərəfindən hər cür qayğı ilə əhatə olunmuşdur. Rayon rəhbərliyi tez-tez qazinin ailəsinə baş çəkir, problemləri ilə maraqlanır. Belə görüşlərdən birində qazi Fəqan Rəhimov qəzalı vəziyyətdə olan evinin sökülərək yenidən tikilməsini xahiş etdi. Artıq qazinin arzusu gerçəkləşib. Onun evi sökülərək qısa müddətdə yerində gözəl və hər bir şəraiti olan ev tikilib. Bu günlərdə tikintisi başa çatan ev qaziyə təhvil verilib. Evin açılış mərasimində qazinin atası Fazil Rəhimov, anası Xəzangül Rəhimova, eləcə də Rəhimovlar ailəsinin xoş gününə gələnlər şəhid ailələrinə, qazilərimizə göstərilən qayğıya görə dövlət başçısına, Birinci vitse-prezidentə təşəkkür ediblər. Açılışı bildirən rəmzi qırmızı lent kəsildikdən sonra rayon ictimaiyyətinin nümayəndələri qazinin evində yaradılan şəraitlə tanış olublar.

## Goranboyda pambıq yığımı sürətlənir

**Ənənəvi kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın inkişafı Goranboy rayonunda da uğurla aparılır. İnsanlar bu gəlirli sahənin sürətli inkişafına nail olmaq üçün var qüvvələri ilə çalışır, strateji məhsul olan pambığın istehsalını artırmaq, qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmək üçün bütün imkanlardan istifadə edirlər.**

Bunun nəticəsidir ki, əvvəlki illərdə olduğu kimi, bu il də rayon sakinləri sahələrdə bol pambıq yetişdirmişlər. Artıq bir neçə gündür ki, rayonda pambıq yığımına başlanılmışdır. Rayon icra hakimiyyətindən verilən məlumata görə, becərməyə olduğu kimi, yığıma da icra hakimiyyəti ciddi nəzarət edir. Belə ki, yığımdan əvvəl rayon üzrə geniş müşavirə keçirilmiş, bu sahəyə cavabdeh olan təşkilatlar qarşısında vəzifələr qoyulmuşdur. Bundan başqa, rayon icra hakimiyyətində yığıma nəzarət edən qərargah yaradılmış, qaynar xətt fəaliyyətə başlamışdır. İndi yığım zamanı baş verə biləcək çətinliklərin vaxtında aradan qaldırılması üçün tədbirlər görülür. Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, indi tarlalar adamın üzünə gülür. Ağ örpəyə bürünmüş sahələrdə qızğın iş gedir. Kombaynların və pambıqdaşıyan nəqliyyat vasitələrinin səsi ətrafa yayılır.

Məlumat üçün bildirək ki, rayonda pambıqçılıqla əsasən "MKT İstehsal Kommersiya" MMC, "Azərpambıq" MMC və "Goran-Cotton" MMC məşğul olur. Ümumilikdə cari ilin məhsulu üçün 1539,8 hektar sahədə pambıq əkilmişdir. Oktyabrın 24-nə kimi rayon üzrə 2200 tona yaxın pambıq yığılaraq qəbul məntəqələrinə təhvil verilmişdir.



Rayonda pambıqçılığın inkişaf etdirildiyi əsas ərazilər Qızılhacılı qəsəbəsi, Səfikürd, Xan Qərvənd, Boluslu, Borsunlu, Hazırəhmədli, Quşçular və Fəxralı kəndləridir. Pambıq istehsalçıları sırasında Səfikürddən Fəxriyyə Qənbərova, Quşçulardan Rauf Əliyev, Fəxralıdan Sahir Qurbanov və Qızılhacılıdan Ehtiram Vəliyev fəallıqları ilə seçilirlər.

Qeyd edək ki, əsasən kiçikhəcmli sahələrin məhsulu əl ilə yığılır. Yığılmış pambığa görə əməkhaqqı günün axırında ödənilir ki, bu da yığımda iştirak edənləri razı salır. Elə insanlar var ki, gün ərzində 250-300 kiloqram pambıq yığır. Bununla da ailəsinin dolanışığını təmin edir.

Ümumiyyətlə, rayonda yetişdirilmiş pambığı havalar soyumamış yığıb təhvil vermək üçün bütün qüvvələr səfərbərliyə alınmışdır. İstər texnika, istərsə də canlı qüvvənin vaxtında tarlalara çıxması üçün bütün imkanlardan istifadə edilir.

## Yeni müəssisədə 150 nəfər işlə təmin ediləcək

**Goranboyun Qazanbulaq qəsəbəsində "Konstralab İndustries" QSC-yə məxsus astar və üzlük gips məmulatları istehsal edən zavodun tikintisinə başlanılmışdır.**



Müəssisənin tikintisinə 15 milyon manat vəsait ayrılmışdır. Layihənin əsas maliyyə investoru İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondudur.

Zavodun inşasında hazırda 100 nəfərdən çox işçi çalışır. Müəssisə fəaliyyətə başladıqdan sonra burada 150 nəfərin işlə təmin olunması nəzərdə tutulmuşdur. Zavodun məhsulları daxili bazarda satılmaqla yanaşı, xaricə də ixrac olunacaq.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Genişmiqyaslı quruculuq işləri Ağstafanın simasını dəyişir

**Son illər Ağstafada həyata keçirilən abadlıq və quruculuq işləri nəticəsində rayonun siması tamamilə dəyişmişdir. Bunu elə rayon mərkəzinə daxil olarkən hiss etmək mümkündür. Geniş asfalt yollar, hər tərəfdə gözoxşayan yaşıllıq insanda xoş əhvali-ruhiyyə yaradır.**



Dövlət başçısının imzaladığı müvafiq sərəncamlarla həyata keçirilən irimiqyaslı infrastruktur layihələri nəinki rayon mərkəzini, eləcə də kənd və qəsəbələri tanınmaz etmişdir. Əhalinin asudə vaxtının səmərəli təşkili üçün müasir tələblərə cavab verən yeni parklar salınmış, mövcud istirahət və mədəniyyət mərkəzləri əsaslı şəkildə yenidən qurulmuşdur.

Təkcə bu il Ağstafa şəhərinin 38 küçəsində işıqlandırma dayaqları quraşdırılmış, Heydər Əliyev prospekti boyu səki daşları yeniləri ilə əvəzlənmiş, istinad divarlarının üzlüyü yenilənmiş, Heydər Əliyev adına istirahət parkındakı fəvvarələrdə yenidənqurma işlərinin aparılmasına başlanmış, parkın ərazisindəki köhnə plitələr təzələnmiş, "Abad məhəllə" layihəsi çərçivəsində həyətlərdə ababdlıq işləri görülmüşdür. Bunlardan əlavə, şəhərin bir sıra küçələrinə asfalt salınması üçün ərazidə işlərə başlanılmış, bəzi binalarınsa dam örtüyünün yenidən qurulması planlaşdırılmışdır.

Rayonda təhsil müəssisələrinin əsaslı təmiri və tikintisində də işlər davam edir. Vurğun qəsəbəsində 420 şagirdlik məktəb binasının tikintisi başa çatdırıldıqdan sonra Zəlimxan kəndində yeni məktəb binası tikiləcək. Qeyd edək ki, hər iki məktəbin inşası Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılır.

Hazırda Köhnəqışlaq, Tatlı və Yaradullu kəndlərinin içməli su təchizatının və suvarma suyu ilə təminatının yaxşılaşdırılması, eləcə də suvarma kanallarında beton üzləmə işlərinin aparılması üçün tədbirlər həyata keçirilir. Eyni zamanda rayonun müxtəlif yaşayış məntəqələrinə sürətli internet xətti çəkilir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Lerikli fermerlər daha çox məhsul istehsal etmək üçün əzmlə çalışırlar

### Bir sıra problemlər aradan qaldırılsa, nəticələr daha uğurlu olar

**Müasir dövrdə bəşəriyyətin ən qlobal problemlərindən biri əhalinin ərzaq məhsulları ilə təminatını ödəməkdir. Hazırda dünya ölkələri, beynəlxalq qurumlar, xüsusən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), Beynəlxalq Valyuta Fondu və digər təşkilatlar tərəfindən ərzaq təhlükəsizliyini təmin etmək üçün geniş iş aparılır.**

Prezident İlham Əliyev tərəfindən ölkədə aqrar islahatların yeni mərhələsinin başlaması ilə bağlı qəbul edilən qərarlar da məhz kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən özəl təsərrüfat subyektlərinin stimullaşdırılmasının, onların məhsul bazarlarına çıxışının və istehsal vasitələri ilə təminatının bazar prinsipləri əsasında yaxşılaşdırılmasına, habelə bu sahənin açıq iqtisadi sistem şəraitində rəqabətqabiliyyətliliyinin yüksəldilməsi konsepsiyasına əsaslanır. Dövlət başçısı tərəfindən həyata keçirilən davamlı və sistemli islahatlar nəticəsində aqrar məhsulların daxili bazar təminatı və ixracı artmış, kənd yerlərində məşğulluq və gəlir əldə etmək imkanları xeyli genişlənmişdir. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. Aqrar sektordakı indiki uğurlar gərgin əmək və həyata keçirilən düzgün iqtisadi siyasət sayəsində əldə edilmişdir.

Dağlıq ərazidə yerləşən Lerik rayonunda əkinçilik və heyvandarlıq əhalinin əsas məşğuliyyət sahəsidir. Rayonun 162 yaşayış məntəqəsi var. Rayon üzrə kənd təsərrüfatına yararlı sahələr 13 min 645 hektar təşkil edir. Ondan 11 min 422 hektar əkin sahəsi, 602 hektar bələdiyyənin ehtiyat fondu, 1621 hektar meşə fondunda olan torpaqlardır. Bitkilər dəmyə şəraitində əkilib-becərilir. Əkinçilik rayonun iqtisadiyyatında əsas yer tutur. Son illər rayonda taxılçılığa maraq artmışdır. "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 19 iyul 2022-ci il tarixli fərmanı dağlar diyarında çox böyük razılıqla qarşılanmış, taxılçılığın inkişafına güclü stimul vermişdir. Rayonda taxıl istehsalı ilbəil artırılır. Cari ilin məhsulu üçün rayonda 3 min 691 hektar sahədə buğda və arpa, 160 hekar sahədə çovdar əkilmişdir. Taxıl biçini optimal müddətdə başa çatdırılmış, məhsul itkisiz yığılmışdır. Taxılçılar 8 min 872 ton buğda, 294,6 ton arpa, 304 ton çovdar istehsal etmişlər. Hər hektara orta məhsuldarlıq buğda üzrə 25, arpa üzrə 20,6, çovdar üzrə 19 sentner olmuşdur. Bəzi fermerlər hektardan 30 sentnerdən artıq məhsul əldə etmişlər. Taxıl biçininə 18 ədəd kombayn cəlb olunmuş, ondan 5 ədədi "Aqroservis" ASC tərəfindən dislokasiya edilmiş müasir "Nev Holland" dağ kombaynlarıdır. Qalan kombaynlar isə fiziki şəxslərə məxsus olmuşdur.

Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları taxıl biçinindən sonra sahələrdə yay şumunun aparılmasının məhsuldarlığın artırılmasına təsiri, torpaqda nəmliyin qorunması və digər aqrotexniki qulluq işlərinin həyata keçirilməsinin müsbət tərəfləri, habelə biçindən sonra sahələrin yandırılmasının mənfi nəticələri barədə fermerlərlə maarifləndirici söhbətlər aparmışlar. 2024-cü ilin məhsulu üçün 2 min 800 hektar sahədə payızlıq taxılın əkilməsi nəzərdə tutulmuşdur. Biçindən sonra sahələrdə 2 min 357 hektar sahədə yay şumu aparılmış, 1079 hektar sahədə payızlıq taxıl əkilmişdir.

Fermerlər və torpaq mülkiyyətçiləri taxıl əkini zamanı əsasən sertifikatlı toxumdan istifadə edirlər.



Payızlıq taxıl əkini üçün sum və əkin işləri "Aqroservis" ASC-nin Lənkəran-Astara-Lerik bölməsinin texnikaları və fiziki şəxslərə məxsus texnikalarla həyata keçirilir. Taxıl sahələrində xəstəlik və ziyanvericilərə, alaq otlarına qarşı kimyəvi, mexaniki və aqrotexniki tədbirlərin aparılması, bitkinin inkişaf fazasından asılı olaraq yemləmə gübrələrindən istifadə olunması barədə fermerlərə, məhsul istehsalçılarına məsləhətlər verilir.

Rayonun bütün kəndlərində tərəvəz bitkiləri və kartof əkilir. Builki təsərrüfat ilində 1538 hektar kartof sahəsindən 22 min 301 ton, 201 hektar soğan sahəsindən 2 min 579 ton, 45,5 hektar sarımsaq sahəsindən 590,5 ton, 28 hektar kələm sahəsindən 362,6 ton, 30,5 hektar xiyar sahəsindən 433,5 ton, 40 hektar pomidor sahəsindən 596,8 ton məhsul yığılmışdır. Fermerlər və torpaq mülkiyyətçiləri topladıqları məhsulların rayon daxilində və digər şəhərlərdə satışını həyata keçirirlər.

Son zamanlar qlobal istiləşmə ilə əlaqədar Lerik rayonunun da ərazisinə yağıntılar normadan az düşür. Bu isə dəmyə şəraitində əkilib becərilən bitkilərin məhsuldarlığına öz mənfi təsirini göstərir. Ona görə də suvarma ilə bağlı layihələrin həyata keçirilməsi kartofçuluğun, tərəvəzçiliyin, meyvəçiliyin və digər sahələrin inkişafına müsbət təsir göstərirdi.

Qeyd edək ki, Lerik rayonunda sovet hakimiyyəti dövründə 3 min 500 hekar üzüm, 470 hekardan çox meyvə bağı, 140 hektar çay plantasiyası, 220 hektardan artıq sahədə tütün və digər bitkilər əkilmiş, ətlik-südlük istiqamətli heyvandarlıq, ixtisaslaşmış qoyunçuluq təsərrüfatları mövcud olmuşdur. Sonradan bəzi səbəblərə görə, üzüm bağları, çay plantasiyaları sıradan çıxmış, mal-qara, heyvandarlıq kompleksləri sökülərək əmlak payı kimi vətəndaşlara verilmişdir. İndi həmin sahələrin dirçəldilməsinə ehtiyac var.

Rayonda əsas təsərrüfat sahələrindən biri də heyvandarlıqdır. Rayon üzrə 2023-cü ilin 9 ayının göstəricilərinə görə, ailə, kəndli-fermer və şəxsi təsərrüfatlarda 40 min 41 baş iribuynuzlu, o cümlədən 17 min 874 baş inək və camış, 97 min 783 baş xırdabuynuzlu mal-qara, 178 min 853 baş ev quşları, 20 mindən çox arı ailəsi mövcuddur. 2023-cü ilin 9 ayında diri çəkidə 3 min 109,1 ton ət, 23 min 211 ton süd, 217,3 ton yun (fiziki çəkidə) və 7 milyon 283 min ədəd yumurta istehsal edilmişdir. Bu göstəricilər də əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur. Heyvanların cins tərkibini yaxşılaşdırmaqdan ötrü ayrı-ayrı vətəndaşlar tərəfindən lizinq yolu ilə cins heyvanlar alınmışdır. Süni mayalanma üsulu ilə heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində də işlər həyata keçirilir. Rayon üzrə bu ilin 9 ayında 550 baş qaramalda süni mayalanma aparılmış, 368 baş buzov alınmışdır. Bu iş hazırda da davam etdirilir. Heyvanların cins tərkibini dəyişməklə stasionar bəsləmə şəraitinə keçmək, intensiv yolla heyvandarlığın inkişaf etdirilməsinin üstünlükləri barədə fermerlər arasında maarifləndirici tədbirlər həyata keçirilir.

İl ərzində rayonda mövcud olan qoyun və quzulardan orta hesabla 200 tondan çox yun istehsal olunur və xammal kimi satılır. Bəzən isə bu məhsulun satışında problemlər yaranır. Rayonda yun qəbulu məntəqəsi və yun emalı müəssisəsi tikilərsə, həm məhsuldarlıq artar, həm də yeni iş yerləri açılar. Eyni zamanda burada uzun müddət fəaliyyət göstərən, vaxtilə 600 nəfərdən çox qadının çalışdığı, hazırda isə fəaliyyəti dayanmış xalçaçılıq sexinin fəaliyyətinin bərpa edilməsi qadınların işlə təmini baxımından əhəmiyyətli olar.

20 mindən artıq arı ailəsi saxlanılan rayonda il ərzində 120-150 ton bal istehsal olunur. Təbii bal məhsulunun qəbulu, emalı və qablaşdırılması, arıçılıqda istifadə olunan avadanlıqların və dərman preparatlarının satış məntəqələrinin yaradılmasına da böyük ehtiyac var. Bu həll olunsa, sahənin daha da inkişafına kömək göstərər, əhalinin rifah halını xeyli yaxşılaşdırar.

Heyvanlarda "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirləri" planına uyğun olaraq, xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktiki peyvəndləmə, diaqnostik müayinə, dezinseksiya və müalicə tədbirləri icra edilir. Odur ki, rayonda mal-qara arasında yoluxucu xəstəliklərin yayılması halları müşahidə olunmur.

Lerik rayonu dağlıq ərazidə yerləşdiyindən qoyunçuluqla məşğul olan fermerlər heyvanları qışlama zamanı Biləsuvar və Neftçala rayonlarının ərazisindəki qışlaqlara aparırlar. Buna baxmayaraq, rayona əvvəllər təhkim olunmuş qış otlaq sahələri Nazirlər Kabinetinin qərarı ilə 2006-cı ildə alınaraq qonşu Biləsuvar, Neftçala və Cəlilabad rayonlarına verilmişdir. Lakin Biləsuvar və Neftçala rayon icra hakimiyyətləri tərəfindən qış otlaq sahələrindən istifadəyə görə fermerlərlə bağlanmış icarə müqavilələrinə birtərəfli qaydada xitam verilməyə başlanmışdır. Müqavilələrinə xitam verilmiş fermerlər qoyun-quzularını satmaq məcburiyyətdə qalmışlar. Buna görə də qoyunların baş sayında azalmalar baş vermişdir. Bu prosesin qarşısı alınmazsa, Lerik rayonunda tarixi ənənəsi olan qoyunçuluğun inkişafına mənfi təsir göstərəcək. Rayona yeni qış otlaq sahələri təhkim edilərsə, bu, qoyunçuluq təsərrüfatlarının inkişafına, əhalinin ət məhsulları ilə təminatının və maddi-rifah halının yaxşılaşmasına səbəb olar.

Dövlət xidmətlərinin fermerlər üçün əlçatanlığını asanlaşdırmaq, subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin etməkdən ötrü Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi yaradılmışdır. Bu sistemlə fermerlərə, torpaq mülkiyyətçilərinə vahid pəncərə prinsipinə uyğun olaraq xidmət göstərilir. Bunun üçün Lerik Dövlət Aqrar İnkişaf Mərkəzində xidməti otaq təşkil olunmuşdur. Subsidiyalar bu sistem vasitəsilə verilir. Sistem fermerlərə öz əkinlərini bazarın tələbinə uyğun planlaşdırmağa kömək edəcək, həmçinin bazarda məhsullar üzrə tələb-təklifin proqnozlaşdırılmasını asanlaşdıracaq. İndiyədək rayon üzrə 5 min 300-dən çox fermer sistemdə qeydiyyatdan keçirilmişdir. Hazırda payızlıq əkinlərə görə bəyanlar və süni mayalanma yolu ilə alınmış buzovlara görə subsidiya ödənişləri həyata keçirilir. Fermerlər subsidiyalarını fermer kartları vasitəsilə alırlar.

Deyə bilərik ki, Lerik rayonunun kənd əməkçiləri də dövlət dəstəyindən istifadə edərək əzmlə işləyir, bol və yüksək keyfiyyətli məhsul əldə etmək üçün var qüvvələrini əsirgəmir, ərzaq təhlükəsizliyinin təminatına öz töhfələrini verməyə çalışırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Energetika Nazirliyi "Elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması və təchizatı fəaliyyətlərinin hüquqi və idarəçilik baxımından ayrılması üzrə müvafiq sahədə təkliflər layihəsinin hazırlanması üçün məsləhətçi şirkətin cəlb edilməsi" üzrə

### *təkliflər sorğusu elan edir*

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi texniki, maliyyə imkanlarına və təcrübəyə malik olmalıdırlar.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədləri (təklif və bank təminatı da daxil olmaqla) **22 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 14:00-a qədər** (təklif zərflərinin açılmasına 1 (bir) bank günü qalmış) imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərflərdə satınalan təşkilata təqdim etməlidirlər.

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il tarixdə Bakı vaxtı ilə saat 14:00-da Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, mərtəbə 9, otaq 948 ünvanında açılacaqdır.**

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər:
Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova
Əlaqə nömrəsi: +(99412) 596 16 53/54 (daxili 1034).
Faks: +(99412) 598 16 78
Əlaqələndirici şəxsin e-maili: leyla.adigozelbeyova@minenergy.gov.az
Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi "Elektrik enerjisinin istehsalçıları, eləcə də təchizatçıları arasında rəqabət mühitinin formalaşdırılması üçün hədəf modelinə uyğun bazar qaydalarının hazırlanması üçün məsləhətçi şirkətin cəlb edilməsi" üzrə

### *təkliflər sorğusu elan edir*

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi texniki, maliyyə imkanlarına və təcrübəyə malik olmalıdırlar.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədləri (təklif və bank təminatı da daxil olmaqla) **22 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 12:00-a qədər** (təklif zərflərinin açılmasına 1 (bir) bank günü qalmış) imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərflərdə satınalan təşkilata təqdim etməlidirlər.

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il tarixdə Bakı vaxtı ilə saat 12:00-da Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, mərtəbə 9, otaq 948 ünvanında açılacaqdır.**

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər:
Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova
Əlaqə nömrəsi: +(99412) 596 16 53/54 (daxili 1034).
Faks: +(99412) 598 16 78
Əlaqələndirici şəxsin e-maili: leyla.adigozelbeyova@minenergy.gov.az
Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi "İstilik təchizatı sahəsində səmərəliliyin, dayanıqlığın və etibarlılığın artırılması üzrə təkliflərin hazırlanması üçün məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə xidmətlərin satın alınması" üzrə

### *təkliflər sorğusu elan edir*

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi texniki, maliyyə imkanlarına və təcrübəyə malik olmalıdırlar.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədləri (təklif və bank təminatı da daxil olmaqla) **22 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 16:00-a qədər** (təklif zərflərinin açılmasına 1 (bir) bank günü qalmış) imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərflərdə satınalan təşkilata təqdim etməlidirlər.

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il tarixdə Bakı vaxtı ilə saat 16:00-da Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, mərtəbə 9, otaq 948 ünvanında açılacaqdır.**

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər:
Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova
Əlaqə nömrəsi: +(99412) 596 16 53/54 (daxili 1034).
Faks: +(99412) 598 16 78
Əlaqələndirici şəxsin e-maili: leyla.adigozelbeyova@minenergy.gov.az
Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi "Elektrik enerjisinin istehsalçıları, eləcə də təchizatçıları arasında rəqabət mühitinin formalaşdırılması üçün hədəf modelinə uyğun bazar qaydalarının hazırlanması üçün məsləhətçi şirkətin cəlb edilməsi"nə dair keçirilən

### *təkliflər sorğusuna dəvət edir*

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi texniki, maliyyə imkanlarına və təcrübəyə malik olmalıdırlar.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədləri (təklif və bank təminatı da daxil olmaqla) **22 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 12:00-a qədər** (təklif zərflərinin açılmasına 1 (bir) bank günü qalmış) imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərflərdə satınalan təşkilata təqdim etməlidirlər.

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il tarixdə Bakı vaxtı ilə saat 12:00-da Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, mərtəbə 9, otaq 948 ünvanında açılacaqdır.**

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər:
Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova
Əlaqə nömrəsi: +(99412) 596 16 53/54 (daxili 1034)
Faks: +(99412) 598 16 78
Əlaqələndirici şəxsin e-maili: **leyla.adigozelbeyova@minenergy.gov.az**
Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi "İstilik təchizatı sahəsində səmərəliliyin, dayanıqlığın və etibarlılığın artırılması üzrə təkliflərin hazırlanması üçün məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə xidmətlərin satınalınması"na dair keçirilən

### *təkliflər sorğusuna dəvət edir*

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi texniki, maliyyə imkanlarına və təcrübəyə malik olmalıdırlar.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədləri (təklif və bank təminatı da daxil olmaqla) **22 noyabr 2023-cü il Bakı vaxtı ilə saat 16:00-a qədər** (təklif zərflərinin açılmasına 1 (bir) bank günü qalmış) imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərflərdə satınalan təşkilata təqdim etməlidirlər.

**İddiaçıların təklifləri 23 noyabr 2023-cü il tarixdə Bakı vaxtı ilə saat 16:00-da Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5, mərtəbə 9, otaq 948 ünvanında açılacaqdır.**

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər:
Əlaqələndirici şəxs: Leyla Adıgözəlbəyova
Əlaqə nömrəsi: +(99412) 596 16 53/54 (daxili 1034)
Faks: +(99412) 598 16 78
Əlaqələndirici şəxsin e-maili: **leyla.adigozelbeyova@minenergy.gov.az**
Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, qapı 5.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Yanğınsöndürmə xortumlarının satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 17-si saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç. 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Layaqətli müharibə, möhtəşəm zəfər
Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür
Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlıq genişlənir
Prezident İlham Əliyevin müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb
Bir inamın tarixi
Neokolonialist Fransa hansı haqla başqasını ittiham edir
Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Millimiz dünya çempionatının yarımfinalında

**Noyabrın 2-də minifutbol üzrə Azərbaycan milli komandası Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan Dünya Çempionatında 1/4 final oyununu keçirib.**




Yığma 1/4 finalda Bolqarıstan seçməsi ilə üz-üzə gəlib. Oyunun ilk hissəsi qolsuz heç-heçə ilə başa çatsa da, ikinci hissədə millimiz rəqibin qapısına 3 qol vurub. Bolqarıstan millisi buraxdığı qollardan yalnız birinin əvəzini çıxa bilib. Rəqibinə 3:1 hesabı ilə qalib gələn yığmamız adını yarımfinala yazdırıb. Azərbaycan millisindən qolları 28-ci dəqiqədə Vüsal İsayev, 32-ci dəqiqədə Rəvan Kərimov və 36-cı dəqiqədə Mirmehdi Rzayev vurublar.

Qeyd edək ki, son Avropa çempionu bu yarışda İraq, Misir və Küveyt yığmalarının yer aldığı G qrupunda mübarizə aparıb. Millimiz keçirdiyi hər 3 oyunda qalib gələrək 9 xalla 1/8 finala qrup lideri kimi adlayıb. Növbəti mərhələdə rəqib Portuqaliya millisi olub. Görüş Azərbaycanın 3:0 hesablı qələbəsi ilə başa çatıb.

Elşad Quliyevin başçılıq etdiyi komanda finala gedən yolda bu gün Qazaxıstan yığması ilə qarşılaşacaq.

*"Azərbaycan"*

# Soyuq fəslin isti hava fəsadı

**Payız mövsümü olmasına baxmayaraq, Azərbaycanda, demək olar ki, yaz havası müşahidə olunur. Əgər öncəki illərdə oktyabr-noyabr aylarında havaların əsasən soyuq, yağışlı, küləkli olmasını müşahidə edirdiksə, hazırda bunun əksi ilə rastlaşırıq. Oktyabr ayında olduğu kimi, demək olar ki, noyabrın ilk günlərində də günəşli havalar üstünlük təşkil edir.**

Bəs hazırda müşahidə olunan hava şəraiti iqlim normasına uyğundurmu? Payız fəslində havaların bu cür keçməsi insan orqanizminə necə təsir göstərir? Suallarımıza cavab tapmaq üçün mütəxəssislərə müraciət etdik.

### Oktyabr və noyabrın əvvəlində havanın isti keçməsi normal haldır

Coğrafiya İnstitutunun Xəzər dənizinin Hidrometeorologiya şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov deyir ki, oktyabr və noyabrın əvvəlində havanın isti keçməsi normal haldır: "Bu tip təbiət hadisəsi hava kütlələrinin hərəkət xarakterindən asılıdır. Bilirik ki, hansısa əraziyə hava kütləleri şimaldan daxil olarsa, temperatur aşağı düşür, hərəkətlilik cənubdan şimala doğru olduğu zaman hansı ay olmasından asılı olmayaraq, havanın isindiyini müşahidə edirik. Buna görə bəzən nəinki oktyabr, noyabr ayında, eləcə də yanvar, fevral aylarında da havanın qəfil isindiyini görə bilirik. Yəni bu cür hallar havanın hərəkət istiqaməti ilə bağlıdır".

Lokal istiləşmələr barədə danışan S.Səfərov bildirib ki, bu, fyon hadisəsi ilə əlaqədardır: "Fyon hadisəsi zamanı hava kütlələri hər hansı bir maneəni, məsələn, təpəni və ya dağ silsilələrini aşandan sonra havanın temperaturu artmağa başlayır və bu, güclü küləklə müşayiət olunur. Bu hadisə Bakı şəhəri üçün xarakterik olmasa da, daha çox dağlıq və dağətəyi ərazilərdə müşahidə olunur".

Havanın payız aylarında isti keçməsinin qlobal istiləşmənin təzahürü olub-olmaması barədə fikrini bildirən şöbə müdiri vurğulayır ki, qlobal istiləşmə ümumi bir fondur və bütün dünyada bunun təzahürləri özünü göstərir, lakin bu, bütün aylar üçün eyni deyil: "Orta statistik rəqəmlərə görə, havanın orta temperaturunun artması mart, avqust və oktyabr aylarında daha çox müşahidə olunur. Bu hal bəzən noyabrda da müşahidə edilirsə, nəzərəçarpacaq qədər deyil. Məsələn, son 30 ildə Bakı şəhəri üzrə oktyabr ayında havanın orta aylıq temperaturunun iqlim normasına nisbətən artması, təxminən, 1,5 dərəcə olub. Noyabrda isə bu rəqəm 0-a yaxındır. Yəni hansısa ay daxilində ayrı-ayrı günlərdə və ya müddətdə havanın temperaturunun bu və ya digər dərəcədə artması və ya azalması qlobal istiləşmə ilə bağlı deyil. Bu, atmosferin ümumi sirkulyasiyası xüsusiyyətləri ilə əlaqədardır, bunu birbaşa qlobal istiləşmə ilə əlaqələndirmək doğru deyil".

### Qeyri-normal hava şəraiti xroniki xəstəliyi olanlar üçün daha risklidir

Hava şəraitinin təsirindən danışan terapevt Sübhan Hacıyev deyir ki, makro və mikro elementlər orqanizmdə mövcud olduğu üçün təbiətdə baş verən bütün dəyişikliklər insana təsirsiz ötüşmür: "Hava dəyişkənliyi, xüsusilə atmosfer təzyiqinin artması meteohəssas insanlara, xroniki ürək-damar, şəkərli diabet, böyrək, qaraciyər xəstəliklərindən əziyyət çəkənlərə daha çox təsir edir. Bu hava şəraiti həmin insanlarda xəstəliklərin provokasiya olmasına şərait yaradır. Gənclərdə adaptasiya prosesləri sürətli getdiyi üçün onlar hər hansı problem yaşamırlar. Xroniki xəstəliyi olan şəxslərdə ağırlaşma halları daha çox müşahidə olunur. Onlarda ürək-damar xəstəliklərinin aktivləşməsi, bəzən hipertonik kriz kimi beyin qan dövranına mənfi təsir göstərə biləcək dərəcədə arterial təzyiqin yüksəlməsi baş verir. Bu zaman allergik xəstəliklər özünü daha çox büruzə verir ki, bu da boğulma simtomlarına kimi gətirib çıxara bilir".

Həkimin sözlərinə görə, hava şəraitinin mövsümə uyğun olmaması immun sistemini də zəiflədir: "İmmun sisteminin zəifləməsi isə xüsusilə respirator virus infeksiyalarının artmasına gətirib çıxarır. Son günlərdə həm uşaqlarda, həm də böyüklərdə virus infeksiyalarının artmasının şahidi oluruq".

S.Hacıyev tövsiyə edir ki, profilaktika olaraq, birincili xəstəlikləri hər zaman nəzarətdə saxlamalıyıq: "Ürək-damar xəstəlikləri, şəkərli diabet və digər hədəf orqanlarının zədələnməsi ilə gedən xəstəliklərin müalicəsini nəzarətdə saxlayaraq, düzgün qidalanaraq, vitamin C, vitamin D, sink, selen kimi mikroelementlərdən istifadə edərək, şəxsi gigiyenaya diqqət edərək, immun sistemimizi gücləndirərək qeyri-normal hava şəraitinin fəsadlarından qoruna bilərik".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**
Tiraj 5314
Sifariş 2838
Qiyməti 40 qəpik